# Xalq qəzeti

Xalqın qəzeti!

№ 207 (30323) 24 sentyabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Günün sözü

**Prezident İlham Əliyev:**

**Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.**

# Qarabağda reinteqrasiya prosesi başlanıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edib.**

Görüşdə regional məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

Toivo Klaar dövlətimizin başçısının Azərbaycan xalqına 20 sentyabr tarixli müraciəti, həmin müraciətdə Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə əlaqədar səsləndirdiyi fikirləri və Yevlaxda Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə keçirilmiş görüşü müsbət qiymətləndirdiyini bildirdi.

Dövlətimizin başçısı öz növbəsində Azərbaycan xalqına 20 sentyabr tarixli müraciətində Qarabağın erməni əhalisinin reinteqrasiyası ilə bağlı söylədiyi fikirlərə toxundu, onların bütün hüquqlarının - təhsil, mədəniyyət, din, bələdiyyə, seçki və digər hüquqlarının təmin olunacağını bildirdi.

Prezident İlham Əliyev Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə İşçi qrupun yaradıldığını, bu İşçi qrupun əsas funksiyalarının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli olduğunu, Yevlaxda keçirilmiş görüşdə reinteqrasiya məsələləri üzrə Azərbaycanın planlarının təqdim edildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı, həmçinin yerlərdə artıq silah və sursatın yığılması prosesinə başlanıldığını, orada çox böyük həcmdə silah-sursat anbarlarının müəyyən edildiyini bildirdi.

Prezident İlham Əliyev hazırda Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üçün regionda daha yaxşı imkanların yarandığını qeyd etdi.

Görüşdə, eyni zamanda, dövlətimizin həyata keçirdiyi humanitar layihələr haqqında məlumat verildi, Beynəlxalq Qırmızı Xaç Komitəsinin təqdim etdiyi sorğulara Azərbaycan tərəfindən müsbət cavab verildiyi və dəstək göstərildiyi vurğulandı.

***XQ***

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məlumatı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında İşçi qrup yaradılıb.**

İşçi qrup Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı çərçivəsində fəaliyyət göstərir.

İşçi qrupun tərkibinə İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar daxildir.

2023-cü il sentyabrın 20-dən etibarən İşçi qrup tərəfindən aşağıdakı tədbirlər həyata keçirilib:

• 2023-cü il sentyabrın 22-də Fövqəladə Hallar Nazirliyi tərəfindən erməni sakinləri üçün 40 tonluq ərzaq məhsulları və gigiyenik vasitələrdən ibarət 2 yük avtomobili və 2 çörək dolu avtomobil fəaliyyətdə olan Ağdam-Əsgəran-Xankəndi yolu ilə yola salınıb;

• Erməni sakinlərinin ilkin tibbi yardım və qida ilə təmin olunması məqsədilə Fövqəladə Hallar Nazirliyi tərəfindən Ağdam, Füzuli və Kəlbəcərdə 1000 nəfərlik çadır düşərgələri qurulub. Ərazidəki polis qüvvələri, hərbi heyət və mülki işçilər tərəfindən erməni sakinlərə yerlərdə ilkin tibbi yardım və müvafiq dəstək göstərilir;

• Sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə erməni sakinlərin nümayəndələrinin xahişinə uyğun olaraq, ilk növbədə, bağçalar, təcili tibbi yardım və yanğınsöndürmə xidmətləri olmaqla yanacaq-sürtgü materiallarının göndərilməsi təmin ediləcək;

• Rusiya sülhməramlı qüvvələri kontingentinin şəxsi heyətinin istifadəsi, eləcə də sülhməramlılar vasitəsilə mülki əhaliyə çatdırılması üçün Laçın-Xankəndi yolundan ərzaq və gündəlik tələbat mallarının keçidi təmin olunur;

• Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) tərəfindən Ağdam-Əsgəran-Xankəndi və Laçın-Xankəndi yolu ilə ərzaq, dərman preparatları və uşaq qidasından ibarət yüklərin aparılmasına, təşkilatın Bakı və Cenevrə ofislərindən Xankəndidə olan alt-ofisinə əlavə heyətin ezam olunmasına şərait yaradılır;




• BQXK müraciəti əsasında tibbi yardıma ehtiyacı olan şəxslərin Ermənistana təxliyəsi üçün zəruri imkanlar yaradılır.

*

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin, ilk növbədə, bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtgü materialları ilə təmin edilməsi xahişinə uyğun olaraq, sentyabrın 23-də Bərdə-Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə 24 ton benzin, 40 ton dizel yola salınıb.

# Bəzi Avropa siyasətçilərinin nəfəsindən "səlib"çi qoxusu gəlir



**Azərbaycan Prezidentinin siyasi uzaqgörənliyi və mükəmməl diplomatiyası onların ağzını elə bir labirintə yönəldib ki, istənilən istiqamətə getmək istəyəndə burunları divara dəyir. Söhbət Avropadakı bəzi anti-türk və anti-Azərbaycan mövqeli siyasətçilərin atdığı addımların hamısının dalana dirənməsindən və ya ifşa olunmasından gedir.**

Bu dalanları və ifşaolunmaları Fransanın təşəbbüsü ilə Qarabağla bağlı çağırılan BMT Təhlükəsizlik Şurasının təcili iclasının tamamilə nəticəsiz başa çatmasında da gördük. Bədxahlarımız orada heç nəyə nail ola bilməsələr də, dünya şahid oldu ki, Fransa və Ermənistan BMT Təhlükəsizlik Şurasını özlərinin siyasi maraqlarının alətinə çevirmək istəyindən əl çəkmirlər. Onların əl çəkib – çəkməyəcəklərinə baxmayaraq, Paris və İrəvanın beynəlxalq ictimai rəyi manipulyasiya etmək, bununla Azərbaycanın əleyhinə hansısa bir qərar və qətnamə qəbul etdirmək cəhdi bu dəfə də iflasa uğradı.


*(ardı 4-cü səhifədə)*


# BMT-ni hərtərəfli islahatlar gözləyir




Səhifə ⇨ 11


# Davamlı inkişafın yarımillik "kardioqramı"


Səhifə ⇨ 7


# İrəvan etiraz aksiyalarından yaxa qurtara bilmir

## Radikal-revanşistlər və daşnaklar iğtişaş törətmək niyyətindədir



**Sentyabrın 19-u günortadan sonra Ermənistan paytaxtında başlayan etiraz aksiyası dünən də davam edib. Ancaq əvvəlki günlərdən fərqli olaraq, dünən iştirakçıların saylarının azlığı diqqət çəkib.**

Yayılan videolardan görünür ki, əsasən gənclərdən ibarət kiçik qruplar əllərində plakatlar tutaraq İrəvanın mərkəzi küçələrində yürüş ediblər. Onların önündə gedən gənc oğlan səsgücləndirici vasitəsilə müxtəlif şüarlar səsləndirib, insanları onlara qoşulmağa çağırıb. Lakin arxasınca gələn 15-20 nəfərdən başqa onlara heç kəs qoşulmayıb.


*(ardı 3-cü səhifədə)*


# Ermənistan Rusiya silahlarından imtina edib



**Ermənistanın "Joxovurd" qəzeti ölkənin Rusiya və Hindistandan silah-sursat alışına dair maraqlı yazı dərc edib. Qeyd olunub ki, İrəvan Rusiya ilə alqı-satqı müqavilələrindən imtina edib. Bunun əvəzində Hindistanın özəl şirkətləri ilə müqavilələr imzalayıb. Şirkətlərin bank hesabına 500 milyon dollar köçürülüb, lakin müqavilədə nəzərdə tutulan silahların beş faizi belə alınmayıb.**

Məqalədə deyilir: "İrəvandakı və Moskvadakı mənbələrimiz bildiriblər ki, Ermənistan müdafiə nazirliyi ilə Rusiyanın "SMERÇ" tipli raketlər istehsal edən "Splav" Açıq Səhmdar Cəmiyyətinin zavodu arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən, Rusiya zavodu Ermənistana lazım olan "SMERÇ" tipli raketlər istehsal etməli idi. Zavod Ermənistan müdafiə nazirliyinə bildirib ki, yük çatdırılmağa hazırdır və onlar yükü qəbul etmək üçün mütəxəssislər göndərə bilərlər. Ancaq Ermənistanın müdafiə nazirliyi 1 il 3 aydan sonra da yükü Ermənistana daşıya bilməyib. Yükü götürmək üçün "Splav" ASC-nin zavodu 3 dəfə Ermənistan müdafiə qurumu ilə əlaqə saxlayıb, bu ölçüdə olan yükü anbarda uzun müddət saxlamaq mümkün olmadığından onları qısa müddətdə almaq xahişi ilə müraciət edib. Bu qədər müraciətdən sonra da İrəvan yükün daşınmasını təşkil etməyib".


*(ardı 4-cü səhifədə)*


# Macarıstan etibarlı dost, perspektivli tərəfdaşdır




Səhifə ⇨ 8


# Üzeyir Hacıbəylinin sevimli tələbəsi


Səhifə ⇨ 10

# İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

**Əlahəzrət,**
**Əziz Qardaşım!**

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı – Krallıq elan edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ortaq tarixi-mədəni köklər, qardaşlıq, İslam həmrəyliyi kimi möhkəm təməllər üzərində qurulmuş, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərə xüsusi əhəmiyyət veririk. Yüksək səviyyəli qarşılıqlı səfərlər, müxtəlif sahələri əhatə edən ikitərəfli və çoxtərəfli müstəvidə faydalı əməkdaşlığımız, daim genişlənən siyasi, iqtisadi və mədəni əlaqələrimiz qardaş ölkələrimiz arasında çoxşaxəli əlaqələri səciyyələndirən başlıca amillərdəndir. Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında tərəfdaşlığın inkişafında və möhkəmlənməsində Sizin böyük xidmətləriniz vardır və biz bunu yüksək qiymətləndiririk.

Siyasi əlaqələrimizin hazırkı səviyyəsi və fəal dialoqumuz bütün sahələrdə, xüsusilə də energetika və investisiya qoyuluşu sahələrində, o cümlədən işğaldan azad olunmuş ərazilərdə qarşılıqlı fəaliyyətimizin daha da genişləndirilməsi üçün yaxşı zəmin yaradır. Alternativ və bərpa olunan enerji sahəsində Səudiyyə Ərəbistanının aparıcı "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda Külək Elektrik Stansiyasının inşası ilə bağlı həyata keçirdiyi layihəni əməkdaşlığımızın əhəmiyyətli nümunəsi kimi dəyərləndirirəm.

Biz Səudiyyə Ərəbistanına Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyinə görə minnətdarıq.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı ənənəvi dostluq münasibətləri, həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız qardaş xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da möhkəmlənəcək və dərinləşəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 sentyabr 2023-cü il**

# İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident!**

İtaliya Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi Ciorcio Napolitanonun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Ciorcio Napolitanonun Azərbaycan ilə İtaliya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına verdiyi böyük töhfəni yüksək qiymətləndirir, onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, mərhumun ailəsinə və bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 sentyabr 2023-cü il**

# T.S.Süleymanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Tahir Süleyman oğlu Süleymanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 sentyabr 2023-cü il**

# Nazirlər Kabinetinin geniş iclası

## *Dövlət büdcəsi və icmal büdcə müzakirə olundu*

**Sentyabrın 23-də Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunmuş Nazirlər Kabinetinin geniş iclası keçirilib.**



İclası giriş sözü ilə açan Baş nazir Ə.Əsədov Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Ordumuz tərəfindən bir neçə gün əvvəl həyata keçirilən uğurlu lokal xarakterli antiterror tədbirləri barədə danışıb. Vurğulanıb ki, şanlı Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri cəmi bir gün ərzində yerinə yetirib.

Sonra ölkənin iqtisadi inkişaf göstəriciləri barədə məlumat verən Ə.Əsədov bildirib ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6 faiz, qeyri-neft sənayesində isə 6 faiz artım qeydə alınıb.

Hazırda ölkənin maliyyə vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşıb, strateji valyuta rezervləri 67 milyard ABŞ dollarına çatmış və ilin əvvəlindən 14,5 faiz artıb.

2023-cü ilin ötən dövründə xarici ticarət balansının əhəmiyyətli həcmdə müsbət saldosunun yaranması, xarici borcun azalması və büdcə gəlirlərinin yüksək icrası əldə olunmuş çox müsbət nəticələr kimi dəyərləndirilib.

Bildirilib ki, bütün bunların nəticəsində 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılıb və büdcə gəlirləri 3,1 milyard manat və ya 10,1 faiz, büdcə xərcləri isə 3,3 milyard manat və ya 9,8 faiz artıb.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatının yaradıldığı diqqətə çatdırılıb.

Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasətinin müəyyən edilməsi ilə bağlı əsas çağırış və hədəflər barədə məlumat verilib.

Bu xüsusda "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasının, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidənqurulması, həmçinin Böyük Qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsinin, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsinin, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsinin, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsinin, ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasətinin aparılmasının, makroiqtisadi və büdcə dayanıqlığının təmin edilməsinin önəmi vurğulanıb.

Diqqətə çatdırılıb ki, dövlət başçısının Hökumət qarşısında qoyduğu başlıca tapşırıqlardan biri də bu ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəsinə nail olunmasıdır.

Bu məqsədlə Nazirlər Kabinetinin 2023-cü il 15 iyul tarixli sərəncamı ilə "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılmış İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülməkdədir.

Vurğulanıb ki, inflyasiyanın makroiqtisadi və maliyyə sabitliyi üçün xələl gətirməyən həddə qorunması məqsədilə müvafiq tədbirlərin görülməsi davam etdiriləcək. Məhz bu baxımdan ortamüddətli dövrdə də Hökumət qarşısında əsas çağırışlardan birinin makroiqtisadi sabitliyin və büdcə dayanıqlığının təmin edilməsinin olduğu bildirilib.

İclasda maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri haqqında, iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 2024-cü il üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri haqqında, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədovun "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı qarşıda duran məsələlər haqqında məruzələri dinlənilib.

Daha sonra gündəlikdə duran məsələlərə dair müzakirələr aparılıb.

İclasa yekun vuran Baş nazir Hökumət qarşısında duran əsas vəzifələr barədə məlumat verib.

Ölkənin hərbi potensialının və dövlət təhlükəsizliyinin daha da möhkəmləndirilməsi, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, Böyük Qayıdışın təmin edilməsi, maliyyə sektorunda nizam-intizamın gücləndirilməsi, vergi və gömrük sahəsində islahatların, daxili bazarda sağlam rəqabət mühitinin təmin edilməsi istiqamətində tədbirlərin davam etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin olunması, həmçinin qarşıda duran digər prioritet layihələrin icrası ilə bağlı müvafiq tapşırıqlar verilib.

***XQ***



# "İnformasiya Texnologiyaları rəhbərlərinin II Zirvə toplantısı"

**Sentyabrın 23-də Bakıda Beynəlxalq Kibertəhlükəsizlik Günlərinə həsr edilmiş "Rəqəmsal iqtisadiyyatlar və kibertəhlükəsizlik" konfransı çərçivəsində Azərbaycan Respublikasının dövlət qurumlarının "İnformasiya Texnologiyaları rəhbərlərinin II Zirvə toplantısı" yekunlaşıb.**

Tədbirdə çıxış edən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisi, general-mayor Azər Əhədov bildirib ki, dövlət qurumlarında internetin təhlükəsiz istifadə olunması, informasiya təhlükəsizliyinin gücləndirilməsi, eləcə də əməkdaşların sahə üzrə məlumat və bilgilərinin artırılması məqsədilə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası tərəfindən "İnformasiya təhlükəsizliyinin təmini üzrə Təlimat" layihəsi hazırlanaraq öz fəaliyyət istiqamətinə uyğun tətbiq olunması üçün dövlət qurumlarına göndərilib. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən göstərilmiş metodiki yardım və keçirilmiş təlimlərin nəticəsi olaraq hazırda 120-dən artıq dövlət qurumunda İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının tövsiyəsinə uyğun olaraq daxili informasiya təhlükəsizliyi təlimatı hazırlanıb.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Rəqəmli media ilə iş sektorunun müdiri Elmir Vəlizadə vurğulayıb ki, informasiya sistemləri ölkəmizin ən kritik sahəsinə çevrilib. Ötən 20 il ərzində Azərbaycanda informasiya texnologiyaları sahəsində mühüm addımlar atılıb. "Son dövrlərdə Azərbaycanda kritik informasiya infrastrukturu sahəsinə dair normativ-hüquqi bazanın formalaşdırılması və əməli tədbirlərin həyata keçirilməsi sahəsində addımlar atılır. Artıq informasiya sistemləri ölkəmizdə kritik əhəmiyyətli sistemlər səviyyəsinə gəlib. Bu, onun vacibliyini gündəlik həyatımızda olan önəmini göstərir. Azərbaycanda ASAN və DOST mərkəzləri yaradılıb və modelləri bəzi ölkələrə təqdim edilir", - deyə sektor müdiri qeyd edib.

Tədbirdə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin idarə rəisi Tural Məmmədov yeniliklər barədə məlumat verərək qeyd edib ki, bu il təqdim olunacaq yenilik - "SMS mərkəzi" xidmətidir. Növbəti yeni sistem isə "Ziyarətçi analizi" sistemidir: "Bu sistem bizim "log"larımızın xarici şirkətlərin ötürülməsinin qarşısının alınması baxımından çox vacib bir sistemdir. Bunun üçün biz daxili bir sistem yaratmışıq".

***XQ***

# Bakı Təşəbbüs Qrupunun BMT konfransı

**BMT Baş qərargahında Bakı Təşəbbüs Qrupunun təşəbbüsü ilə keçirilmiş "Dekolonizasiya: Sakit İnqilab" konfransında yekun bəyanat qəbul olunub.**



"Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində 6 iyul 2023-cü il tarixində Bakıda keçirilmiş ilk tədbirdə, tərəflər Bakı Təşəbbüs Qrupunun yaradılmasına dair razılığa gəlmiş və müstəmləkəçiliyə qarşı mübarizədə əməkdaşlığın davam etdirilməsinə hədəflərini ifadə edib.

"Dekolonizasiya: Sakit İnqilab" konfransının iştirakçıları Bakı Təşəbbüs Qrupunu rəsmi fəaliyyətə başlaması ilə əlaqədar təbrik edib və Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında Daimi Nümayəndəliyinin (Qoşulmama Hərəkatının Əlaqələndirici Bürosunun sədri qismində) dəstəyi ilə konfransın təşkilinə görə minnətdarlıqlarını bildiriblər.

Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Fransız Polineziyası, Qvadelupa müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, Melaneziya Təşəbbüs Qrupunun katibliyi və Bakı Təşəbbüs Qrupunun nümayəndələri Birləşmiş Millətlər Təşkilatının və Qoşulmama Hərəkatının Nizamnaməsinin əsas prinsiplərinə, həmçinin, dekolonizasiyaya dair müvafiq qətnamələrə sadiq olduqlarını bildirib və müstəmləkəçilik altında olan bütün millətlərin azad edilməsindən əvvəl dekolonizasiya prosesinin tamamlanmasının vacibliyini bir daha vurğulayıblar.

Beynəlxalq hüququn fundamental prinsipləri çərçivəsində müstəqillik uğrunda mübarizə aparan xalqlara dəstək vermək BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının əsas hədəflərindən birini təşkil edir.

Bu, müstəmləkəçilikdən əziyyət çəkən xalqların milli müstəqilliyi uğrunda mübarizədə qarşısına qoyduğu çoxsaylı çağırışlara, tarixən Fransanın müstəmləkə gücü ilə insan, iqtisadi, ekoloji və mədəni cinayətlərə görə hüquqi təzminat tələbinə həmrəyliklə necə cavab vermək barədə səylərini birləşdirməyə qiymətli imkanlar verir.

Nyu-Yorkda təmsil olunan Yeni Kaledoniya, Fransız Polineziyası, Martinika, Qayana və Qvadelupa müstəqillik və millətçi hərəkatları dünyaya, eləcə də bu gün Baş qərargahında olduqları BMT başda olmaqla beynəlxalq təşkilatlara təcili müraciətlə çıxış edərək xalqlarının mənafeyinə uyğun olaraq azadlıq hüquqlarına, təzminat və inkişaf kimi əsas səylərinin dəstəklənməsi üçün səslərini ən yüksək səviyyədə ucaltdılar.

Biz Noumea Müqaviləsi ilə başlayan dekolonizasiya prosesi üzrə FLNKS-nin 3-cü referendumun etirazını Beynəlxalq Ədalət Məhkəməsinə təqdim etmək qərarını dəstəkləyirik.

Fransız Qvianası, Martinika və Qvadelupa ilə əlaqədar isə biz tələb edirik ki, bu ölkələr Birləşmiş Millətlər Təşkilatının dekolonizasiya prosedurları üzrə ölkələr siyahısına yenidən daxil edilsin.

Fransa Respublikası Maohi Nuinin müstəmləkədən azad olacaq ölkələr siyahısına yenidən yazılmasından sonra, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən hər il Fransız Polineziyası, Maohi Nui bölgələrinə aid məsələlərdə boş kürsü rolunu oynayır. Biz Fransadan 2013, 2019, 2020, 2022-ci ildə qəbul edilən qətnamələrinin tələblərinə uyğun olaraq dekolonizasiya prosesi ilə bağlı danışıqlara başlamasını tələb edirik.

Bəşəriyyətimizin qlobal təhlükələrlə üzləşdiyi bir vaxtda, təşkilatımız təntənəli şəkildə bəyan edir ki, müstəmləkəçilik və neokolonializmin tamamilə ləğvi və xalqlar arasında əməkdaşlığa, bərabərliyə əsaslanan yeni dünyanın qurulması, qarşılıqlı hörmət və xalqların suverenliyi beynəlxalq münasibətlərin əsasını təşkil etməlidir.

Bakı Təşəbbüs Qrupu və Cənubi Amerika, Karib hövzəsi, Hind okeanı və Sakit okean hövzəsindəki Fransa koloniyalarının təşkilatları xalqlarımız arasında zəruri həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının Dekolonizasiya üzrə Xüsusi Komitəsi və digər BMT orqanları ilə sıx əməkdaşlığın qurulması məqsədilə öz nəticəyönümlü fəaliyyətini davam etdirəcək".

# Rus İcması sülhü və tərəqqini dəstəkləyir

**Azərbaycanın Rus İcması ölkə rəhbərliyinin Qarabağın erməni əhalisinin tezliklə çoxmillətli Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində səylərini tam dəstəkləyir.**

Bu barədə İcmanın Respublika Şurasının bəyanatında bildirilir. Sənəddə vurğulanır: "Biz, Azərbaycanın rus əhalisi əminik ki, Qarabağ bölgəsi ermənilərinin sosial-iqtisadi reinteqrasiyası planı respublika Konstitusiyasında təsbit olunmuş bütün hüquq və normalara tam şəkildə uyğundur. Azərbaycan ənənəvi çoxmillətli, çoxmədəniyyətli ölkədir və burada çoxlu etnik qruplar sülh və anlaşma şəraitində yaşayır. Tariximizin bütün dövrlərində milli və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizdə məskunlaşmış bütün xalqlar arasında sülh şəraiti hökm sürüb. Bütün Cənubi Qafqazda sülhün, inkişaf və tərəqqinin vaxtı gəlib çatıb".

Respublika Şurası bəyan edib: "Biz canlarını Vətən uğrunda fəda etmiş qəhrəmanları həmişə xatırlayacağıq. Təəssüf ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Rus İcması həlak olanların ailələrinə başsağlığı verir və yaralıların tezliklə şəfa tapmasını diləyir".

***XQ***

# İrəvan etiraz aksiyalarından yaxa qurtara bilmir

## Radikal-revanşistlər və daşnaklar iğtişaş törətmək niyyətindədir



(əvvəli 1-ci səhifədə)

İştirakçılar Ermənistan baş naziri Nikol Paşinyanı və onun komandasını Azərbaycanın maraqlarına xidmət etməkdə (?) ittiham ediblər. Bildiriblər ki, belə bir siyasi qüvvə öz mövqeyini dəyişə və Ermənistanın maraqlarına xidmət edə bilməz.

Qeyd edək ki, N.Paşinyan sentyabrın 20-də xalqa müraciətində dövlət çevrilişinə cəhd barədə informasiyalar əldə etdiklərini bildirmişdi. O qeyd etmişdi ki, qeyri-qanuni aksiyaların qarşısı qanunvericiliyə uyğun, ən sərt şəkildə alınacaq. Paşinyan vurğulamışdı ki, paytaxtda iki dəstə anarxiya və xaos yaratmaq istəyir. Bunlardan biri ölkənin eks-prezidentlərindən birinin oğlunun başçılıq etdiyi idmançılardan ibarət dəstə, digəri isə ali məktəb tələbələrindən ibarət qrupdur. Sentyabrın 22-də idmançılardan ibarət dəstəyə eks-prezident, Xocalı soyqırımının iştirakçısı Robert Koçaryanın oğlu Levonun rəhbərlik etdiyi məlum olub. Həmin gün o, etiraz aksiyasında saxlanılıb. Qırmızı beretli 4 polis xüsusi təyinatlısı idmançı Levonu çox çətinliklə həbs edə bilib. O, polis avtomobilinə mindirildikdən sonra da müqavimət göstərib və buna görə polislər tərəfindən yaxşıca döyülüb.

Vəkil Aleksandr Koçubayev "Facebook" hesabında bildirib ki, R.Koçaryanın oğluna cinayət işi açılıb. "Saat 12:00-da polis əməkdaşları Levon Koçaryana hücum edərək, onu şiddətlə döyüblər. Biz istintaq orqanına Levon Koçaryana işgəncə verilməsi ilə bağlı protokol təqdim etmişik. Ancaq polislər ifadələrində Koçaryanın onları döydüyünü bildiriblər. Bu arqument əsasında cinayət işi başlanıb. Bu, hüquqi özbaşınalıqdır. Koçaryan bu məsələyə təbəssümlə yanaşaraq, təslim olmamağa və mübarizəni davam etdirməyə çağırıb", – deyə vəkil yazıb.

Vəkil, həmçinin Koçaryanın həbsi zamanı polislər tərəfindən döyüldüyünə dair videonu da paylaşımına əlavə edib: "Mən İstintaq Komitəsini məsələyə baxmağa və bir oftalmoloqla əlaqə saxlamağa çağırıram".

Bundan əlavə, Ermənistan mediasında R.Koçaryanın oğlunun "Nairi" xəstəxanasına köçürülməsi xəbəri yayılıb. Ona qapalı kəllə-beyin travması – beyin silkələnməsi diaqnozu qoyulub, vəziyyəti orta ağır kimi qiymətləndirilir.

***

Dünən İrəvanda informasiya kampaniyası apardıqlarını iddia edən bir qrup gənc isə Ermənistan parlamentinin təhlükəsizlik və müdafiə daimi komissiyasının sədri Andranik Koçaryanın evinə yürüş edərək, orada qısamüddətli aksiya keçirib.

Onlar bildiriblər ki, aksiyanın keçirilməsinə A.Koçaryanın dediyi fikirlər səbəb olub. Qeyd edək ki, parlamentin daimi komissiyasının sədri sentyabrın 22-də müsahibə zamanı lazım gələrsə, etirazçılara atəş açacaqlarını bildirmişdi.

Etirazçılar isə deyiblər ki, onların məqsədi hansısa inzibati binanı zəbt etmək, nəticədə onlara atəş açılıb-açılmayacağını gözləmək deyil. "Bizi atəş açmaq üçün ən vacib yerdən məhrum etdilər. Biz deyirik: bu "soyqırımı" aktını dayandırın, biz silahlarımızı "Artsax" adına hara tuşlayacağımızı bilirik", – deyə nümayişçilərdən biri revanşist fikirlər söyləyib. Qalan etirazçılar isə bu zaman "Qarabağ, Qarabağ" deyə şüar səsləndiriblər. Sonra isə "Qarabağ" şüarını "Ayıb olsun" şüarı əvəz edib.

Revanşist fikirlər səsləndirən digər şəxs isə müxalifçi deputat, Respublika Partiyasının üzvü Tiqran Abramyandır. O, "Facebook" səhifəsində yazıb ki, kimsə Qarabağda müharibənin bitdiyini düşünürsə, dərindən yanılır və bütün bunlar sadəcə, atəşkəsdir.

Abramyan qeyd edib ki "Qarabağ xalqı"nın (?) gələcəyi qaranlıqdır: "Azərbaycanlılarla daimi danışıqlar aparılır, lakin bütün bunları danışıqlar adlandırmaq çox çətindir. Rayonlar ayrılıb, Xankəndi də öz növbəsində mühasirəyə alınıb, insanlar girov statusundadır və beynəlxalq ictimaiyyət tərəfindən addımlar atılmasa, heç nə əldə etmək mümkün olmayacaq. Bunu ona görə demirəm ki, mən təbiətcə pessimistəm. Sadəcə olaraq, necə irəliləyəcəyimizi başa düşmək üçün vəziyyəti mümkün qədər dəqiq qiymətləndirməliyik".

Bu arada "Joxovurd" qəzeti Ermənistanın bütün polislərinin sentyabrın 14-də 120 min dram mükafat aldığını yazıb. Qəzet qeyd edir ki, hakimiyyət orqanlarının payladığı və aldığı inanılmaz mükafatlar artıq heç kimə yenilik deyil. Amma məlum olur ki, hüquq-mühafizə sistemi onlardan nəinki mükafatların sayına, hətta "əsaslandırmalarına" görə də geri qalmır. Belə ki, Paşinyan iqtidarı tez-tez, ciddi əsas olmadan hüquq-mühafizə oranlarına mükafatlar verir.

Onu da qeyd edək ki, sentyabrın 24-də Ermənistan Mərkəzi Seçki Komissiyası İrəvan Ağsaqqallar Şurasına seçkinin nəticələrinə yekun vuracaq. Komissiyanın saat 15:00-da keçiriləcək növbədənkənar iclasının gündəliyinə yalnız bu məsələ daxil edilib.

Bazar günü saat 18:00-da isə İrəvanda müxalifətin növbəti mitinqi keçiriləcək. Milli komitənin (?) və "Ana Ermənistan" blokunun rəhbəri Andranik Tevanyan bildirib ki, mitinq zamanı ilkin nəticələrə yekun vurulacaq və gələcək planlar təqdim olunacaq.

Ermənistanın ilk baş naziri Vazgen Manukyan bildirib ki, kütləvi itaətsizlik aksiyaları davamlı olacaq. Onun "ümummilli hərəkat" adlandırdığı başıpozuq dəstələrin əlaqələndirilməsi üçün "milli komitə" yaradılıb. Komitənin tərkibinə 11 nəfər daxil olmalıdır. Hazırda onlardan beşinin adı məlumdur. Bunlar Ayk Mamicanyan, Vazgen Manukyan, Avetik Çələbyan, Andranik Tevanyan və "Daşnaksütyun"un ali orqanının təmsilçisi İşxan Saqatelyandır.

***Səxavət HƏMİD***
***XQ***



# Ceyhun Bayramov BMT-nin Baş katibi ilə görüşüb

**Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 78-ci sessiyası çərçivəsində iştirak edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Baş katibi Antoniu Quterreşlə görüşüb.**

Görüşdə BMT və Azərbaycan münasibətlərinin müxtəlif istiqamətləri və regional məsələlər, eləcə də, Ermənistan-Azərbaycan münasibətləri müzakirə edilib.

***XQ***

# Kolumbiya televiziyası Azərbaycanın haqq işindən danışdı

**Bütün Amerika qitəsi üzrə fəaliyyət göstərən Kolumbiyanın aparıcı xəbər telekanalı "NTN24"-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağ iqtisadi rayonunda keçirilən lokal xarakterli antiterror tədbirləri və onun nəticələrinə dair geniş süjet yayımlanıb.**




Qeyd olunub ki, Ermənistan tərəfinin bitməyən təxribatları, törətdiyi terror əməlləri və 2020-ci ilin 10 noyabr tarixində imzalanmış Üçtərəfli Bəyanatın şərtlərinə riayət etməməsi lokal xarakterli antiterror tədbirlərini qaçılmaz etdi.

Erməni silahlı qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən həyata keçirilmiş sonuncu terror aktı zamanı 2 nəfər mülki şəxs olmaqla, 7 polis əməkdaşı həyatını itirdi. Nəticədə Qarabağda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək Azərbaycan ərazilərindən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirləri həyata keçirildi.

***XQ***

KÖŞƏ

# Şəhidlərə ehtiram, yoxsa...

## İstəyimiz nədir, ortada olan nə?

**Silahlı Qüvvələrimizin 23 saat 43 dəqiqə davam etmiş lokal antiterror tədbirləri ölkəmizin suverenliyini bərpa etdi. Çox qürurluyuq. Doğma torpağa sahiblənməyin fəxarət dolu anlarını yaşayırıq. Xoşbəxt xalqıq ki, Uca Tanrı bizə bu günləri nəsib etdi. Böyük türk şairi Mithat Camal Kuntayın dili ilə desək, "Bayrakları bayrak yapan üstündeki kandır,Toprak, eger uğrunda ölen varsa, Vətəndir". 44 günlük mübaribədə olduğu kimi, antiterror tədbirləri zamanı da şəhidlərimiz oldu. Allah hər birinə rəhmət eləsin, nur içində uyusunlar. Onların Vətən qarşısındakı xidmətləri unudulmazdır. Qədirbilən xalqımız həm torpaqlarımızın azadlığı yolunda, həm də suverenliyimizin bərpası naminə canlarını fəda etmiş igid övladlarını daim qəlbində yaşadacaqdır.**



**Əvəz RÜSTƏMOV**
**evez.rustemov@gmail.com**

Qədirbilənliyimizi göstərmək üçün şəhid dəfnlərinə gedir, onların ata-analarının, qohum-əqrəbalarının, əzizlərinin və yaxınlarının dərdlərinə şərik çıxmağa çalışırıq. Çalışırıq ki, bu kateqoriyadan olan şəxslər, heç olmasa, bir anlığa, soyuq divarlar qarşısında tək qalanadək, acı-ağrılarını unutsunlar. Təsəlli üçün söz axtarıb tapmağı bacarmadığımız anlar da olur. Bilmirik nə deyək. İçimizdə sarsıntı keçirir, susuruq...

Övlad itkisi böyük dərddir. Xarakterinə həm də mübhəmliyin kəsildiyi dərd. Şəhidlik məqamından söhbət düşəndə isə dərd, müəyyən mənada müqəddəsdir. Müqəddəslik həm də toxunulmazlıqdır. Bəlkə başqa cür ifadə etməliydik, amma gördüyümüz bəzi mənzərələr onu deməyə əsas verir ki, övladı şəhid olmuş şəxslərin dərdinə, acısına toxunanlar da var.

Yəqin, şəhid dəfnlərindən paylaşılan videogörüntülər çoxlarınızın qarşısına çıxıb. Əlbəttə, bu görüntülərdə ibrətamiz epizodların olduğunu danmırıq. Amma həmin mərasimlərdən ürəkdağlayan məqamların paylaşıldığına da şahidik. Ana, ata, qardaş ya bacı hərbçi tabutunun üstünə sarılır, ah-nalə çəkir, huşunu itirir və sair. Hələ onu demək istəmirik ki, belə epizodlar insanlarda ruh düşkünlüyü yarada bilər. Yəni məsələnin bu tərəfini, hələlik bir kənara qoyuruq. Üstəlik, bir qalib xalq olaraq dərdlə sınmamağımızın vacibliyindən də söz açmırıq. İndilik, heç şəhidlik məqamının yüksəkliyindən danışmaq niyyətindən də uzağıq. Sadəcə, bir valideyn üçün övlad itkisinin mübhəmliyini, fərdiliyini vurğulamaq fikrindəyik.

Sual olunur: şəhid dəfnlərindən paylaşılan video görüntülərdəki ah-nalə epizodları övlad itirmək dərdini ictimailəşdirirmi? Bu görüntülər, hansısa formada dərdi fərdilikdən çıxarıb toplumsal məcraya yönəldirmi? Nəhayət, bu ürəkdağlayan səhnələr cəmiyyətə nə isə fayda verirmi? Nə qazanır cəmiyyət? Qədirbilənlikmi öyrənir? Əsla, yox!

Bəli, şəhid dəfnlərindən, onlarca vida mərasimlərindən, onların hüzür yerlərindən paylaşılan ürəkdağlayan videolarda heç bir ictimai motiv yoxdur. Sanki kimlərsə belə görüntüləri mazaxistcəsinə həzz alırmış kimi yayır. Hələ bəziləri paylaşımlarına pafoslu başlıqlar seçir, öz aləmlərində, təqdimat verir. Ən pisi isə budur ki, məsələyə məhz bu formada yanaşan media orqanlarımız da tapılır. Onlar sosial şəbəkələrdəki səhnələri xəbərə çevirirlər. Həqiqətən dəhşətdir.

Dərdin ictimailəşməsindən danışırdıq. Bu, jurnalistikanın üzərinə düşən işdir. Jurnalistlərimiz elə etməlidirlər ki, şəhidlərlə bağlı məsələlərin təqdimatı, o cümlədən, şəhid dəfnləri anlamlı olsun, əsl qədirbilənlik nümunəsi olsun. Axı, cəmiyyəti formalaşdırmaq missiyası, ilk növbədə, medianın üzərinə düşür. Deməli, dərd ictimailəşirsə, bu, cəmiyyətin formalaşmasına dəstək mahiyyəti daşımalıdır. Bəs, şəhid dəfnləri fonunda medianın göstərdiyi ah-nalə içərisində olan cəmiyyət bizə lazımdırmı? Şəhid ruhları necə, bu səhnədən şad olarmı? Axı, "ağlama, şəhid anası, ağlama" deyən də bizik. Niyə o şəhid anasının ağlar gününü, saçını yolmasını, fəryad qoparmasını yaymaq kimi iş görülməlidir? Budurmu şəhidlik məqamına hörmətimiz?

***

Məsələyə başqa aspektdən yanaşaq. Allah qismət eləməsin, övladını itirməyən heç kəs o ağrının nə olduğunu bilməz, anlamaz. Heç kəs də övlad itkisinə hansı reaksiyanı verəcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Reaksiyalar isə müxtəlifdir. İtki hər bir şəxsə müxtəlif cür təsir göstərir. Tam mümkündür ki, kimlərsə övlad itkisinə göstərdiyi reaksiyanın ictimailəşməsini istəmir. Sonradan həmin səhnələri görüb daha pis duruma düşənlər tapılır. Onlara yenidən dərd yaşatmaq istəyirik? İstəyirik ki, fəryad qopardıqları anlara tamaşa etsinlər və dərddən özlərinə gələ bilməsinlər? Görəsən, bəziləri bunları düşünürmü?

Gərək düşünsünlər. Onu da nəzərə alsınlar ki, kimlərsə yaşadıqları ağrı-acı anının nümayişə çıxarılmasına, sadəcə, razı deyil. Tam mümkündür ki, özlərinin düşdükləri faciəli durumu görməkdən əsəb keçirənlər tapılsın. Axı, dərd dediyimiz həm də fərdi xarakter daşıyan məsələdir. Niyə bunu nəzərə almır və düşünmürük ki, dəhşət səhnələrini yaymaqla həm də şəxsi həyata müdaxilə etmiş oluruq? Bilmirikmi ki, fərdin şəxsi həyatına müdaxilə halı, eyni zamanda, böyük qanun pozuntusudur?

İndiki halda şəhid dəfnlərində ictimai motivlər gözlənilmirsə, yəni təqdimatlarda ibrətamizlik amili əsas götürülmürsə, yalnız ürəkdağlayan səhnələr gözə girirsə, deməli, heç kəs deyə bilməz ki, bunların yayılması qədirbilənlikdir, ehtiram nümunəsidir. Belə qədirbilənlikmi olur? Hər halda, ananın, atanın şəhid övlad tabutunu qucaqlamasını çəkib yayımlamaqda hansısa məna yükü yoxdur.

***

Əvvəldə bildirdik ki, dəhşət səhnələri cəmiyyətdə ruh düşkünlüyü yaradır. Söhbətimizin bu bölümündə həmin deyimin üzərinə gələk. Həm də ona görə ki, ümumən Azərbaycan insanını ruhdan düşmüş, pessimist görmək istəyən xarici qüvvələr var. Əksəriyyəti də ermənipərəst mövqe tutanlardır. Uzun müddət onların daxilimizdəki "pasifistləri" öyrədib xalqımızı haqq davasından yayındırmaq yolu tutduqlarının şahidi olmuşuq. Bu cinahın təmsilçiləri istəyiblər ki, torpaq itkisini unudaq. Belələri indi də "iş" başındadırlar. Çalışırlar ki, ölkəni şəhid ah-naləsi çəkən məmləkət olaraq göstərsinlər. Ona görə dəhşət saçan görüntüləri yayırlar. Bu yolla cəmiyyətə bədbinlik gətirməyi hədəf seçirlər. Bəzilərimiz bilməyərəkdən onların qurduqları "ssenari" üçün vasitəyə çevrilirik. Yaxşı olar ki, məsələ ciddi şəkildə nəzərə alınsın. Nəzərə alınsın və düşünülsün ki, belə mənfur məqsəd güdənlər istəklərinə çatmasınlar. Axı, hər bir halda cəmiyyətin sarsılmasına yol verilməməlidir. İnsanlarımız ayaqda qalmalı, yeni gün uğrunda mübarizə aparmalıdırlar.

***

Bəli, cəmiyyətimiz mübarizə aparmalıdır. Mübarizənin hədəfi isə güclü, qüdrətli, inkişafı, tərəqqini həyat amalına çevirən Azərbaycan olmalıdır. Elə bilirik, şəhidlərimizin ruhuna ən böyük ehtiramımız da elə budur. Onlar bu torpaq, bu Vətən uğrunda canlarından ona görə keçiblər ki, xalqımızın və dövlətimizin parlaq gələcəyi olsun.

# Otuz illik mücadilənin ədalətli sonluğu

## Heydər Əliyev siyasəti düşmənin ikiəsrlik miflərini dağıtdı



**Dünən Dövlət televiziyasında ulu öndər Heydər Əliyevin doxanıncı illərin ortalarında Kəlbəcər köçkünləri ilə görüşdəki çıxışının bəzi məqamlarını verirdilər. İlahi, insan nə qədər inamlı və uzaqgörən ola bilərmiş ki, 25-26 il əvvəl bizim son iki-üç ildə nail olduğumuz uğurlar barədə ən incə detallarınadək aydın proqnoz verə bilsin.**

***Əməliyyat başlanmazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda, Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər.***

***Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən 20 sentyabr 2023-cü il.***

Ümummilli lider dedi ki, siz Kəlbəcərə qayıdacaqsınız, ağdamlılar Ağdama, şuşalılar Şuşaya qayıdacaqlar. Oralarda həyat qaynayacaq. Siz yenə də öz işinizlə, fəaliyyətinizlə məşğul olacaqsınız.

Nə xoşdur ki, həmin proqnozların hamısı bu günümüzün reallıqlarıdır. Ancaq bu günümüzün reallıqları təkcə həmin proqnozların "çin olması" ilə qurtarmır. Azərbaycan Prezidentinin, xalqımızın və ordumuzun yaratdığı yeni reallıqlar sırasında elə siyasi, ictimai, mənəvi və psixoloji məqamlar var ki, onlar haqqında nəinki 25-30 il, hətta, üç il qabaq danışsaq, kiminsə fantaziyası kimi qəbul edilərdi.

... Qəbələ rayonundan olan təqaüdçü, torpaqlarımızın işğal edilməsindən bəri daim hamını ermənilərdən qisas almağa çağıran Telman Rəfiyev indi deyir ki, tarix boyu düşmənçilik etmək, müharibə şəraitində yaşamaq olmaz. Danışmaq, razılaşmaq, sülh şəraitində yaşamaq lazımdır.

Həmin ağsaqqalın bu arqumentini eşidəndə elə bildim ki, biz qalib gəlmişik deyə onun fikri dəyişib. Ancaq Rusiyanın Krasnodar diyarında yaşayan Samvel Badalyanın – yəni məğlub tərəfin təmsilçisinin – "Heç bir müharibə ömürlük olmur. Tarixən bir regionda yaşamış iki xalqın aparrdığı müharibəyə də son qoyulmalıdır ki, sabaha inamla gedə bilək" – qənaətini eşidəndə isə düşündüm ki, artıq hər iki xalq müharibədən bezib, yorulub. Fikrimcə xalqlar müharibədən hələ on illər əvvəl yorulmuşdular. Ancaq Azərbaycanın yaratdığı reallıqlar həmin "yorğunluğun" dilə gətirilməsinə zəmin yaratdı, stimul oldu.

2020-ci ilin payızından bəri baş verən hadisələr, əldə edilən nəticələr son iyirmi ildə "Lazım nə vaxt gələcək?" – deyə dövlətimizin səbr və təmkininə ironiya ilə yanaşan ağzıgöyçəklərin ağızlarını da bağladı. Onların ağzı elə bağlandı ki, ordumuz lokal antiterror əməliyyatları aparanda bu faktı dəstəkləyən siyasi partiyalara qoşula bilmədilər.

Hətta, 23 saatlıq əməliyyatlardan, düşmənin ağ bayraq qaldırmasından, erməni xalqının sabahını düşünən siyasətçilərin vəziyyətdən daha az itki ilə çıxmaq üçün Yevlaxa gəlib danışıqlarda iştirak etməsindən sonra da bəzi qaragüruhçular cəmiyyətə sual verirdilər ki, bəs nəticə nə oldu?

Həmin sualın cavabını o bədxahlara – Rəsul Quliyevin sözü olmasın, "bədbaxt"lara mən verirəm: "23 saatlıq əməliyyatların nəticəsi odur ki, a) ermənilərin iki əsr davam edən "Böyük Ermənistan" uydurması gündəlikdən çıxarıldı, b) "Miatsum" xülyası gorbagor oldu, c) həyasız və şərəfsiz erməni siyasətçilərinin "yeni ərazilər üçün yeni müharibələr" çağırışı öldü, ç) işğalçıların Qarabağa verdikləri "ARTSAX" adı gömüldü, d) Laçın yolu haqqında dedikləri dəhliz ifadəsi sərhəd keçid məntəqəsi ifadəsi ilə birdəfəlik əvəzləndi və sair.

Bundan başqa, Bakıdan Xankəndiyə ərzaq yardımı və çörək aparan yük maşınları sentyabrın 23-də paytaxtdan yola düşdü, elə həmin gün də yardımı Xankəndidəki vətəndaşlarımıza çatdıraraq geri qayıtdı. Həm də Laçın– Xankəndi yolu ilə deyil, Ağdam – Xankəndi yolu ilə. Halbuki bir neçə həftə əvvəl Bakıdan yola düşən humanitar yardımla dolu maşınlarımız qəbul edilməmiş, on günlərlə yolda gözləməli olmuşdu.

"Bəs nəticə nə oldu?" –sualını verənlərə başqa cavablarımız da var.

Ermənistan baş naziri 23 saatlıq əməliyyatlardan əvvəl dünyanın az qala bütün liderlərinə zəng edirdi ki, Laçın yolunun bağlı olduğuna görə – halbuki həmin yoldan hər gün yüzlərlə erməni əsilli Azərbaycan vətəndaşı keçib gedir və ya gəlirdi – Qarabağda ermənilərin hüquqları pozulur. Sentyabrın 19-da başlanan əməliyyatlardan sonra isə bəyan etdi ki, Qarabağda mülki obyektlərə ziyan dəyməyib və dinc sakinlər zərərdidə olmayıblar.

Daha hansı nəticələri gözləyirdiniz? Əlavə nəticə istəyirsinizsə, Rusiyanın bu əməliyyatlara münasibətini öyrənin. Beynəlxalq aləmdə bu faktın necə qiymətləndirildiyinin göstəricisi olan məlumatlarla maraqlanın.

Mühüm nəticələrdən biri də odur ki, dövlət başçımız Qarabağla bağlı İşçi qrupun yaradılması haqqında tapşırıq verdi. Belə ki, dövlət başçısının tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında İşçi qrup yaradılıb. Bu qrup Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı çərçivəsində fəaliyyət göstərir. İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi, Kənd Təsərrüfatı, Daxili İşlər, Səhiyyə, Elm və Təhsil nazirlikləri, "Azərenerji" ASC, "Azərişıq" ASC, "Azəriqaz" İstehsalat Birliyi, Avtomobil Yolları Dövlət Agentliyi və digər aidiyyəti qurumlar daxil olduğu qrupun son üç-dörd gündəki fəaliyyəti sübut edir ki, regionda vəziyyət sabitləşməyə doğru gedir.

Ancaq regionun daha sabit və firavan günləri, şübhəsiz, qabaqdadır. Bu arqumenti əsaslandırmaq üçün indiki qeydlərimizi dövlət başçımızın sentyabrın 20-də xalqa ünvanladığı müraciətin nikbinlik dolu abzası ilə tamamlayırıq : "Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq".

Bütün bunlar Azərbaycanın yeni reallıqlarıdır.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Ermənistan Rusiya silahlarından imtina edib

## Paşinyanın geosiyasi oyunbazlığı ona baha başa gəlir



**(əvvəli 1-ci səhifədə)**

Bundan əlavə, məlum olub ki, İkinci Qarabağ müharibəsindən sonra Rusiya Federasiyası Ermənistana 1 milyard ABŞ dolları dəyərində silah-sursat təklif edib və bunu verməyə hazır olduğunu bildirib. Daha 400 milyon dollar dəyərində silah-sursatı isə 20 illik kreditlə verməyi təklif edib. 400 milyon ABŞ dolları məbləğində müqavilə artıq təsdiqlənibmiş, müqavilələr imzalanmağa hazır imiş, 1 milyardlıq müqavilələrin isə iki ölkənin hökumətləri və maliyyə nazirlikləri tərəfindən təsdiqlənməsinə bir neçə gün qalıbmış. Lakin Ermənistan birdən-birə bu müqavilələrdən imtina edərək Hindistandakı özəl şirkətlərlə müqavilələr bağlayaraq onların hesabına 500 milyon ABŞ dolları köçürüb. Buna rəğmən, bu yükün heç 5 faizini də almayıb.

"Joxovurd" qəzeti şərh almaq üçün Ermənistan müdafiə nazirliyinə müraciət edib. Lakin nazirlikdən qəzet əməkdaşına sualları yazılı şəkildə göndərməsini təklif ediblər.

Göründüyü kimi, Ermənistan rəhbərliyi Rusiyadan imtina edərək Hindistanı seçib. Ancaq vəd olunan silahın heç beş faizi də çatdırılmayıb. Bununla belə, il ərzində uzaq Asiya ölkəsinin Ermənistana silah-sursat daşımasına dair çox fakt aşkarlanmışdı. Belə ki, bu ilin iyulunda Nurdüz (İran) sərhəd-buraxılış məntəqəsindən Ermənistana avtomobil karvanının hərəkəti qeydə alınmışdı. Kadrlardan görünürdü ki, daşınan yük onun içərisində olanların gizlədilməsi məqsədilə çadırla örtülüb. Operativ çəkiliş kadrlarını dərc edən Caliber.az saytının məlumatına görə, İrandan Ermənistana daşınan yük hərbi təyinatlıdır və İranın Bəndər-Abbas limanına çatdırılıb. Sayt iki müstəqil mənbəyə istinadla dəqiqləşdirmişdi ki, silahların tədarükçüsü son zamanlar Ermənistanla hərbi-texniki əməkdaşlığı sürətlə inkişaf etdirən Hindistandır.

Onu da qeyd edək ki, məsələ ilə bağlı Prezident İlham Əliyev də Hindistana açıq xəbərdarlıq etmişdi. May ayında Hindistanın yeni səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edən dövlət başçımız onun diqqətinə çatdırmışdı ki, bu gün Ermənistanda ölkəmizə qarşı ərazi iddialarını davam etdirən revanşist qüvvələr baş qaldırır. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını bildirən Prezident İlham Əliyev qeyd etmişdi ki, əgər, doğrudan da, Ermənistan Azərbaycanla sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır? Azərbaycan Prezidenti vurğulamışdı ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Bundan əlavə, iyulun 26-da Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bu məsələ ilə əlaqədar Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananla görüşmüşdü.

Qeyd edək ki, Hindistan böyük-böyük beynəlxalq hüquqdan danışır, lakin Cənubi Qafqazda açıq-aşkar hərbi münaqişənin qızışdırılması və ölkələrin ərazi bütövlüyünə hörmətsizlik siyasətini dəstəkləyir. Eyni zamanda, o, bütün bunların Bandunq konfransının və Hindistanın da üzvü olduğu Qoşulmama Hərəkatının prinsiplərinə zidd olduğunu da nəzərə almır.

Bunu da deməliyik ki, Hindistan Ermənistana müqavilədə nəzərdə tutulan silahın heç beş faizini də çatdırmayıb. Bu da Paşinyanın xarici siyasətinin uğursuzluğundan xəbər verir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Rizvan HÜSEYNOV, hərbi-siyasi şərhçi**

– 2023-cü ildə müdafiə büdcəsini 47 faiz artırmağı planlaşdıran Ermənistanın hərbi büdcəsi ilk dəfə olaraq 1 milyard dolları keçəcək. Ermənistana silah tədarükü ilə bağlı öhdəlikləri yerinə yetirmədiyinə görə Rusiyanı ittiham edən Paşinyan, həm də ölkəsinə silah ixracının qarşısını aldığı üçün Azərbaycandan vaxtaşırı gileylənirdi. Buna görə də Azərbaycanın hərbi qüdrəti və uğurlu diplomatiyası qarşısında tab gətirə bilməyən Ermənistan dövləti Hindistandan silah almaq niyyətinə düşdü.

Hindistan Ermənistana "Pinaka" raket sistemləri, tank əleyhinə raketlər və bir sıra digər hərbi sursatlar verib. Bundan başqa, 80 mm-lik artilleriya qurğularının və "Akaş" zenit-raket kompleksinin alınmasına dair müzakirələr aparılırdı.

Nyu-Dehlinin Ermənistana silah satışı bundan əvvəl də olub. 2020-ci ildə Hindistan Ermənistana təxminən 40 milyon dollara dörd "Svati" əks-artilleriya radarı tədarük edib. 2017-ci ildən Hindistan ordusunda tətbiq edilən bu əks-artilleriya sistemi Cammu və Kəşmir bölgələrində Pakistanın artilleriya atəşlərinin qarşısını almaqda aciz olub. Pakistanın artilleriya zərbələrini aşkar edə bilməyən "Svati" kimi digər Hindistan silahları da erməniləri yarı yolda qoyacaq. Çünki Vətən müharibəsində də bu sistemlər özünü doğrultmayıb və Azərbaycan Ordusunun artilleriya silahları qarşısında aciz qalıb.

# Bəzi Avropa siyasətçilərinin nəfəsindən "səlib"çi qoxusu gəlir

## "Xristian klubu"nun niyyəti, əslində, dünyanı orta əsrlərə qaytarmaqdır

**(əvvəli 1-ci səhifədə)**

Başqa cür ola da bilməzdi. Çünki BMT Təhlükəsizlik Şurasının üzvlərinin hamısı Makron ağılda olmadıqları kimi, təcili iclasa dəvət edilənlər də İrəvan səviyyəsində deyildilər. Ona görə də, bəzi iclas iştirakçıları əvvəllər müşahidə edilməyən, lakin bizim üçün ən önəmli məsələ olan Qarabağ ermənilərinin Azərbaycana reinteqrasiya olunması prosesini dəstəkləyən bəyanatla çıxış etdilər. İclasın Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən hissəsi də bu oldu. Beləliklə, Fransanın Azərbaycanın əleyhinə çağırdığı iclas və müzakirələr tam əksinə, ölkəmizin reinteqrasiya ilə bağlı siyasətinin BMT TŞ-nın əksər ölkələri tərəfindən dəstəklənməsi ilə yekunlaşdı.

Bu məqamda xatırladaq ki, həmin iclasda bizim üçün önəmli olan məsələlərdən biri də Türkiyə Xarici işlər nazirinin müavini Burak Akçaparın səsləndirdiyi arqumentlər idi. Cənab Akçapar xatırlatdı ki, Türkiyə Prezidentinin hər zaman dediyi kimi, Ermənistan öz vədlərini yerinə yetirməli, Zəngəzur dəhlizinin açılmasını təmin etməlidir. Burada olan hər kəsin bildiyi kimi, Qarabağ Azərbaycan ərazisidir: "Son üç ildə Ermənistan tərəfi üçtərəfli Bəyanatın icrasına əməl etməyib. Eyni zamanda, Xankəndidə olan qeyri-qanuni nümayəndələr öz təcrübələrini tətbiq edib. Həmçinin bu müddət ərzində Ermənistan Azərbaycana qarşı "mina müharibəsi"ni davam etdirib. Ancaq bu müddət ərzində Azərbaycan davamlı şəkildə dialoqlara təşəbbüs göstərib".

Bəli, Fransanın təşəbbüsü ilə çağırılan bu iclasda Parisin, Berlinin və Brüsselin nümayiş etdirdiyi mövqe sübut etdi ki, bu "üçayaqlı" siyasi dairə Nyu-Yorka birmənalı olaraq "səlib yürüşü"nə getmək ruhunda toplaşmışdı. Müasir dünyanın üzqaralığı olan "Xristian klubu"nun üzvləri heç bir ölçü-biçi, mizan-tərəzi gözləmədən, haqlı, haqsız İslam aləminə hücum edirlər.

Hamı üçün əlçatan olan mənbələrdən birində oxuyuruq ki, Türkiyənin Avropa Birliyinə (o zaman qurum belə adlanırdı) qəbul edilməsinə münasibət bildirən AB qurucularından biri həmin qurumu "Xristian klubu" adlandırmış və müsəlman ölkəyə burada yer olmadığını açıqca elan etmişdi. Ekspertlərin fikrincə, ona səmimiyyətinə görə təşəkkür etmək lazımdır. Çünki Avropa Birliyi, həqiqətən, "Xiristian klubu"dur. Belə olmasaydı, Avropa Birliyinə üzv ölkələrin gözləri qarşısında, foto-video faktlarla Xocalı qətliamı baş verirsə və bunun əvəzində Avropa Birliyi azərbaycanlıların deyil, 100 il əvvələ aid, yalnız sözdə olan və arxasında əsaslı fakt dayanmayan bir hadisəni "soyqırımı" olaraq qəbul edirsə, bu artıq "Xristian klubu"nun təəssübkeşliyi, siyasi basqısı və iç üzüdür. Biz son otuz ildə də bunun şahidi olduq, son üç-dörd gündə də.

Fikrimizi konkretləşdirək. BMT Təhlükəsizlik Şurasının Makronun təşəbbüsü ilə çağırılan və anti-Azərbaycan əhval-ruhiyyəli sənəd qəbul edilməsini məqsəd kimi qarşıya qoyan iclasında Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrel ölkəmizin ünvanına hər cür hədyanlarla çıxış edib. O, Azərbaycanın öz ərazisində separatçı xunta rejiminə qarşı həyata keçirdiyi əks-terror əməliyyatını şərh edərkən bildirib ki, Bakı Qarabağdakı ermənilərin hüquq və təhlükəsizliyinə görə məsuliyyət daşıyır və əgər ermənilərin hərbi yollarla zorakı yerdəyişməsini həyata keçirərsə, Aİ-nin ciddi reaksiyası ilə qarşılaşacaq.



Bəs XXI əsrdə "səlib döyüşçüsü" libasından və təfəkküründən əl çəkə bilməyən həmin Borrel quldur Ermənistan rəhbərliyinin Cənubi Qafqazda törətdiyi vəhşilikləri nə üçün görmürdü? İndi onun dayəlik etmək istədiyi separatçılar Qafqazda Xirosimanın təkrarını törədəndə, Xocalı şəhərini yandırıb-yaxanda, bir milyondan çox azərbaycanlını qaçqın-köçkün kimi yurd-yuvasından didərgin salanda, Azərbaycan-türk mədəniyyətinə qənim kəsiləndə Borrel və "borrelkimilər nə üçün kor idilər?

Unutmasınlar ki, "səlib yürüşləri"nin müasir dünyaya tətbiq edilməsi heç kəsə xeyir gətirməyəcək. Bugünkü Türkiyə də, Azərbaycan da, Türk dünyası da, lap elə ərəb ölkələri də artıq "səlib yürüşləri"ndən "tük salacaq" səviyyədə deyil. Azərbaycan öz ərazisində lokal antiterror əməliyyat keçirəndə hər şeyi ölçüb-biçmiş, hansısa "Xristian klubu" üzvünün qulp qoymasına imkan verməmişdir. Odur ki, aparın həmin qulpu Afrikada, Asiyada milyonlarla insanın qırılmasına səbəb olmuş öz dövlətlərinizin "əməllərinə" qoyun.

***İ.QAÇAYEV***
***XQ***

# İrəvan: 49 nəfər saxlanıldı – 5 nəfər həbs edildi

**Ermənistanın paytaxtı İrəvanda davam edən etiraz aksiyalarının 49 iştirakçısı haqqında cinayət işi açılıb.**

Bu barədə Ermənistanın İstintaq Komitəsi məlumat yayıb.

Bildirilib ki, əlavə 5 nəfər isə həbs olunub. Fəallar kütləvi iğtişaşlarda iştirak etməkdə, xuliqanlıqda, dövlət məmurlarına qarşı zorakılıq tətbiq etməkdə, narkotik vasitələrin qanunsuz dövriyyəsində və soyuq silah gəzdirməkdə ittiham olunurlar.

Hazırda Ermənistanda etiraz aksiyaları davam edir, iştirakçılarla polis arasında qarşıdurma yaşanır. Aksiya iştirakçıları hökumətin istefasını tələb edir.

İstintaq Komitəsi İrəvanda 19 sentyabrdan etibarən keçirilən mitinqlərdə ictimai asayişin pozulması ilə bağlı ümumilikdə 26 cinayət işi açıb, cinayət işləri çərçivəsində 45 nəfər barəsində həbs-qətimkan tədbiri seçilib, 5 nəfər həbs edilib, 7 nəfər axtarışa verilib.



Aksiyalarda iştirak edənlərin arasında ümumilikdə 39 nəfərin həbsi ilə bağlı məhkəməyə müraciətlər olunub.

Hazırda İstintaq Komitəsi tərəfindən cinayət törətmiş digər şəxslərin müəyyənləşdirilməsi üçün çoxsaylı materiallar, o cümlədən videoyazılar araşdırılır.

Xatırladaq ki, İrəvanda artıq bir neçə gündür ki, hökumət əleyhinə aksiyalar davam edir. Aksiyada iştirak edənlər Qarabağda baş verən hadisələr fonunda hakimiyyətin istefasını tələb edirlər.

***XQ***

# Ulu öndər və Sumqayıt sənayesinin inkişafı

**Azərbaycanın hərtərəfli tərəqqisində Ulu öndər Heydər Əliyevin ölçüyəgəlməz xidmətləri olub. Onun rəhbərliyi dövründə ölkə həyatının bütün sahələri kimi, sənayenin də inkişafı naminə həyata keçirilən mühüm tədbirlər bunu deməyə əsas verir.**



Təkcə Sumqayıt şəhərində vaxtilə minlərlə adamın çalışdığı Kompessorlar və Məişət kimyası zavodlarının, Polimer Tikinti Materialları və Evtikmə kombinatlarının, Üst Trikotaj və Xovlu İplik fabriklərinin, "EP-300" və "Polimer-120" komplekslərinin, nadir enerji qurğusu olan Buxar-generator kompleksinin tikilib işə salınması ilə Azərbaycanın sənaye potensialı əhəmiyyətli dərəcədə genişlənib.

Bu və digər obyektlərin hamısı məhz görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərliyə başladığı 1969-cu ildən sonra ərsəyə gəlib. Həmin müəssisələr olmasaydı, o zaman ölkəmiz kasıb, iqtisadi potensialı zəif bir əyalət kimi qalardı. Təbii ki, bugünkü iqtisadi yüksəlişimizin möhkəm təməlinin qoyulmasına da Ulu öndərin 34 illik titanik fəaliyyəti, böyük fədakarlığı, maneə və çətinlikləri mətinliklə dəf etməsi ilə nail olunub.

Bütün bunlar inamla deməyə əsas verir ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyinin tarixi qaçılmazlığını, labüdlüyünü uzaqgörən siyasətçi intuisiyası ilə hiss edib, milli iqtisadiyyatın, o cümlədən neft-kimya sənayesinin perspektivlərinə bu mövqedən yanaşıb. Həmin səylər hələ 70-ci illərdən Azərbaycanın özgürlüyünə geniş hazırlıq kimi dəyərləndirilməlidir.

Məhz Ulu öndərin təşəbbüsü və təkidi ilə sovet dövründə kimya sənayesinə aid mütərəqqi avadanlıqların respublikamız üçün daha çox ayrılmasına nail olunub. Düz 50 il öncə artıq Azərbaycanda bir çox kimya məhsullarının – kaustik soda və sulfanolun, sintetik qətran və mineral gübrələrin geniş istehsalı təşkil edilib. Heydər Əliyev yeni tikilən hər bir sənaye obyektinin gələcəkdə Azərbaycan iqtisadiyyatında oynayacağı rolu nəzərə alaraq, inşaat işlərinin yüksək keyfiyyətlə aparılmasını ciddi nəzarətdə saxlayırdı, bu məqsədlə dövlət strukturlarının rəhbərlərini öz şəxsi nümayəndəsi kimi tikintilərə təhkim edirdi. İşlərin sürətlə aparılması üçün lazım olan bütün resurslardan maksimum səmərəli şəkildə istifadə olunurdu.



O zamanlar Azərbaycanda sənayenin metallurgiya, maşınqayırma, kimya, energetika sahələrində yenidənqurma işləri də geniş vüsət alıb, modern texnologiyalar istehsalata uğurla tətbiq olunur, rekord nəticələr qazanılırdı. Respublikamızda iqtisadi resurslar hərəkətə gəlir, uzun illərin durğunluğundan sonra sənayedə sıçrayış baş verirdi.

Bu gün hər bir sumqayıtlı fəxr edir ki, Ulu öndər Sumqayıta 16 dəfə – təxminən iki ildən bir səfər edib və onun hər səfərində təkcə Sumqayıt üçün deyil, bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün mühüm əhəmiyyət daşıyan yeni istehsalatların, sosial-mədəni obyektlərin əsası qoyulub, tərəqqi proseslərinin uğurla başa çatdırılması üçün etibarlı zəmin yaradılıb.

Bir məqam xüsusi qeyd edilməlidir ki, Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələnə qədər Sumqayıt, demək olar ki, birtərəfli inkişaf etmişdi. Şəhər əsasən ağır sənaye kompleksinin məkanı idi. Ard-arda digər sahələr genişləndirilməyə başladı. Heydər Əliyev növbəti səfərlərinin birində Sumqayıtda yüngül sənaye komplekslərinin yaradılması barədə göstəriş verdi və qısa bir zamanda şəhərdə iki iri fabrik – Üst tirokotaj və Xovlu iplik fabrikləri tikilərək istifadəyə verildi. Ulu öndərin səfərlərinin real nəticəsi olaraq, Sumqayıt öz sosial-iqtisadi tərəqqisini yüksək templə davam etdirərək, müasir, güclü sənaye şəhəri kimi formalaşdı, burada zəruri sosial infrastrukturun yaradılması prosesi geniş vüsət aldı. Heydər Əliyevin atalıq qayğısı sayəsində Sumqayıt respublikanın qabaqçıl, nümunəvi bir şəhərinə çevrildi.

Azərbaycanı dünyanın qabaqcıl ölkələri ilə bir sırada görmək istəyən müdrik rəhbərimiz uzun illər ərzində, həqiqətən də, çox böyük və fundamental işlər görüb. Hələ sovet dövründə respublikamızın özündə belə çoxları Heydər Əliyev tərəfindən başlanmış genişmiqyaslı işlərin əsl mahiyyətini, onların hansı mühüm məqsəd daşıdığını başa düşməkdən uzaq idilər. Bunun əsl mahiyyətini bilən və görülən işlərdən sonsuz fərəh duyan isə dahi şəxsiyyətin özü – Heydər Əliyev idi!

Respublikamızın bütün sənaye sahələrinin dinamik, kompleks inkişafı üçün özünün geniş proqramını həyata keçirən Ulu öndər Azərbaycanın ağır sənaye mərkəzi kimi Sumqayıtın sürətli tərəqqisinə, onun iqtisadi potensialının güclənib-artmasına nail olmaq üçün daim böyük səylər göstərir, iri miqyaslı tədbirlərin reallaşması üçün ardıcıl olaraq səmərəli işlər aparırdı. Tədricən Sumqayıt iri sənaye mərkəzi, metallurgiya və neft-kimya şəhəri kimi Azərbaycanın iqtisadiyyatında aparıcı yer tutdu.

Vaxtilə Azərbaycan Boru-pokat zavodu SSRİ-nin bütün neft regionlarını, o cümlədən Tümendə yeni kəşf olunmuş neft yataqlarını xüsusi möhkəmliyə və davamlılığa malik qazma və neft boruları ilə təmin edən əsas, başlıca təchizatçı müəssisə idi. Təsadüfi deyil ki, ötən əsrin 70-ci illərinin sonlarında SSRİ Nazirlər Soveti sədrinin o vaxtkı birinci müavini Nikolay Tixonov Heydər Əliyevin dəvəti ilə ilk dəfə Azərbaycana gələrkən Ulu öndər onu əsasən rekonstruksiya və əsaslı modernizasiyaya ehtiyacı olan həmin zavodun vəziyyəti ilə tanış etmişdi. Çünki daim yüksəlişə can atan, irəliyə baxan respublika rəhbəri haqlı olaraq hesab edirdi ki, ittifaq tabeliyində olan həmin müəssisənin texniki bazası və texnoloji avadanlığı dövrün standartlarından geri qalır.

SSRİ Qara Metallurgiya Nazirliyi isə zavodun rekonstruksiyası və modernizasiyası üçün heç bir tədbir görmür, müvafiq maliyyə vasaiti ayırmırdı. Bu səbəbdən 1973–74-ci illərdə zavodun istehsal etdiyi qazma və neft borularının bir qisminin keyfiyyəti yüksək texniki tələblərə cavab vermirdi. Neftçilərdən Azərbaycana, hətta Moskva rəhbərliyinə ünvanlanan şikayətlər narahatlıq doğururdu. Sumqayıt metallurqları ilə dəfələrlə müəssisədə görüşən Ulu öndər neftçilərin şikayətlərinə insan amilinin deyil, texniki amilin – metallurgiya avadanlıqlarının müasir tələblərə cavab verməməsinin səbəb olduğunu bilincə, N.Tixonovun Azərbaycana gəlməsinə nail olmuş, onu real vəziyyətlə yerindəcə tanış etmişdi ki, istehsalatın modernizasiyasına nail olunsun.

Heydər Əliyevin müşayiəti ilə Nikolay Tixonuv Sumqayıtın bir çox sənaye müəssisələrini, o cümlədən Boru-prokat zavodunun sexlərini gəzmiş, mütəxəssislərlə görüşüb, onların fikirlərini öyrənmiş, Azərbaycan, Tatarıstan, Başqırdıstan və Sibir neftçilərini müxtəlif təyinatlı qazma və neft boruları ilə təmin edən bu iri metallurgiya müəssisəsində texniki tərəqqiyə, müasirləşməyə kəskin ehtiyac duyulduğuna bilavasitə əmin olmuşdu.

Çox keçmədən, zavodda köhnə metallurgiya dəzgahlarının əvəzinə yüksək texnologiyalar əsasında hazırlanmış yeni avadanlığın tətbiqinə, universal istehsalat sahələrinin yaradılmasına, mövcud sexlərin layihə gücünə çatdırılmasına dair tədbirlər planı hazırlandı və uğurla həyata keçirildi. Məhz həmin səfərin konkret nəticəsi olaraq Sumqayıtın polad boru istehsalçılarına tezliklə Almaniyadan alınmış, yüksək keyfiyyəti və məhsuldarlığı təmin edən "EMAQ" markalı unikal boruyayma kompleksi verildi. Həmin texnoloji kompleksin sayəsində əl əməyinin avtomatlaşdırıldığı yeni istehsalat sahəsi yaradıldı, polad boruların keyfiyyəti kifayət qədər yüksəldi və istehsal həcmi xeyli artdı...

Sumqayıt sənaye potensialı və yeni istehsalatların tətbiqi baxımından SSRİ üçün həmişə bir sınaq poliqonu olub. Burada, bir qayda olaraq, yeni kimya istehsalatları əvvəlcə pilot şəklində qurulur, onların mənimsənilməsi prosesi gedir, yalnız sınaqların uğurla başa çatmasına əminlik yarandıqdan sonra həmin istehsalatların tikintisi SSRİ-nin müxtəlif şəhərlərinin kimya müəssisələrində də geniş miqyasda həyata keçirilirdi. Buna misal olaraq o dövr üçün tibb sənayesinin əsas komponentlərinin tərkib hissələrindən biri olan butil-kauçuku (elastomeri) göstərmək olar. Belə ki, onun istehsalı üçün ilk kiçik pilot qurğusu Sumqayıtda tikilib, sınaqdan keçirilmişdi. Təcrübi olaraq ilk dəfə Sumqayıtda alınan tibbi butil-kauçukun istehsal texnologiyası Heydər Əliyevin sayəsində məhz Azərbaycanda mənimsənilib, burada geniş şəkildə istehsal olunmağa başlanmışdı.

1970-ci illərdə SSRİ rəhbərliyi məişətdə böyük ehtiyac duyulan, lakin tələbatın kifayət qədər ödənilmədiyi sintetik yuyucu vasitələrin istehsalının genişləndirilməsi ilə bağlı xüsusi müşavirələr keçirir, problemin səmərəli həlli yollarını axtarırdı. Çünki sintetik yuyucu vasitələrin çatışmazlığı təkcə adi məişətdə deyil, hətta yüz minlərlə əsgərin xidmət etdiyi hərbi hissələrdə də ciddi problemlərə səbəb olurdu. Odur ki, həmin dövrdə Sumqayıtın "Kimyasənaye" zavodunda yeni yuyucu vasitələr istehsalının əsas komponentləri olan xlor və kaustik soda istehsalatlarının yaradılması və genişləndirilməsi qərarı verilmişdi. Heydər Əliyevin xüsusi diqqəti sayəsində bu məsələ çox keçmədən uğurla həll edildi, respublikanın iqtisadi gəlirinin artmasına nail olundu.

Mənim də bir zaman 19 il çalışdığım Sumqayıt Sintetik Kauçuk zavodu (SK) Azərbaycanda keçmiş İttifaqın yeganə müəssisəsi idi ki, birbaşa SSRİ-nin Neft-Kimya Sənayesi Nazirliyinə tabe idi və nazirlik üçün xüsusi əhəmiyyət kəsb edirdi. Çünki SSRİ-də neft-kimyanın inkişafı SK-da istehsal edilən neft-kimya məhsullarından da çox asılı idi. Lakin 1969–70-ci illərdə zavodun istehsalat sahələri o dövrün mövcud köhnə texnologiyasına və avadanlıqlarına hesablanmışdı. Ona görə də aparılan kimyəvi proseslərin iqtisadi səmərəsi çox aşağı idi, həm də ekologiyaya ciddi ziyan vururdu.

Heydər Əliyevin dəvəti ilə Kremlin nümayəndəsi N.Tixonovun Sumqayıta gələrək, kimya müəssisələrinə, bilavasitə SK zavoduna baş çəkməsi nəticə etibarilə burada mütərəqqi texnologiyanın, yeni istehsal proseslərinin tətbiqinin qaçılmazlığı fikrini qətiləşdirdi. Bu zavod yeganə müəssisə idi ki, bütün SSRİ-nin yüngül sənayesini xammalla – xüsusi kimyəvi maddələrlə, İttifaqın bir sıra sahələrini müxtəlif markalı latekslərlə, avtomobillər üçün şin istehsalatlarını sintetik kauçukla və s. xammallarla təmin edirdi.

O dövrdə istehsal olunan latekslərin əksəriyyəti yüngül sənayenin əsasını, özəyini təşkil edən komponentlər idi. Və başlıca məsələ ondan ibarət idi ki, o vaxtlar bütün kimya sənayesi müəssisələrinin – Sintetik kauçuk zavodu ilə yanaşı, "Kimyasənaye", "Üzvi sintez", Superfosfat və Məişət kimyası zavodlarının da inkişafı, təkmilləşdirilməsi qarşıda mühüm vəzifə kimi dururdu. Məsələ diqqətə alındı və tədricən həllini tapdı.

Heydər Əliyevin 70-ci illərdə Sumqayıta səfərlərinin əsas məqsədi sənaye məhsullarının kəmiyyətinin artırılması və keyfiyyətinin yüksəldilməsi, fiziki əməyin xüsusi çəkisinin azaldılması, yeni texnologiyaların tətbiqinin genişləndirilməsi idi. Bu yöndə reallaşan tədbirlərə misal olaraq, SSRİ-də ilk dəfə dənəvər superfosfat istehsalına Sumqayıtda başlanılmasını, İttifaq miqyasında ilk yuyucu maddələr istehsalının "Kimyasənaye" İB-də həyata keçirilməsini, bir sıra texniki, maşın yağları üçün qatqıların Aşqarlar zavodunda istehsalını göstərmək olar. Respublika rəhbərinin sayəsində 1970-ci illərin ortalarında "Üzvi sintez" zavodunda bir çox problemlərin həllinə imkan verə bilən sənaye istiqamətləri müəyyənləşdirildi və uğurla həyata keçirildi.

Yaxşı xatırlayıram, Sumqayıtın 25 illik yubileyi ərəfəsində SK zavodunda keçirilən yığıncaqda Heydər Əliyev narahatlıqla belə bir məsələyə diqqət yetirdi ki, Yaponiya texnologiyası və avadanlığı əsasında inşa edimiş Sumqayıt Kompressorlar zavodu bir müddət əvvəl istifadəyə verilsə də, hələ də məişət soyuducuları üçün lazım olan kompressorlar buraxılmır. Səbəbi? Respublika rəhbərinin elə həmin tədbirdə ciddi sorğu-sualının, araşdırmalarının nəticəsi olaraq məlum olmuşdu ki, nazirlik və müəssisə rəhbərlərinin səhlənkarlığı üzündən kompressor istehsalı üzrə lazım olan kadrlar, işi apara bilən mütəxəssislər vaxtında, əvvəlcədən hazırlanmayıb.

Heydər Əliyev buna görə yığıncaqda kəskin narazılığını, iradlarını bildirdi, problemin aradan qaldırılması, təcili tədbirlər görülməsi üçün konkret göstərişlərini verdi. Və respublika rəhbərinin işə bilavasitə müdaxiləsindən bir müddət sonra yerli mütəxəssislər hazırlandı və kompressorlar zavodu özünün ilk məhsulunu istehsal etməyə başladı.

Sovet dövründə respublikada hər hansı bir iri sənaye müəssisəsi və qurğusunun inşası Kremlin razılığı və birbaşa nəzarəti olmadan aparılmırdı. Təbii ki, bu səbəbdən Azərbaycan rəhbəri üçün yeni obyektlərin tikintisi maneəsiz ötüşmürdü. Bununla bağlı mühüm bir faktı yada salmaq istərdim.

Bakının "Qaraşəhər" adlandırılan sənaye rayonu 70-ci illərə qədər primitiv texnologiyalar əsasında tikilmiş kiçik məhsuldarlığa malik, ekoloji cəhətdən dözülməz vəziyyət yaradan xırda zavodların ərazisi idi. Orada istehsal olunan məhsullar bir neçə köhnə boru xətti ilə 45 kilometr məsafədən Sumqayıta ötürülərək, "Sintezkauçuk" zavodunda emal olunurdu. Məsələnin köklü həlli yalnız Sumqayıtda müasir tələblərə uyğun yeni neft-kimya kompleksinin – EP-300-ün tikilməsi ilə mümkün idi. Lakin heç kim bunu etmirdi. Moskva Azərbaycana EP-300 kompleksi verməməsini o arqumentlə əsaslandırırdı ki, guya həmin texnoloji qurğu üçün SK zavodu ərazisində müvafiq əlverişli sahə yoxdur. Heydər Əliyev "yuxarıların" bu bəhanəsini kəsmək üçün SSRİ Nazirlər Sovetinin və SSRİ Neft-Kimya Sənayesi Nazirliyinin rəhbər nümayəndələrini və mütəxəssislərini Sumqayıta dəvət etmişdi.

Çalışdığım SK zavodunda işlə bağlı sexlərdən birinə gedərkən müəssisənin ərazisinə maşın kartejinin daxil olduğunu gördüm. İlk anda kim olduqlarını bilmədiyim nümayəndələr EP-300 istehsalatının indiki yerində, o vaxt boş olan meydançada maşından düşdülər və ətrafa göz gəzdirdilər. Onların arasında özünün lider əzəməti ilə seçilən Heydər Əliyevi görüb, sevindim. Mənim üçün talenin xoş qisməti idi ki, o böyük şəxsiyyətin zavodumuza həmin gəlişinin şahidi olmuşdum.

Düzü, o vaxt başa düşməmişdim ki, Heydər Əliyevin müəssisəmizə qəfil gəlişindən məqsəd nədir? Yalnız sonradan bildim ki, Heydər Əliyev moskvalı qonaqları məhz EP-300 üçün uyğun ərazinin olduğunu sübut etmək üçün buraya gətirib. Respublika rəhbəri özü meydançanı az qala addım-addım ölçür və onları fakt qarşısında qoyurdu.

Yalnız ondan sonra yeni kompleksin Sumqayıtda tikilməsinə razılıq verildi və layihələndirilmə işlərinə başlanıldı. Bu həm Bakı və Sumqayıtın ekoloji problemlərinin müəyyən həllinə, həm də respublika iqtisadiyyatının sıçrayışlı inkişafına imkan yaradacaqdı. Bax, bu idi Heydər Əliyev prinsipiallığı, cəsarəti və siyasi nüfuzu!

Beləcə, Sumqayıtda yeni və müasir, yüksək səmərəliliyə malik unikal "EP-300" kompleksinin, daha sonra isə onun texnoloji davamı olan "Polimer-120" qurğusunun tikintisi Heydər Əliyevin uzaqgörən iqtisadi siyasətinin, vətənpərvər qətiyyətinin real bəhrəsi idi.

"EP-300" kompleksinin tikintisinin texniki əsaslandırılmasına, planlaşdırılmasına, layihə-smeta sənədlərinin hazırlanmasına və tikinti işlərinə başlanılanda Ulu öndər artıq Moskvaya getmişdi və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsində çalışırdı. Buna baxmayaraq, daim yeni kompleksin tikintisi ilə maraqlanır, problem olub-olmadığını öyrənir, lazımi köməkliyini edirdi. Yəni respublikadan kənarda olsa da, Sumqayıtı, onun neft-kimya sənayesini diqqət mərkəzində saxlayırdı.

Təəssüf ki, sonralar Azərbaycana rəhbərlik edənlərin heç birində Heydər Əliyevin siyasi müdrikliyi, idarəetmə səriştəsi, qətiyyəti, iradəsi və ən başlıcası, nüfuzu olmadığı üçün tədricən iqtisadiyyatımız da iflasa uğradı, iqtisadi əlaqələr də pozuldu, üstəlik, erməni separatizmi də baş qaldırdı. Siyasət və qtisadiyyat sahələrində yaranan çatların təsiri ilə xalqımız ağır sınaqlarla üzləşməli oldu. Mütiliklə Kremlin göstərişləri üzrə hərəkət edən, itaətkar mövqe tutan üzdəniraq rəhbərlər ölkəni və xalqı uçuruma sürüklədilər. Sumqayıtın neft-kimya sənayesi də iflic vəziyyətə düşdü...

Ulu öndər 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gələn zaman yenicə müstəqillik qazanmış ölkəmizdə sosial-iqtisadi vəziyyət çox acınacaqlı idi. Belə bir çətin dövrdə Heydər Əliyev Qarabağla bağlı təxirəsalınmaz problemləri yoluna qoyduqdan sonra yenə də milli iqtisadiyyata diqqət ayırdı, Sumqayıtda da yeni istehsal sahələrinin yaradılmasına başlanıldı. İlk növbədə SK zavodunda (sonradan Etilen-polietilen zavodu adlandırıldı) Sumqayıtın neft-kimya sənayesinin elektrik enerjisinə tələbatının tam və dolğun ödəyə biləcək Buxar-generator kompleksinin inşasına nail olmaq lazım idi.

Ulu öndər bu məqsədlə 1998-ci ildə Yaponiyaya tarixi səfəri zamanı gündoğar ölkənin rəhbərləri ilə Sumqayıtda həmin qurğunun dövlət zəmanəti ilə kreditlə alınaraq, inşa edilməsi üçün razılıq əldə etdi və artıq 2001-ci ildə kompleks tam işə salındı. Dahi rəhbər öz ideyasının bəhrəsi olan həmin qurğunun təntənəli açılış mərasimində iştirak edərək, kimyaçılara özünün ən böyük, misilsiz töhfəsini verdi.

Bu gün xüsusilə qeyd etmək lazımdır ki, əgər Heydər Əliyev o ağır günlərdə müdrik bir uzaqgörənliklə ölkənin kimya sənayesinin enerji təchizatında yarana biləcək böhran vəziyyətini qabaqcadan duymasaydı və Buxar-generator kompleksinin vaxtında alınıb, istifadəyə verilməsinə nail olmasaydı, yəqin ki, həmin dövrdə təkcə Etilen-polietilen zavodu deyil, digər kimya müəssisələri də çox ağır enerji böhranı ilə üzləşər, bütün istehsalat sahələri öz fəaliyyətini dayandırar, minlərlə kimyaçı işsiz qalardı.

Bəli, Ulu öndər Heydər Əliyev bütün şərəfli ömrü boyu Azərbaycanın və böyük sənaye şəhəri olan Sumqayıtın hərtərəfli tərəqqisi üçün çox böyük miqyaslı işlər görmüşdür. Bu gün dahi rəhbərimizin layiqli siyasi davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyev quruculuq işlərinə, iqtisadiyyatın bütün sahələrinin müasir tələblər səviyyəsində olmasına ciddi önəm verir. Hər bir azərbaycanlı bütün aydınlığı ilə dərk edir ki, xalqımızın bugünkü firavan yaşayışında, ölkəmizin hər bir sahədə əldə etdiyi uğurlarda Ulu öndərimizin hələ 1969-cu ildən başlayaraq doğma xalqının xoş sabahı naminə gördüyü ölçüyəgəlməz quruculuq işlərinin, onun titanik fəaliyyətinin əvəzsiz rolu vardır.

***Əbülfəz BABAYEV,***
***texnika elmləri doktoru, professor***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 335** **Bakı şəhəri, 22 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nda dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanun-vericilik Toplusu, 2010, № 6, maddə 561; 2012, № 12, maddə 1345; 2014, № 4, maddə 451; 2016, № 12, maddə 2239; 2017, № 4, maddə 665, № 12 (II kitab), maddə 2534; 2018, № 11, maddə 2431; 2020, № 3, maddə 341, № 5, maddə 650, № 12 (V kitab), maddə 1605; 2021, № 2, maddə 205, № 6 (IV kitab), maddə 664; 2022, № 12, maddə 1552) ilə təsdiq edilmiş "Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları"nın 1.6-cı bəndinin birinci abzasına aşağıdakı məzmunda beşinci-səkkizinci cümlələr əlavə edilsin:

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Heydər Əliyev adına Hərbi İnstituta qəbul olunduqdan sonra əsas təhsil proqramlarının icrasına başlamazdan əvvəl bütün təhsilalanlara, yaxud komandanlığın qərarı ilə təhsilalanların bir qisminə xarici dillərin dərindən öyrədilməsi və zəruri olan digər fənlərin əsaslarının tədrisi məqsədilə Azərbaycan Respublikası müdafiə nazirinin qərarı ilə 1 (bir) tədris ili müddətində hazırlıq kursu təşkil edilir. Hazırlıq kursunun proqramını Azərbaycan Respublikasının müdafiə naziri təsdiq edir. Bilik və bacarıqların qiymətləndirilməsi çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Kursun proqramını bu və ya digər səbəblərdən yerinə yetirməyən və ya müvəffəqiyyət qazanmayan təhsilalan xüsusi təyinatlı ali təhsil müəssisəsindən xaric edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 336** **Bakı şəhəri, 22 sentyabr 2023-cü il**

***"Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının 6.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745, № 10, maddə 969, № 12, maddələr 1241, 1245; 2012, № 3, maddə 257, № 4, maddə 399, № 6, maddələr 633, 634, № 12, maddə 1346; 2013, № 6, maddə 775, № 9, maddə 1130; 2014, № 1, maddə 72, № 2, maddə 214, № 6, maddə 751, № 7, maddə 907, № 9, maddə 1120; 2015, № 3, maddə 336, № 6, maddə 807, № 8, maddə 966, № 10, maddələr 1226, 1229, № 12, maddə 1571; 2016, № 1, maddə 176, № 2 (II kitab), maddə 373, № 3, maddə 622, № 5, maddə 957, № 6, maddə 1209, № 10, maddə 1723, № 11, maddə 1919; 2017, № 2, maddələr 285, 302, 319, № 6, maddələr 1223, 1226; 2018, № 11, maddələr 2429, 2456, № 12 (II kitab), maddələr 2739, 2759; 2019, № 11, maddə 1853; 2020, № 3, maddə 368, № 7, maddə 980, № 10, maddə 1301; 2021, № 3, maddə 268, № 6 (IV kitab), maddə 689, № 9, maddə 1062; 2022, № 3, maddə 253, № 7, maddə 812; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 31 iyul tarixli 250 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı" aşağıdakı redaksiyada verilsin:

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna**
**daxil olmayan tabeliyindəki qurumların**
**SİYAHISI**

| Sıra №-si | Qurumların adı |
|---|---|
| | **Elmi müəssisələr** |
| 1. | Fizika İnstitutu |
| 2. | Riyaziyyat və Mexanika İnstitutu |
| 3. | İdarəetmə Sistemləri İnstitutu |
| 4. | Radiasiya Problemləri İnstitutu |
| 5. | İnformasiya Texnologiyaları İnstitutu |
| 6. | Biofizika İnstitutu |
| 7. | Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası |
| 8. | Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu |
| 9. | Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu |
| 10. | Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu |
| 11. | Polimer Materialları İnstitutu |
| 12. | Geologiya və Geofizika İnstitutu |
| 13. | Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu |
| 14. | Təbiət Tarixi Muzeyi |
| 15. | Neft və Qaz İnstitutu |
| 16. | Botanika İnstitutu |
| 17. | Zoologiya İnstitutu |
| 18. | Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu |
| 19. | Mikrobiologiya İnstitutu |
| 20. | Dendrologiya İnstitutu |
| 21. | Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu |
| 22. | Genetik Ehtiyatlar İnstitutu |
| 23. | Torpaqşünaslıq və Aqrokimya İnstitutu |
| 24. | İqtisadiyyat İnstitutu |
| 25. | Azərbaycan Respublikasının Təhsil İnstitutu |
| 26. | Elm və Təhsil Nazirliyinin nəzdində "Təhsil sisteminin inkişafı və proqnozlaşdırılması problemləri üzrə" elmi-tədqiqat laboratoriyası |
| 27. | Təbii Ehtiyatlar İnstitutu (Naxçıvan) |
| 28. | Bioresurslar İnstitutu (Naxçıvan) |
| 29. | Batabat Astrofizika Rəsədxanası (Naxçıvan) |
| 30. | Ekologiya və Təbii Ehtiyatlar İnstitutu (Gəncə) |
| 31. | Bioresurslar İnstitutu (Gəncə) |
| 32. | Aqrar Problemlər İnstitutu (Gəncə) |
| 33. | Nəbatat Bağı (Gəncə) |
| | **Ali təhsil müəssisələri** |
| 1. | Bakı Dövlət Universiteti |
| 2. | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti |
| 3. | Azərbaycan Dövlət İqtisad Universiteti |
| 4. | Azərbaycan Texniki Universiteti |
| 5. | Azərbaycan Memarlıq və İnşaat Universiteti |
| 6. | Azərbaycan Dövlət Pedaqoji Universiteti |
| 7. | Bakı Mühəndislik Universiteti |
| 8. | Bakı Slavyan Universiteti |
| 9. | Azərbaycan Dillər Universiteti |
| 10. | Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti |
| 11. | Azərbaycan Rəssamlıq Akademiyası |
| 12. | Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası |
| 13. | Azərbaycan Milli Konservatoriyası |
| 14. | Naxçıvan Dövlət Universiteti |
| 15. | Sumqayıt Dövlət Universiteti |
| 16. | Azərbaycan Texnologiya Universiteti |
| 17. | Gəncə Dövlət Universiteti |
| 18. | Lənkəran Dövlət Universiteti |
| 19. | Naxçıvan Müəllimlər İnstitutu |
| 20. | Mingəçevir Dövlət Universiteti |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan orta ixtisas təhsili müəssisələri və digər qurumlar |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan peşə təhsili müəssisələri və digər qurumlar |
| | **Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumlar** |
| 1. | Siyahısı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunan məktəbəqədər, ümumi təhsil, məktəbdənkənar təhsil müəssisələri və digər qurumlar |
| | **Təsərrüfathesablı elmi xidmət müəssisələri** |
| 1. | "Nafta" Elmi İstehsalat Birliyi |
| 2. | "Aşqar" Elmi İstehsalat Birliyi |
| 3. | "Kompozit" Elmi İstehsalat Birliyi |
| 4. | Təcrübə İstehsalatlı Kibernetika Xüsusi Konstruktor Bürosu |
| 5. | Təcrübə-Sənaye Zavodu |
| 6. | "ETN Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyəti |
| | **Digər qurumlar** |
| 1. | Təhsildə Keyfiyyət Təminatı Agentliyi |
| 2. | Təhsil Tələbə Krediti Fondu |
| 3. | Təhsilin İnkişafı Fondu |
| 4. | Peşə Təhsilinin İnkişafı Fondu |
| 5. | Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi |
| 6. | Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi |
| 7. | Uşaqların Müdafiəsi İdarəsi |
| 8. | Xalq Təhsili Muzeyi |
| 9. | Xarici tələbələrlə, doktorantlarla və stajkeçənlərlə iş üzrə Şuranın Katibliyi |

**2.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki orta ixtisas təhsili müəssisələrinin və digər qurumların, Peşə Təhsili üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki peşə təhsili müəssisələrinin, digər qurumların və Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin strukturuna daxil olmayan tabeliyindəki məktəbəqədər, ümumi təhsil və məktəbdənkənar təhsil müəssisələri və digər qurumların siyahılarını təsdiq etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 337** **Bakı şəhəri, 22 sentyabr 2023-cü il**

***Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatının, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və regional təhsil idarələrinin işçilərinin say həddinin müəyyən edilməsi, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin mərkəzi aparatının ştat sayının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 23 fevral tarixli 15 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 25 oktyabr tarixli 230 nömrəli Qərarının ləğv edilməsi haqqında" 2022-ci il 4 fevral tarixli 39 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi Aparatının işçilərinin say həddinin müəyyən edilməsi haqqında" 2016-cı il 11 avqust tarixli 304 nömrəli Qərarının ləğv edilməsi barədə***

"Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 iyul tarixli 1769 nömrəli Fərmanının 6.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatının işçilərinin say həddi 180 ştat vahidi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 43 ştat vahidi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 43 ştat vahidi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin işçilərinin say həddi 882 ştat vahidi təsdiq edilsin.

**2.** "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Aparatının, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin və regional təhsil idarələrinin işçilərinin say həddinin müəyyən edilməsi, "Azərbaycan Respublikası Təhsil Nazirliyinin mərkəzi aparatının ştat sayının artırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 23 fevral tarixli 15 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Təhsil Nazirliyinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 25 oktyabr tarixli 230 nömrəli Qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 4 fevral tarixli 39 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 163, № 12, maddə 1552) 1-ci hissəsi ləğv edilsin.

**3.** "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi Aparatının işçilərinin say həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 avqust tarixli 304 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1442) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 341** **Bakı şəhəri, 23 sentyabr 2023-cü il**

Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" bəyənilsin.

**2.** Bu Qərarın 1-ci hissəsində qeyd edilən layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulan digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Gürcüstan deputatları Milli Məclisdə



**Dünən Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri Gürcüstan Parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadzenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.**

Milli Məclisin Mədəniyyət komitəsinin üzvü, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev ölkələrimiz arasındakı tarixin dərinliklərindən gələn dostluq, qardaşlıq və mehriban qonşuluq münasibətlərindən söz açıb. Həmçinin Azərbaycanın Gürcüstanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edilib.

Gürcüstan parlamentinin Mədəniyyət komitəsinin sədri Eliso Bolkvadze Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək, ölkələrimiz arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərindən danışıb. O, Cənubi Qafqazda sülh və əməkdaşlıq üçün yaranan imkanları bütün sahələrdə, o cümlədən mədəniyyət platformalarında dəstəkləməyə hazır olduqlarını bildirib.

Görüşün sonunda Arzu Nağıyev və Eliso Bolkvadze "Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi ilə Gürcüstan Parlamentinin Mədəniyyət komitəsi arasında əməkdaşlıq haqqında Memorandum"u imzalayıblar.

***XQ***

# Albert Aqarunovun vurduğu erməni tankı Bakıya gətirilib



**1992-ci ildə Azərbaycan ərazilərinin işğalı zamanı ermənilərin Şuşa şəhərinin girişində "özlərinin qələbə rəmzi" kimi qoyduqları tank demontaj edilərək Bakıdakı Hərbi Qənimətlər Parkına gətirilib.**

Qeyd edək ki, həmin 442 nömrəli tank Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov tərəfindən Şuşa yaxınlığında vurularaq sıradan çıxarılıb. Sonradan həmin tankı ermənilər rəngləyib, Xankəndi–Şuşa yolunun üzərindəki təpədə yerləşdiriblər.

Xatırladaq ki, ermənilərin başına külli miqdarda pul qoyduğu Milli Qəhrəman Albert Aqarunov Qarabağda könüllü olaraq vuruşub və Şuşa uğrunda döyüşlərdə şəhid olub.

***XQ***

# Rəqabət artdıqca inhisarçılıq zəifləyir

## Bu isə bolluğa və ucuzluğa meydan açır



**Bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Rəqabət Məcəlləsinin layihəsi Milli Məclisə daxil olub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, məcəllənin qəbulunun ölkə iqtisadiyyatının inkişafına, biznes mühitinin əlverişliliyinin artırılmasına göstərə biləcəyi təsir nəzərə alınaraq Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə sentyabrın 26-da parlamentdə sənədin ictimai dinləməsi keçiriləcək.**

Dinləmədə Milli Məclisdə təmsil olunmuş siyasi partiyaların nümayəndələri, millət vəkilləri, İqtisadiyyat Nazirliyinin əlaqədar vəzifəli şəxsləri, sahibkarlar assosiasiyalarının, ticarət palatalarının, QHT-lərin təmsilçiləri, ekspertlər və mütəxəssislər iştirak edəcəklər.

Xatırladaq ki, Rəqabət Məcəlləsinin layihəsi 12 fəsil 84 maddədən ibarətdir. Bu Məcəllə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 15-ci bəndlərinə uyğun olaraq, ölkəmizdə azad və sağlam rəqabətin təmin olunması, qorunması və inkişafının ümumi əsaslarını, rəqabət qanunvericiliyinə əməl edilməsinə dövlət nəzarətini, rəqabət sahəsində tənzimlənməni, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin təşkilati və hüquqi əsaslarını, bazar subyektlərinin hüquqlarını və vəzifələrini, habelə rəqabət qanunvericiliyinin pozulmasına görə məsuliyyəti müəyyən edir. Sözügedən sənəd, həmçinin sahibkarlıq fəaliyyəti daxil olmaqla iqtisadi fəaliyyətin ədalətli üsullarla aparılmasına hüquqi zəmin yaradır.

### Ekspert rəyi

**Vüqar BAYRAMOV, Milli Məclisin deputatı**



Azərbaycanda Rəqabət Məcəlləsinin qəbul edilməsi vacib idi. Rəqabət Məcəlləsi həm bazarın tənzimlənməsi, həm də iqtisadi proseslər baxımından əhəmiyyətli bir sənəddir. Bu, bütövlükdə bazarda inhisarşılıq meyillərinin azaldılmasına və qiymətlərin liberallaşdırılmasına imkan yaradacaq.

Son zamanlar aparılan monitorinqlər də göstərir ki, istehlak bazarında bəzi məhsullar üzrə süni qiymətlər mövcuddur, inhisarçı mövqe qiymətlərə təsir göstərir. Ona görə də Rəqabət Məcəlləsi bazarda rəqabətin gücləndirilməsi və inhisarçılığın minimallaşdırılmasını özündə ehtiva edir. Bu da təbii ki, bazara giriş imkanlarının artırılması, rəqabtin gücləndirilməsi, fərqli və ya oxşar məhsulların ayrı-ayrı şirkətlər tərəfindən fərqli qiymətlərlə təqdim olunmasına imkan yaradacaq.

Düşünürəm ki, Rəqabət Məcəlləsinin qəbul edilib icrasına başlanılması ilə ölkədə bir sıra məhsulların qiymətlərinin optimallaşdırılması, hətta ucuzlaşması baş verəcək.

Rəqabət Məcəlləsinin qəbulu ilə Azərbaycanda haqsız rəqabətin formaları da müəyyən ediləcək. Parlamentə daxil olmuş layihədə haqsız rəqabətin formaları kimi isə müştərilərə qarşı aqressiv davranış, rəqib təsərrüfat subyektinin nüfuzdan salınması, rəqibin təsərrüfat fəaliyyətinin təqlidi, müştərilərin çaşdırılması və aldadılması, kommersiya sirrinin qanunsuz əldə edilməsi, istifadəsi və ya yayılması, eləcə də bu Məcəllənin 25-ci maddəsində nəzərdə tutulan haqsız rəqabətə səbəb olan digər hərəkətlər öz əksini tapıb.

Məlum olduğu kimi, hazırda ölkə qarşısında duran əsas məsələlərdən biri də özəl sektor üçün rəqabəti təmin etməkdir. Bu məqsədlə son illər ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması və inhisarçılığın aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Hətta bir neçə il bundan əvvəl ölkə Prezidenti İlham Əliyev bununla bağlı narahatlığını bildirərək bəzi dövlət məmurlarını müxtəlif biznes dairələrinə kömək göstərməklə haqsız rəqabətə imkan yaratmaqda ittiham etmişdi. Dövlət başçısı Azərbaycanda inhisarçılığa qarşı mübarizənin gücləndirilməsinin vacibliyini önə çəkərək bununla biznes dairələri üçün daha yaxşı şərait yaradılacağına əmin olduğunu bildirmişdi.

Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin əvvəlindən etibarən ölkədə haqsız rəqabət hallarına, inhisarçılığa qarşı mübarizə sahəsində bir sıra təsirli tədbirlər həyata keçirilib. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin məlumatına görə, cari ilin 6 ayı ərzində "Haqsız rəqabət haqqında" Qanunun tələblərinin pozulması ilə əlaqədar aparılan bazar araşdırması və daxil olmuş müraciətlərin araşdırılması zamanı bir sıra bazar subyektləri tərəfindən antiinhisar qanunvericiliyinin pozulması əlamətləri müəyyən edilib və nəticədə 19 bazar subyektinə qarşı 19 iş qaldırılıb.

Dövlət Xidmətinin məlumatında, həmçinin bildirilib ki, ötən dövrdə istehlakçını çaşdıra bilən hər hansı məlumatlardan istifadə olunmaqla haqsız rəqabətə yolvermə əlamətləri üzrə qaldırılmış işlərin sayı üstünlük təşkil edib. Belə ki, istehlakçının seçmə sərbəstliyinə təsir göstərən haqsız, qeyri-dəqiq və gizli reklam üsullarından istifadə olunmaqla haqsız rəqabətə yolvermə əlamətləri üzrə 4 iş, digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə əlamətləri üzrə 5 iş qaldırılıb. Ötən ilin müvafiq dövründə 19 bazar subyektinə qarşı qaldırılmış 18 iş üzrə digər bazar subyektinin əmtəə nişanından qanunsuz istifadə etməklə haqsız rəqabətə yolvermə (10 iş) say etibarilə üstünlük təşkil edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Elektrik enerjisi istehsalı və ixracı çoxalır

**Energetika Nazirliyindən aldığımız məlumata əsasən, bu ilin 8 ayı ərzində ölkədə elektrik enerjisinin istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 154,2 milyon kVt/saat, yəni 0,8 faiz artaraq 19 milyard 245 milyon kVt/saat olub.**



Hesabat dövründə elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 17 milyard 714 milyon kVt/saat, su elektrik stansiyalarında (SES) 1milyard 282 milyon kVt/saat, digər mənbələr üzrə isə 249 milyon kVt/saat təşkil edib. Bu dövrdə külək elektrik stansiyalarında (KES) 41,7 milyon kVt/saat, günəş elektrik stansiyalarında (GES) 46,9 milyon kVt/saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 160,5 milyon kVt/saat elektrik enerjisi istehsal olunub.

Bu dövrdə elektrik enerjisinin istehsalı "Azərenerji" ASC üzrə 17 milyard 328 milyon kVt/saat (İES-lərdə 16 milyard 132 milyon kVt/saat, SES-lərdə 1 milyard 196 milyon kVt/saat), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 330,2 milyon kVt/saat (İES-lərdə 211,7 milyon kVt/saat, SES-lərdə 75,6 milyon kVt/saat, Günəş ES-də 42,9 milyon kVt/saat), "Azərişıq" ASC üzrə külək elektrik stansiyalarında 32,2 milyon kVt/saat, müstəqil elektrik stansiyaları üzrə isə 1milyard 555 milyon kVt/saat təşkil edib.

2023-cü ilin yanvar-avqust ayları üzrə elektrik enerjisinin ixracı 1 milyard 531 milyon kVt/saat, idxalı isə 169,3 milyon kVt/saat olub.

Qeyd edək ki, 2023-cü ilin avqust ayında respublika üzrə elektrik enerjisinin istehsalı 2 milyard 922 milyon kVt/saat olub. Elektrik enerjisinin idxalı 11,6 milyon kVt/saat, ixrac isə 253,5 milyon kVt/saat təşkil edib.

***XQ***

# Ötən ay gündəlik neft hasilatı 620 min barelə yüksəlib

**Cari ilin avqust ayında Azərbaycanda gündəlik neft hasilatı 620 min barel təşkil edib. Bunun 498 min barelini xam neft, 122 min barelini isə kondensat təşkil edib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**



Qeyd edək ki, "OPEC plus" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

***XQ***




# Qeyri-neft sektoruna investisiya qoyuluşu 8 milyard manata çatıb

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında respublikada iqtisadi artıma təsir edən mühüm amillərdən olan qeyri-neft sektoru üzrə investisiya qoyuluşlarının Azərbaycanda 2023-cü ilin yanvar-avqust aylarında ötən ilin müvafiq dövrünə nisbətən 17 faiz artdığını bildirib.**

Nazir daha sonra qeyd edib ki, qeyri-neft sektoru üzrə investisiya qoyuluşları 7 milyard 98,8 milyon manata çatıb.

***XQ***

**Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədində 2024-cü il, eyni zamanda, ortamüddətli dövr üzrə makro-iqtisadi hədəf və proqnozlar, həmçinin büdcə siyasətinin əsas istiqamətləri öz ifadəsini tapıb.**

Açıqlamada Dövlət Statistika Komitəsinin məlumatına əsaslanılaraq, 2023-cü ilin yanvar–iyun aylarında ölkədə 60,3 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 36,2 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal olunduğu bildirilir. Eyni zamanda, ötən ilin eyni dövrü ilə müqayisədə ÜDM-in real ifadədə 0,5 faiz, qeyri-neft-qaz sektoru üzrə ÜDM-in isə 3,1 faiz artdığı vurğulanır.

Sənəddə, həmçinin rəsmi statistikaya istinadən bu ilin yanvar-iyun aylarında ÜDM-in strukturunda ən böyük xüsusi çəkiyə (43,7 faiz) malik neft-qaz sənayesində 1,8 faiz azalma olmaqla 26,4 milyard manatlıq, məhsula və idxala xalis vergilər üzrə (xüsusi çəkisi 9,3 faiz) 6,3 faiz real artım olmaqla 5,6 milyard manatlıq əlavə dəyər istehsal edildiyi də diqqətə çatdırılır. İlin I yarısında orta illik inflyasiya göstəricisinin 12,7 faiz səviyyəsində qeydə alındığı da bildirilir. Həmçinin ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksində cari ilin ilk 6 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz, qeyri-ərzaq məhsulları üzrə isə 11,4 faiz artım əldə olunduğu göstərilir.

# Davamlı inkişafın yarımillik "kardioqramı"

## 6 ayda 60,3 milyard manatlıq ümumi daxili məhsul əldə edilib



2023-cü ilin yanvar-iyun aylarında əsas kapitala yönəldilən vəsaitin məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,4 faiz artaraq 7,1 milyard manat təşkil edib ki, bunun da 72,9 faizi daxili mənbələr, 27,1 faizi isə xarici mənbələr hesabına formalaşıb. İnvestisiyaların təqribən 2,8 milyard manatı (39,3faiz) neft-qaz, 4,3 milyard manatı (60,7faiz) qeyri-neft-qaz sektoruna yönəldilib. Eyni zamanda qeyri-neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 4,2 faiz artıb. Bu ilin ilk 6 ayında xarici ticarət dövriyyəsi 22,9 milyard ABŞ dolları təşkil edib ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən faktiki qiymətlərlə 11,4 faiz azalma, real ifadədəisə 2,5 faiz artım deməkdir.

Bu dövrdə xarici ticarət üzrə əməliyyatların 14,7 milyard ABŞ dolları və ya 64,3 faizi ixrac, 8,2 milyard ABŞ dolları və ya 35,7 faizi idxal əməliyyatlarının payına düşüb. Nəticədə xarici ticarət üzrə 6,6 milyard ABŞ dolları həcmində müsbət saldoya nail olunub. Qeyri-neft-qaz məhsullarının ixrac göstəricisi isə əvvəlki ilin müvafiq dövrünə nəzərən real ifadədə16,9 faiz artaraq 1,8 milyard ABŞ dollarına yüksəlib.

Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama"da bildirilir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastrukturun yenidən qurulması, abadlıq-quruculuq işlərinin həyata keçirilməsi sayəsində bölgənin Azərbaycan iqtisadiyyatına reinteqrasiyası təmin olunacaq ki, bu da öz növbəsində iqtisadiyyatın bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaradacaq. Qeyd edilən ərazilərdə uzun illər sonra kommunikasiya xətlərinin açılması isə iqtisadi cəhətdən müsbət tendensiyalara rəvac verməklə yanaşı, regionda sülhün və təhlükəsizliyin də bərqərar olmasına xidmət edəcək.

Sözügedən sənəddə sosial-iqtisadi inkişaf gözləntiləri də öz ifadəsini tapıb. Məsələn, 2023-cü ildə əsas kapitala olan investisiyalarda 7,7 faiz, ortamüddətli dövrdə isə orta illik 1,6 faiz artım olacağı proqnozlaşdırılıb. Qarşıdakı dövr ərzində neft-qaz sektoru üzrə olan investisiyalarda azalmanın, digər sahələr üzrə isə artımın müşahidə ediləcəyi vurğulanıb. Belə ki, digər sahələr üzrə investisiyaların 2023-cü ildə 13,4 milyard manat proqnozlaşdırıldığı halda, 2027-ci ildə 16,9 milyard manata yüksələcəyi qeyd edilib.

Açıqlamada digər proqnoz göstəricilərinə də diqqət yetirək:

– 2024-2027-ci illər ərzində xarici dövlət borcu üzrə həyata keçiriləcək əsas borc ödənişləri, habelə mövcud və yeni imzalanacaq kredit sazişləri çərçivəsində istifadələr nəzərə alınmaqla, 2027-ci ilin sonuna xarici dövlət borcunun 5,4 milyard ABŞ dolları və ya ÜDM-in 6,8 faizi həcmində olacağı proqnozlaşdırılır;

–2024-cü ilin sonuna Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 27 milyard 678 milyon manat səviyyəsində olacağı və 11 milyard 838 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 23,4 faizini təşkil edəcəyi gözlənilir. Həmin dövrdə xarici dövlət borcu 8 milyard 898,7 milyon manat (5 milyard 234,5 milyon ABŞ dolları) və ya ÜDM-in 7,5 faizi həcmində, daxili dövlət borcu isə 2024-cü ilin sonuna 18 milyard 779,4 milyon manat və ya ÜDM-in 15,9 faizi həcmində olacağı proqnozlaşdırılır;

–ortamüddətli dövrdə ölkədə qeyri-neft-qaz ÜDM-in həcminin 2024-cü ilin sonuna 84,2 milyard manat, 2027-ci ildə isə 106,8 milyard manata qədər artacağı və real artım tempinin 4,6-5 faiz intervalında olacağı gözlənilir;

–gələn il üçün 36 milyard 355 milyon manat (ÜDM-in 30,7 faizi) həcmində proqnozlaşdırılan dövlət büdcəsi xərclərinin 22 milyard 622 milyon manatı və ya 62,2 faizi cari xərclərə, 11 milyard 760,4 milyon manatı və ya 32,3 faizi əsaslı xərclərə, 1 milyard 972,6 milyon manatı və ya 5,4 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönələcəyi proqnozlaşdırılır.

Maliyyə Nazirliyinin açıqlamasında 2024-cü ildə Azərbaycanda bir sıra vergi güzəştlərinin tətbiq ediləcəyi də bildirilir. Belə ki, gələn il ölkədə gəlirlər üzrə siyasətin əsas istiqamətləri üzrə həm sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, həm də sahibkarlıq fəaliyyətinin təşviq edilməsi nəzərdə tutulur.

Sənəddə fiziki şəxslərin gəlirlərinə düşən vergi yükünün azaldılması məqsədilə bəzi kateqoriyalı fiziki şəxslərə verilən güzəştlərin həcminin artırılmasının və onların bir sıra gəlirlərinin vergiyə cəlb olunan gəlir bazasına aid edilməməsinin nəzərdə tutulduğu da qeyd edilir.

Eyni zamanda, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, ictimai və sosial məqsədlər üçün ödənilən vəsaitlər üzrə mənfəət vergisindən azad olan hissənin artırılması, bir sıra təsərrüfat sahələri üzrə mülkiyyət vergiləri üzrə əlavə güzəştlərin verilməsi nəzərdə tutulur.

Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama"da qeyd edilib ki, 2024-cü ildə gəlir siyasətinin istiqamətlərindən biri də gömrük ödənişlərinin təkmilləşdirilməsi olacaq. Belə ki, daxili istehsalda istifadə edilən və yerli istehsalı mövcud və ya səmərəli olmayan bir sıra xammal və aralıq malların idxalına tətbiq olunan gömrük rüsumlarının dərəcəsinin azaldılması, bir sıra əsas vəsaitlərin idxalında ƏDV və gömrük rüsumları üzrə güzəştlərin tətbiqi nəzərdə tutulur.

Eyni zamanda sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükü də azaldılacaq. Fiziki şəxslərin gəlirlərinə düşən vergi yükünün azaldılması məqsədilə bəzi kateqoriyalı fiziki şəxslərə verilən güzəştlərin həcminin artırılması və bir sıra gəlirlərinin vergiyə cəlb olunan gəlir bazasına aid edilməyəcək.

***V.BAYRAMOV***
***XQ***

# İllik gömrük daxilolmaları 5,9 milyard manat olacaq

**Maliyyə Nazirliyinin hazırladığı "2024-cü ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama"da Dövlət Gömrük Komitəsi (DGK) üzrə büdcə daxilolmaları proqnoza görə, ümumi daxili məhsulun (ÜDM) 5faizi həcmində olmaqla 5 milyard 900 milyon manat nəzərdə tutulub.**

Qeyd edək ki, bu göstərici 2023-cü ilin proqnozu ilə müqayisədə 172 milyon manat və ya 3 faiz, 2022-ci illə müqayisədə 245,4 milyon manat və ya 4,3 faiz çoxdur.

***XQ***

# Macarıstan etibarlı dost, perspektivli tərəfdaşdır

## Ortaq maraqlar, faydalı əməkdaşlıq ölkələrimizi daha da yaxınlaşdırır



**Macarıstanın Qarabağda vəziyyətlə bağlı Avropa İttifaqının birgə bəyanatının qəbulu zamanı özünün veto hüququndan istifadə etməsi bir daha bu ölkənin həqiqətin tərəfində dayandığını, Azərbaycanla əlaqələrinin qurulduğu tarixdən etibarən daim yüksələn xətlə möhkəmləndiyini göstərir. Hazırda dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir. Macarıstan respublikamızın strateji tərəfdaşı və Avropa İttifaqında ən etibarlı tərəfdaşlarından biri kimi diqqət çəkir.**

Ölkələrimiz arasında iqtisadi əlaqələrdə də davamlı inkişaf müşahidə olunur. Azərbaycan və Macarıstan geniş iqtisadi potensiala malik dövlətlərdir. İki ölkə arasında imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlər iqtisadi əməkdaşlığın getdikcə genişlənməsi və möhkəmlənməsində əhəmiyyətli baza rolunu oynayır.

İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olmasının əyani təsdiqi kimi diqqət çəkən bəzi məqamlara nəzər salaq. Əvvəlcə onu qeyd edək ki, tərəflər arasında əmtəə dövriyyəsinin həcmi son illərdə geniş həcmdə artıb. Belə ki, 2021-ci ildə Azərbaycan ilə dost ölkə arasında ümumi ticarət dövriyyəsi 35,16 milyon ABŞ dolları təşkil edib. Keçən il bu göstərici 47,4 milyon dollara çatıb. İki ölkə arasında ticarət dövriyyəsinin böyük hissəsi idxalın payına düşür. Başqa sözlə, Azərbaycan–Macarıstan əməkdaşlığında 45 milyon dollar idxal, 2,3 milyon dollardan bir qədər artıq isə ixrac təşkil edir.

Beləliklə, Macarıstan ixrac və idxala görə sıralamada ən balanslı mövqeyə malik ölkədir, ixrac üzrə dünyanın 35-ci ən böyük ixracatçısı, idxal üzrə isə 34-cü ən böyük idxalatçısıdır. Düzdür, Rusiya-Ukrayna müharibəsi mövcud vəziyyətə mənfi təsir göstərir, müəyyən ciddi problemlər yaradır. Onun bu çətinliklərin aradan qaldırılmasında Azərbaycan önəmli rol oynayır. Çünki Avropaya çatmış TAP qazının Yunanıstanın qonşu ölkələrinə daxili konnektorlar vasitəsilə çatdırılması məsələsində Macarıstan da ciddi istəklidir.

Azərbaycan–Macarıstan arasında ötən illər ərzində nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq daim diqqətdə saxlanılıb. Bu məqsədlə 2022-ci ildə Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, həmçinin əks istiqamətə yüklərin ötürülməsinə başlanılıb. Bundan başqa, dost ölkənin "Wizz Air" şirkəti Bakı və Budapeşt şəhərləri arasında birbaşa aviareyslərin həyata keçirməsinə başlayıb. Macarıstan şirkətləri Azərbaycanın işğaldan azad edilən ərazilərində reallaşdırılan bərpa-quruculuq prosesində artıq fəaliyyətə başlayıb.

Hazırda Macarıstan şirkətləri tərəfindən düşməndən təmizlənən ərazilərimizdə aparılan bərpa-quruculuq işləri ilə əlaqədar ölkəmizə müvafiq layihələr təqdim edilib. Döst dövlət düşməndən azad olunan torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir. Bu gün ölkələrimiz arasında iqtisadi əlaqələrdə davamlı inkişaf özünü qabarıq büruzə verir. Azərbaycanda 21 Macarıstan investisiyalı şirkətin fəaliyyət göstərməsi, bu ölkənin respublikamıza 1,1 milyard ABŞ dolları məbləğində, Azərbaycanın isə dost ölkəyə 18,1 milyon ABŞ dolları həcmində investisiya yatırması bunun məntiqi nəticəsidir.

Ümumiyyətlə, Macarıstanın Azərbaycana yatırdığı investisiyanın respublikamızın bu ölkəyə qoyduğu sərmayədən 55 dəfə çox olması (1,1 milyard dollar və 18 milyon dollar), yuxarıda qeyd etdiyimiz kimi, Ələt Azad İqtisadi Zonası ilə Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumunun imzalanması, düşməndən təmizlənən ərazilərimizdə minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə 25 min avro ianə etməsi və digər çoxsaylı məqamlar tərəflər arasında iqtisadi münasibətlərin dinamik inkişafından xəbər verir.

– Göründüyü kimi, belə bir artım tendensiyasına baxmayaraq, Azərbaycan ilə Macarıstan arasında iqtisadi əlaqələrin qeyri-neft sektoru üzrə daha da inkişaf etdirilməsi potensialı kifayət qədər böyükdür. Hər iki ölkənin birgə sərmayə qoyuluşlarını, idxal və ixrac əməliyyatlarını genişləndirmək imkanları yüksək qiymətləndirilir. Bu baxımdan dost ölkəyə qarşılıqlı rəsmi səfərlər iki dövlət arasında iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edir.

Macarıstanın "MVM CEEnergy", Azərbaycanın isə SOCAR şirkətləri arasında imzalanan müqaviləyə əsasən, respublikamız 2023-cü ilin sonunadək dost ölkəyə 100 milyon kubmetr qaz tədarük etməyi nəzərdə tutur. Bütövlükdə Macarıstan Azərbaycandan ildə 2 milyard kubmetr qaz idxal etməyi planlaşdırır. Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) istifadəyə verildikdən sonra daha 5 Avropa ölkəsinin, o cümlədən Macarıstanın da Azərbaycan qazını idxal etmək imkanlarının genişlənməsi bu göstəricinin reallaşacağına əminlik yaradır.

Cənubi Qaz Dəhlizinin (CQD) yeni elementinə çevrilən IGB-nin ötürmə gücünün 3,5 milyard kubmetrdən 5 milyard kubmetrədək artırılması Macarıstan, Serbiya, Slovakiya, Ruminiya, Şimalı Makedoniya kimi ölkələrin də Azərbaycandan daha çox qaz almasına və ya yeni enerji əməkdaşlığına başlamasına imkan yaradır. Bu məqamla bağlı xatırladaq ki, dost dövlət Cənub Qaz Dəhlizi (CQD) təşəbbüsünü daim dəstəkləyir və bu layihəyə qoşulmaqla bağlı marağını daim diqqətə çatdırır. Məhz elə buna görədir ki, qarşı tərəf CQD-nin Məşvərət Şurasının illik Nazirlər görüşlərində bir qayda olaraq nazir səviyyəsində təmsil olunur.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda ötən il dekabrın 17-də Buxarestdə imzalanan Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan Hökumətləri arasında "yaşıl enerji" sahəsində strateji tərəfdaşlığa dair müvafiq Saziş xüsusi yer tutur. Həmin tarixi sənədə əsaslanılaraq adları çəkilən ölkələr arasında "yaşıl enerji"nin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi ilə bağlı layihənin icrası istiqamətində səylər hazırda uğurla davam etdirilir. Bununla da 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır.

Ekspertlərin fikrincə, sözügedən "yaşıl enerji" layihəsinin gerçəkləşməsi region və Avropa bazarları arasında elektrik enerjisinin ixracı imkanlarını genişləndirəcək, eyni zamanda, Xəzər dənizinin respublikamıza aid sektorundakı zəngin külək enerjisi potensialı Avropanın enerji təhlükəsizliyinin şaxələndirilməsini gerçəkləşdirəcək.

Bütün bu deyilənlərdən belə bir qənaət hasil olur ki, Azərbaycanla Macarıstan arasında əməkdaşlıq təkcə qaz tədarükü, eləcə də "yaşıl" enerjinin inkişafı və təchizatı ilə məhdudlaşmır. İki ölkə arasında sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait var və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu, isə Azərbaycan-Macarıstan əlaqələrinin getdikcə genişlənməsini, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsini şərtləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Sosial xəbərlər

## Xidmətlər elektronlaşdırılır

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektronlaşdırma proqramı çərçivəsində yeni "Sosial sığorta ödəmələrinin hesablanması üzrə kalkulyator" elektron xidməti istifadəyə verilib. Geniş funksional imkanları olan e-xidmət emas.sosial.gov.az internet portalında ayrıca bölmə kimi yaradılıb.**



Bölmə hər bir sığortaolunana əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik və doğum, uşağa qulluq ilə bağlı sosial sığorta hadisələri baş verdiyi zaman ona ödəniləcək sosial sığorta ödəməsinin məbləğini hesablamaq imkanı verir. Xidmətdən yararlanmaq üçün sığortaolunanlar emas.sosial.gov.az portalında şəxsi kabinetə daxil olaraq "Sosial sığorta ödəmələrinin hesablanması üzrə kalkulyator" bölməsinə keçid etməli və açılan pəncərədə sosial sığorta ödəməsinin növünü seçməlidirlər. Bundan sonra seçilmiş sosial sığorta ödəməsinin növünə uyğun olaraq tələb olunan məlumatları müvafiq xanalara daxil etməlidir. "Hesabla" düyməsi sıxıldıqda ona ödəniləcək sosial sığorta ödəməsinin məbləği ekranda əks olunacaqdır.

Yeni e-xidmət elektron xidmətlərin tətbiq dairəsinin genişləndirilməsinə, xidmətlərin keyfiyyət və əlçatanlığının, sığortaolunanların sosial sığorta ödəmələri ilə bağlı məlumatlılığının artırılmasına xidmət edir. 2021-ci ilin əvvəlindən nazirlik tərəfindən "Pensiya kalkulyatoru" elektron xidməti də istifadəyə verilib və ötən dövrdə bu e-xidmətdən 2 milyon dəfədən çox istifadə edilib.

Sosial sahədə son 5 ildə geniş elektronlaşma proqramı icra olunub və bu gün nazirliyin 153 xidmətindən 140-dan çoxu (90 faizdən çoxu) artıq e-qaydada təqdim edilir. Ötən müddətdə, həmçinin 50-dən çox proaktiv xidmət, 31 e-arayış xidməti yaradılıb.

## Pensiya ödənişləri artıb

**Cari ilin 8 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz (523 milyon manat) çox olmaqla 3 milyard 797 milyon manat vəsait yönəldilib. Pensiyaların artırılması istiqamətində növbəti addımlar olaraq, cari il fevralın 1-dən minimum pensiya 240 manatdan 280 manata çatdırılıb.**

Keçən il pensiyaçılara verilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyaları tərkibinə daxil edilib və bu artımdan sonra pensiyalar ötən il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun şəkildə 14,7 faiz indeksləşdirilməklə artırılıb. Bu ilin yanvar-avqust aylarında pensiyaların orta aylıq məbləği 18 faiz artaraq 435 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatdırılıb.




Qeyd olunan dövrdə 21 min 100, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 92 min 500 pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## Müavinət və təqaüdlər yüksəlib

**Dövlət Sosial Müdafiə Fondu ötən 8 ayda 464 min nəfərə sosial müavinət, 375 min nəfərə Prezident təqaüdü ödəyib.**




Həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 25 faiz çox olmaqla 662 milyon manat, Prezident təqaüdləri üzrə 21 faiz çox olmaqla 428 milyon manat ödənilib. Yanvar-avqust aylarında 90 min 800, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 520 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

111 min 900 pensiya, müavinət və təqaüd təyinatı elektron infrastruktur üzərindən, proaktiv qaydada həyata keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2019-cu ilin əvvəlindən başlayaraq həmin sosial ödənişlərin təyinatını elektronlaşdırıb.

Bu da vətəndaşların sosial təminat növlərinə hüquqları yarandığı halda müraciət olunmadan və sənəd təqdim edilmədən onlara müvafiq təyinatların e-qaydada aparılmasına imkan verib.

Ötən dövrdə 92 min500-ü pensiya, 520 mini isə müavinət və təqaüd olan 612 min 500 təyinat e-sistem üzərindən proaktiv qaydada aparılıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Füzuli yenidən bar-bərəkət libasına bürünüb

## 2025-ci ilə kimi burada taxıl istehsalı 130 min tona çatdırılacaq

***Bu gün Füzuli rayonunda böyük tikinti-quruculuq işləri aparılır. Yaşayış məntəqələri yenidən qurulur. Sakinlərin işlə təmin edilməsi diqqət mərkəsində saxlanılır. Burada emal və ərzaq sənayesinin inkişafı potensialı var. Bu barədə iqtisadçı–ekspert Eyyub Kərimli bildirib: "İşğaldan əvvələ qədər Füzuli rayonu böyük potensiala malik kənd təsərrüfatı rayonu idi. Rayonun əkin sahələrinin 77 faizi taxılçılıq, 21 faizi pambıqçılıq üçün istifadə edilirdi. Rayonda həm də üzümçülük və heyvandarlıq inkişaf etmişdi. Geniş su ehtiyyatları da mövcuddur. Bunun sayəsində rayonda kənd təsərrüfatının bütün sahələrinin inkişafı üçün geniş imkanlar var".***



Ekspert qeyd edib ki, Füzuliyə köçün başlaması ilə həmin bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyasının təməli qoyulub. "Ora köçən əhali işlə təmin olunacaq, sosial obyektlərin də fəaliyyəti nəzərdə tutulub. Yeni əkin sahələri dövriyyəyə cəlb ediləcək. Bu da onu deməyə əsas verir ki, artıq Füzuli rayonunun iqtisadi həyatı bərpa olunmağa başlayıb".

Hazırda müvafiq dövlət qurumları tərəfindən müxtəlif sahələr üzrə təhlillər aparılır. Aydındır ki, rayonun iqtisadiyyatında kənd təsərrüfatı əsas yer tutacaq. İlkin araşdırmalar göstərir ki, müasir texnika və texnologiyalardan istifadə etməklə rayonda məhsul istehsalını işğaldan əvvəlki illərlə müqayisədə artırmağa imkan var. Məsələn, 1980-1988-ci illərdə rayonda taxıl istehsalı respublika üzrə istehsalın 2,3 faizini təşkil edirdi. Bu rəqəm hazırda 3,3 faizə çatıb. Aparılan tədqiqatlardan məlum olur ki, 2025-ci ilə qədər rayonda taxıl istehsalını 130 min tona çatdırmaq olar.

Əvvəllər rayonda taxılçılıqdan sonra istehsalına üstünlük verilən kənd təsərrüfatı sahəsi pambıqçılıq olub. 1980-ci ildə 3 min 200 hektar sahədən 12 min 993 ton pambıq yığılmışdır. İşğaldan öncəki dövr ərzində (1980-1988) pambıqçılıqda məhsuldarlıq respublika üzrə maksimum 35,4 sentner olduğu halda, Füzuli rayonunda 40,6 sentnerə çatmışdır. Aparılan araşdırmalar nəticəsində 2025-ci ilə qədər Füzulidə pambığın intensiv üsullarla əkilib-becərilməsi hesabına 41 sentner məhsuldarlıqla istehsalın 5,5 min tona çatdırılması nəzrdə tutulur. Bu da ölkədə pambıq istehsalının təxminən 1,4 faizinin həmin rayon hesabına formalaşacağı deməkdir.

Üzümçülük də Füzulinin aparıçı sahəsidir. Burada üzüm plantasiyalarının olması və əhalinin mütəmadi məşğul olması şərabçılığın inkişaf etdirilməsi üçün zəmin yaradır. Bu baxımdan, Füzulidə də şərab zavodlarının tikintisi və üzüm plantasiyalarının salınması zəruridir.

Yuxarıda qeyd etdiyim kimi, üzümçülük Qarabağda, eləcə də Füzulidə təsərrüfatçılıq ənənəsinə malik bitkiçilik sahəsi hesab edilir. Rayonda 1,6 milyon ədəd şərti butulka istehsalı üçün şərab zavodlarının yaradılmasını nəzərdə tutan investisiya layihəsi hazırlanıb. Layihənin həyata keçirilməsi üçün investorların cəlb edilməsi planlaşdırılır. Üzüm bağlarının salınması üçün subsidiyaların, güzəştli kreditin, investisiya təşviqi sənədinin verilməsi dövlət dəstəyi hesabına təmin olunacaq. Müəssisənin xammalla təmin edilməsi üçün rayonun Yuxarı Veysəlli kəndində ümumi sahəsi 131 hektar olan hazır üzüm bağlarından istifadə olunacaq. Həmçinin ümumi sahəsi 356,3 hektar olan perspektivli sahələrdə yeni üzüm bağlarının salınması planlaşdırılır.

Hazırda dövlət tərəfindən Yuxarı Veysəlli kəndində üzümlüklərin orqanik sertifikat (Ecocert Organic Standard, EOS) alması istiqamətində danışıqlar aparılır. Layihənin dəyəri 19,6 milyon–21,3 milyon manat (cari məzənnə ilə 11,5 - 12,5 milyon dollar) arasında dəyişir. Bu qiymətləndirməyə şərab istehsalı müəssisəsinin yaradılması üçün nəzərdə tutulan xərclər (16 milyon manat), həmçinin 356,3 hektar sahədə yeni üzüm bağlarının salınması xərcləri (3,6 milyon - 5,3 milyon manat) daxildir.

Hökumətin qiymətləndirmələrinə görə, layihə hazır üzümlüklərin mövcudluğu, yüksək aqrar turizm imkanları, torpaqların əkinə yararlı olması, o cümlədən bağ sahələrini genişləndirməyə imkan verən perspektivli boş sahələrin olması kimi bir sıra üstünlüklərə malikdir.

Xatırladaq ki 1980-ci ildə 18,2 min hektardan 76,7 min ton üzüm istehsal edilmişdir. Lakin sonrakı illər məlum səbəbdən üzüm sahələri azaldılaraq 1988-ci ildə 14,1 min hektara düşmüşdür. Həmin il üzümlüklərdən 100,8 min ton məhsul əldə edilmişdir. 2019-cu ildə isə Füzulidə üzüm istehsalı cəmi 960 ton olmuşdur.

İşğaldan azad edilmiş torpaqlar üçün qəbul edilmiş tədbirlər planı çərçivəsində digər bitki növləri ilə yanaşı, üzüm sahələrinin artırılması və daha yüksək məhsuldarlıq hesabına ölkənin üzümə olan tələbatının tam təmin edilməsi gözlənilir. Üzümçülük sahəsinin, o cümlədən texniki üzüm sortlarının yetişdirilməsi bu rayonda şərabçılıq sektorunun da canlanmasının bilavasitə əsas amili olacaq. Belə ki, 2025-ci ildə Füzuli rayonunun ölkə üzrə üzüm istehsalında payının 5,1 faiz təşkil edərək 10,5 min ton civarında olması proqnozlaşdırılır.

Bağçılıq və tərəvəzçilik də Füzuli rayonunun aparıcı sahələridir. 2025-ci ilə qədər rayonda 47,4 min hektar əkin və bağ sahələrindən 208 min min ton bitkiçilik məhsulları istehsalı imkanları var. Bu da ümumilikdə ölkədə müvafiq məhsullar üzrə proqnoz istehsal göstəricilərinin 2,1 faizni təşkil edir. Bitkiçilik məhsulları istehsalı nəticəsində rayonun yaratdığı əlavə məhsulun dəyəri 119,8 milyon manat olacaq.

Qeyd edək ki, Füzuli rayonunda mövcud olan örüş-otlaq və biçənək sahələri respublikanın müvafiq sahələrinin təxminən 1,1 faizini təşkil edir. 2025-ci ilə qədər Füzuli rayonunda 56,3 min baş iribuynuzlu (inək və camışlar), həmçinin 260,4 min baş xırdabuynuzlu (qoyun və keçilər) olmaqla heyvandarlığın bərpa edilməsi ölkədə bu sahənin inkişafına və sürü dövriyyəsinin təqribən 2,4 faiz artımına səbəb olacaq. Bununla yanaşı, quşların sayının 470,9 min başa qədər, arı ailələrinin sayının isə 4 min olması gözlənilir.

Rayonun ölkə istehsalındakı payı ət istehsalında 0,6, yun istehsalında təqribən 2,4, süd və yumurta istehsalında isə müvafiq olaraq 1,2 və 1,6 faiz təşkil edəcəyi proqnozlaşdırılır. Üstəlik, rayonun keçmişdən qalan baramaçılıq ənənəsi onu göstərir ki, burada təxminən 200 ton barama istehsalı potensialı da mövcuddur.

Ümumilikdə kənd təsərrüfatı infrastrukturunun bərpası, yeni əkin sahələri və bağların salınması, otlaq sahələrinin, eləcə də heyvandarlığın inkişafı üçün zəruri tədbirlərin görülməsi nəticəsində məhsuldar dövrün başlanğıcı hesab olunan 2025-ci ildə ölkədəki kənd təsərrüfatı məhsulları istehsalına Füzuli rayonunun birbaşa əlavə töhfəsinin 147,8 milyon manat olacağı proqnozlaşdırılır.

Təbii ki, bu proqnozlar, sadəcə, aqrar potensialı əhatə edir. Sonrakı dövrdə gözlənilən emal və dəyər zənciri üzrə aqrosənaye potensialı da hesablanarsa, daha böyük miqyasda ümumi daxili məhsulda və yeni iş yerlərinin yaradılmasında həndəsi silsilə ilə müsbət dinamika qaçılmaz olacaq.

***P.ƏFƏNDİYEV***
***XQ***

**Füzuli**

# Ceyhun Bayramov BMT müzakirələrində

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci sessiyasının "Etimadın yenidən qurulması və qlobal həmrəyliyin yenidən alovlandırılması: 2030-cu il Gündəliyi və onun Dayanıqlı İnkişaf Məqsədləri üzrə sülh, firavanlıq, tərəqqi və hamı üçün dayanıqlılıq istiqamətində fəaliyyətin sürətləndirilməsi" mövzusunda ümumi müzakirələrində iştirak və çıxış edib.**



Dünyanın sərhədləri aşan çoxsaylı problemlərlə üzləşməkdə davam etdiyini vurğulayan nazir bildirib ki, iqlim dəyişikliyi tendensiyalarının kəskinləşməsindən tutmuş köklü yoxsulluğa, artan gərginliyə və dağıdıcı pandemiyalara qədər bu çağırışlar yerimizdən və ya məkanımızdan asılı olmayaraq hamımızı narahat edir, cəsur və yekdil tədbirlər tələb edir: "Hazırkı beynəlxalq siyasət getdikcə daha çox parçalanır və çoxtərəfliliyin bölünməsinə və aşınmasına gətirib çıxarır. Bu çağırışın qarşısını almaq üçün çoxəsrlik müxtəliflik və multikulturalizm ənənələrinə sahib olan Azərbaycan müxtəlif mədəniyyətlər və dinlər arasında dialoqun, qarşılıqlı anlaşmanın və hörmətin təşviqinə qətiyyətlə inanır".

Ceyhun Bayramov qeyd edib ki, Azərbaycan hökuməti "Bakı Prosesi" və "Mədəniyyət naminə sülh" kimi mühüm qlobal təşəbbüslər vasitəsilə mədəniyyətlərarası və dinlərarası dialoqu ardıcıl surətdə təşviq edib: "Artan çağırışlar fonunda Birləşmiş Millətlər Təşkilatının beynəlxalq həmrəyliyi və əməkdaşlığı gücləndirməyə davam etməsi vacibdir".

Nazir çıxışının davamında deyib ki, Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərinin ciddi riayət olunmasına, ayrı-seçkilik olmadan tətbiqinə söykənən BMT-nin əsasını təşkil edən çoxtərəfli sistemin fəallaşmasının və islahatların aparılmasının tərəfdarıdır: "Bu baxımdan, gələcəyin Zirvə Toplantısının qlobal fəaliyyəti gücləndirməsi və BMT Nizamnaməsinə və çoxtərəfliliyə kollektiv öhdəliyi nümayiş etdirmək üçün bir fürsət olacağına ümid edirik".

Azərbaycanın milli səviyyədə və Qoşulmama Hərəkatının Sədri kimi sülh, təhlükəsizlik və qlobal Dayanıqlı İnkişaf Gündəliyinə töhfə verməkdə davam etdiyini, beynəlxalq həmrəylik və çoxtərəfliliyi təşviq etmək üçün səylərini əsirgəmədiyini söyləyən Ceyhun Bayramov bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılmasının təşəbbüskarı olub. Nazir qeyd edib ki, təmiz mühit və yaşıl inkişaf yeni milli inkişaf strategiyamızın beş prioritet istiqamətindən birinə çevrilib. Azərbaycan könüllü olaraq 2050-ci ilə qədər istixana qazı tullantılarını 40 faizə endirməyi və Qarabağ və Şərqi Zəngəzur bölgələrində yaşıl enerji zonası yaratmağı öhdəsinə götürüb.

Otuz ilə yaxın hərbi işğal nəticəsində xalqımızın çəkdiyi misli görünməmiş əzablara, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan normallaşma gündəliyi təşəbbüsü ilə çıxış edib: "Ölkəmiz qarşı tərəfə bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərin bütövlüyü və toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi çərçivəsində hər iki tərəfin legitim maraqlarına bərabər və qarşılıqlı hörmətə əsaslanan sülh təklif edib. Beləliklə, Azərbaycan və Ermənistan arasında möhkəm sülhün bərqərar olması səyləri yenidən Ermənistanın revanşizm siyasətinin qurbanına çevrildi".

**XQ**

# BBC radiosunda Qarabağda yaxşılaşmadan danışılıb

**Böyük Britaniyanın BBC radiosunun Dünya Xidməti "Həftəsonu" verilişində Azərbaycanın Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirlərindən sonra yaranmış vəziyyətlə bağlı reportaj və Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovla müsahibə yayımlanıb.**



E. Əmirbəyov müsahibəsində, ilk növbədə, son günlərdə antiterror tədbirləri dayandırıldıqdan sonra görülən işlərə, Qarabağın erməni əhalisinə göstərilən humanitar yardıma diqqət çəkib. Qeyd edilib ki, Azərbaycan tərəfi bölgədəki erməni əhalisinin reinteqrasiyası üçün ardıcıl addımlar atır, eyni zamanda, humanitar vəziyyəti yaxşılaşdırmaq məqsədilə əraziyə ərzaq, dərman və digər zəruri malların çatdırılması həyata keçirilir. Azərbaycan hökumətinin Xankəndiyə göndərdiyi 50 ton yük artıq yerli erməni əhalisinə paylanılıb, Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə yaralıların daşınması təmin edilib. Xüsusilə diqqətə çatdırılıb ki, Qarabağda erməni əhalisinin sayı şişirdilmiş şəkildə 120 min nəfər təqdim olunsa da, reallıqda orada yaşayanların sayı 50 min nəfərdən çox deyil.

Xüsusi tapşırıqlar üzrə nümayəndə diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın öz öhdəliklərini tam yerinə yetirməsini, silahlı birləşmələrinin qalıqlarını Azərbaycan ərazisindən çıxarmasını istəyir. Bu proses artıq başlayıb və ilk silahlı dəstələr tərk-silah edilir. Bildirilib ki, könüllü təslim olan silahlılar, həmçinin mülki əhalinin Ermənistan ərazisinə sərbəst keçidi təmin olunacaq, vəziyyət tədricən sabitliyə doğru irəliləyəcək. Etimadın "bazardan satın alınmadığını" bildirən E. Əmirbəyov bu prosesin etimad üzərində qurulmalı olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, yerli əhali ilə birbaşa təmas bu etimadın qurulmasını hədəfləyir. Vurğulanıb ki, Azərbaycanın mülki əhali ilə heç bir problemi olmayıb və yoxdur, əsas hədəf Azərbaycan xalqının həyatı üçün riskə çevrilən qanunsuz silahlı birləşmələr və terrorçu qruplaşmalar idi. Bu proses isə artıq başa çatıb. İndi isə əmin olmaq lazımdır ki, ermənisilli mülki əhali bütün lazımi tələbat malları (ərzaq, dərman, yanacaq, elektrik enerjisi və sair) ilə təmin olunacaqlarını bilsinlər. Bütün bunlar Azərbaycan hökumətinin təmin etməyə hazır olduğu məsələlərdir.

# Azərbaycan Fransanın dənizaşırı ərazilərinin mübarizəsini dəstəkləyir



**Qoşulmama Hərəkatının sədri statusunda ölkəmizin BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev Fransanın dənizaşırı ərazilərinin təmsilçiləri ilə görüşüb.**

Bakı Təşəbbüs Qrupunun sentyabrın 22-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında təşkil etdiyi "Dekolonizasiya: Sakit İnqilab" Konfransının iştirakçıları olan bu şəxslər Fransa müstəmləkəçiliyinə qarşı mübarizədə Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın atdığı addımları və həyata keçirdiyi tədbirləri yüksək qiymətləndiriblər.

Yeni Kaledoniya, Martinika, Fransız Qvianası, Fransız Polineziyası, Qvadelupa müstəqillik və millətçi hərəkatlarının nümayəndələri, həmçinin Melaneziya Təşəbbüs Qrupunun katibi vurğulayıblar ki, təmsil etdikləri siyasi partiyalar və hərəkatlar uzun illərdir Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparsalar da, BMT kimi nüfuzlu təşkilat çərçivəsində ilk dəfədir kolonizasiyaya dair belə konfransda iştirak ediblər. İştirakçılar səslərinin artıq BMT tribunalarında eşidilməsinin onları ruhlandırdığını və bu xüsusda konfransın təşkilatçısı Bakı Təşəbbüs Qrupunun fəaliyyətini təqdir etdiklərini bildiriblər.

Fransa müstəmləkəçiliyinə qarşı mübarizə aparan Sakit və Atlantik Okeanı regionunda yerləşən dənizaşırı ərazilərin təmsilçiləri rəsmi Parisin müasir metodlarla həyata keçirdiyi müstəmləkə siyasi, habelə bu ərazilərin etnik tərkibinin süni şəkildə dəyişdirilməsi üçün qeyri-qanuni immiqrasiya siyasəti yürütdüyünü, əhalinin etnik tərkibinin süni dəyişdirilməsi üçün bir çox ölkədən, xüsusilə Suriyadan insanların buraya köçürüldüyünü diqqətə çatdırıblar.

Görüşdə, həmçinin BMT-nin Dekolonizasiya üzrə Xüsusi Komitəsinin (C24) fəaliyyəti, dənizaşırı ərazilərlə komitə arasında əməkdaşlığın qurulması imkanları ətrafında fikir mübadiləsi aparılıb, C24-ün mütəmadi təşkil etdiyi regional tədbirlərdə Fransanın yürütdüyü müstəmləkəçilik siyasətinə diqqətin artırılması, dənizaşırı ərazilərin problemlərinin dünya ictimaiyyətinə çatdırılması üçün mümkün bütün platformalardan istifadənin zəruriliyi qeyd olunub.

**XQ**

# Xarici ölkələrin hərbi attaşeləri Şuşada



**Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra ilk dəfə ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Şuşaya səfər ediblər.**

Hərbi attaşelər antiterror tədbirlərindən sonra Şuşadan Xankəndi istiqamətində Azərbaycan Ordusunun nəzarətinə keçən ərazilərə baxış keçirəcəklər. Onları Müdafiə Nazirliyinin rəsmiləri müşayiət edir.

Qeyd edək ki, səfərdə 9 attaşe və 2 beynəlxalq təşkilat iştirak edir.

**XQ**

# Ermənilərin məsələləri diqqətdə saxlanılır

**Qarabağda yaşayan ermənisilli sakinlərin Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq vətəndaşlıq məsələlərinə baxılması, onların pasportlaşdırılması, şəxsiyyət vəsiqələri ilə təmin edilməsi işi diqqətdə saxlanılır.**



Bu istiqamətdə müraciət edən şəxslər var. Ermənisilli sakinlərin əsas müraciətləri onların təhlükəsizliyi, sağlamlığı ilə bağlıdır. Yaşlı insanlar müvafiq olaraq tibbi heyətlə təmin olunub, onlar çadırlara köçürülüb.

Bunu jurnalistlərə müsahibəsində Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev bildirib.

O vurğulayıb ki, Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumları tərəfindən Füzuli, Ağdam və Kəlbəcərdə çadırlar quraşdırılıb, həmin şəxslər orada yerləşdirilib. Onlar gündəlik 24 saat fasiləsiz yeməklə təmin olunur. Eləcə də tibbi personal sağlamlıqları ilə bağlı məsələləri diqqətdə saxlayır.

**XQ**

# "Xankəndidə vəziyyət sabitdir"

**"Xankəndidə vəziyyət kifayət qədər stabildir. Hazırda Azərbaycan Silahlı Qüvvələri Rusiya sülhməramlıları ilə koordinasiyalı şəkildə qarşıda dayanan vəzifələri icra edir".**



Bu sözləri Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik Anar Eyvazov Şuşa şəhərində jurnalistlərə açıqlama verərkən deyib. A.Eyvazov bildirib ki, ordumuz sülhməramlılarla sıx şəkildə əlaqə saxlayır, mülki şəxslərin, orada yaşayan etnik ermənilərin və yenidən öz evlərinə geri dönənlərin təhlükəsizliyinin təmin edilməsi üçün lazımi tədbirləri həyata keçirir:

"Ordumuz həmçinin Qarabağdakı qanunsuz erməni silahlılarının tərksilah edilməsi prosesini də həyata keçirir. Bundan əlavə qanunsuz hərbi birləşmələrin təhvil verdiyi silah-sursat isə bir müddət sonra ictimaiyyətə təqdim olunacaq", – deyə nazirlik rəsmisi əlavə edib.

**XQ**

# Təhlükəsizliyin yeganə yolu reinteqrasiyadır

**Qarabağın erməni sakinlərinin Azərbaycanın hüquqi müstəvisinə reinteqrasiyası onların təhlükəsizliyinin təmin olunmasının yeganə yoludur.**

Bu barədə Trend-ə Qarabağ Ermənilər Hərəkatının üzvü Karina Eritsyan deyib.

"Hələ də "müstəqillik" arzusunda olanlar başa düşməlidir ki, vəziyyət əsaslı şəkildə dəyişib. Azərbaycan və Ermənistan sülh sazişi imzalamaq barədə danışıqlar aparır. Bu kontekstdə Qarabağ ermənilərinin Azərbaycanın hüquqi müstəvisinə reinteqrasiyası onların təhlükəsizliyinin təmin olunmasının yeganə yoludur.

Qarabağ erməniləri başa düşməlidir ki, onların taleyi ABŞ, Fransa, Ermənistan və digərlərindən deyil, onların özlərindən asılıdır. Xarici dövlətlər kömək etməyəcək. Bundansa reinteqrasiya və Azərbaycanda birgə yaşayış məsələsində ciddi yanaşma ortaya qoymaq lazımdır", – deyə o əlavə edib.

# Xocalıda silah-sursat anbarı aşkarlandı

**Azərbaycan Ordusunun apardığı lokal antiterror tədbirləri zamanı Xocalıda silah-sursat anbarı aşkarlanıb.**





Anbar müxtəlif növ silah-susat, mərmi yeşikləri və digər hərbi təyinatlı məhsullarla doludur.

XQ anbardan görüntüləri təqdim edir:

# Müsadirə edilmiş döyüş vasitələrinin siyahısı



**Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra sentyabrın 23-dək müsadirə edilmiş döyüş texnikası, silah və sursatın siyahısını təqdim edib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, bölgədəki qanunsuz silahlı birləşmələrin tərk-silah olunmaları istiqamətində görülən işlər davam etdirilir.

**XQ**

Qarabağ bölgəsində 23.09.2023-cü il tarixədək müsadirə edilmiş döyüş texnikası, silah və sursat

| Sıra sayı | Döyüş sursatlarının adı | Cəmi |
|---|---|---|
| 1. | Tank | 4 |
| 2. | PDM | 1 |
| 3. | MT-LB ZQ-20/3 "Zastava" | 3 |
| 4. | Top | 2 |
| 5. | Haubitsa | 12 |
| 6. | Minaatan | 12 |
| 7. | Mina | 468 |
| 8. | Mina üçün atım | 956 |
| 9. | Minaatan mərmisi | 441 |
| 10. | Qumbaraatan | 22 |
| 11. | Qumbaraatan mərmisi | 46 |
| 12. | Atıcı silah | 313 |
| 13. | Patron | 66242 |
| 14. | Raket | 50 |
| 15. | Partladıcı | 300 |
| 16. | Əl qumbarası | 62 |
| 17. | Faqot buraxıcı qurğu | 3 |
| 18. | ZRK | 28 |
| 19. | ZİL BAZASINDA NDM | 1 |
| 20. | TOR 2M EAL MAŞINI KAMAZ BAZASINDA | 1 |

# Üzeyir Hacıbəylinin sevimli tələbəsi

## Cavid əfəndinin bəstəkar oğlu Ərtoğrul

**Görkəmli bəstəkar, musiqişünas-alim, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəyli böyük dramaturq, şair-mütəfəkkir Hüseyn Cavidlə hələ gənclik illərindən dostluq edib. Bu iki mütəfəkkir sənətkarı bir-birinə bağlayan yurd sevgisi, əqidə birliyi olub.**



Amansız repressiyalar sənətkarların çox arzularına son qoydu. Cavid əfəndi həbs olunanda oğlu Ərtoğrulun 18, qızı Turanın 14 yaşı vardı. Həmin ağır günlərdə Üzeyir bəy dostunun ailəsinə arxa durdu. Baxmayaraq ki, çox qorxulu, təhlükəli zaman idi. "Xalq düşmənləri"nin ailələrinə yaxın insanlar da təqib olunurdular. Hətta Üzeyir bəyin də başı üzərində belə bir kabus dolanmaqda idi. Lakin bütün bunlara baxmayaraq, Üzeyir Hacıbəyli Cavidin ailəsinə daim mənəvi və maddi dayaq oldu. Öz qayğısını, himayəsini onlardan əsirgəmədi.

Böyük dramaturqun istedadlı oğlu Ərtoğrul Cavid 1940-cı ildə Pedaqoji İnstitutu bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuşdu. O, 1941–1942-ci illərdə Üzeyir bəyin sinfində bəstəkarlıqdan dərs almış, özünü çox istedadlı və bacarıqlı tələbə kimi göstərmiş, Üzeyir bəyin sevimlisinə çevrilmişdi.

Ərtoğrul Cavidin gələcəyinə Üzeyir bəy böyük ümid bəsləyirdi. Qeyri-adi istedad sahibi olan bu gənc həm də Konservatoriyanın Musiqi Elmi–Tədqiqat Kabinetində çalışaraq xalq yaradıcılığı nümunələrinin toplanması, folklorun nota salınması ilə məşğul olurdu.

Daim Azərbaycanın, milli mədəniyyətimizin gələcəyini düşünən Üzeyir Hacıbəylinin Cavid əfəndinin istedadlı oğlunun gələcəkdə böyük bəstəkar kimi şöhrət qazanacağına inanırdı. Ərtoğrul Cavid gənc yaşında xeyli musiqi əsəri yazmışdı. İlk əsərlərindən birini – "Doqquz variasiya"nı sevimli müəllliminə həsr etmişdi. Bundan əlavə, onun Azərbaycan el havaları əsasında yazdığı "Üç prelüd" ("Çal-oyna", "Aşıqsayağı", "Yallı"), iki uşaq miniatürü, anasına ithaf etdiyi "Naxçıvan mənzərələri" adlı 2 musiqi lövhəsini ("Zəngəzur dağlarında", "Batabat yaylaqlarında"), "Sonatina", skripka və fortepiano üçün "Poema", Nigar Rəfibəylinin şeirinə yazdığı "Eşq olsun" mahnısı və s. əsərlərini göstərmək olar. Bunlar Ərtoğrulun yazıb tamamladığı əsərlərdir. Lakin onun yarımçıq qalmış musiqiləri də var. Gənc bəstəkarın böyük simfonik orkestrin müşayiəti ilə lirik-dramatik tenor səsi üçün "Romans-kapriççio" (sözləri Nizaminin), "Şeyx Sənan", "Məhsəti" operaları, "Babəkin andı" simfonik poeması və bir sıra kamera-instrumental əsərləri tamamlanmayıb.

Ərtoğrul Cavid bəzi Avropa və rus bəstəkarlarının əsərlərinin mətnlərini də Azərbaycan dilinə uğurla tərcümə edib. Şubert, Cordani, Şopen, Motsart, Ştraus, Rimski-Korsakov, Raxmaninov, Qreçaninov və başqalarının məşhur əsərləri bu qəbildəndir. Təəssüf ki, bu əsərlərin nəşri zamanı tərcüməçi kimi Ərtoğrul Cavidin adı qeyd olunmayıb. Xalq yazıçısı Anar "Böyük sənətkarın sənətkar oğlu" məqaləsində bu barədə bəstəkar Fikrət Əmirova istinadən yazır: "Görürsünüzmü, ədəbi mətn melodiyaya necə yaxşı uyğunlaşdırılıb, axı o, kamil ədəbi savada, biliyə malik idi. Neçə-neçə Avropa və rus bəstəkarlarının romans və mahnı mətnlərini dilimizə ekviritmik tərcümə etmişdir".

Ərtoğrulu da repressiyaların zərbə dalğası apardı. Konservatoriya tələbəsi olmasına baxmayaraq, onu əsgərliyə çağırdılar. "Xalq düşməni"nin oğlunu Gürcüstanda çox ağır tunel tikintisi işlərinə göndərdilər. Orada vərəmə tutuldu... Onun müəllimləri Üzeyir bəyə, Bülbülə, anası və bacısına tez qırılan 24 baharlıq həyatının son aylarında yolladığı məktublarında xəzana düşmüş ümidlər çırpınır... Təəssüf ki, gənc bəstəkar və tədqiqatçı bir çox arzusunu həyata keçirə bilmədi. Əcəl macal vermədi.

Yazdığı məktublarda Ərtoğrul ailəsinə yardım üçün yalnız əziz müəllimi Üzeyir bəyə müraciət edirdi. O, xeyirxah saydığı dahi bəstəkara bir neçə məktub göndərib, anası Mişkinaz xanımın və bacısı Turanın işlə təminatında yardımçı olmağı xahiş edib. Kimsəsiz əzizlərinin fikrini çəkən 23 yaşlı Ərtoğrul yeganə ümid yeri sevimli müəllimi idi. Amma nigaran oğul və qardaş bilmirdi ki, peyğəmbər kimi insan olan Üzeyir bəy onsuz da Cavid əfəndinin ailəsi üçün mümkün olan hər şeyi edirdi. Hüseyn Cavid həbs olunduqdan sonra qohumlarının belə üz döndərdiyi ailəsi, başda Üzeyir bəy olmaqla, yalnız bir neçə nəfərdən himayə görürdü.



Cavid əfəndinin yadigarı Turan Cavidi Dövlət Radio Komitəsində ilk dəfə işə düzəldən də Üzeyir bəy olub. Bu barədə Turan xanım həmişə iftixarla danışardı. Turan Cavidin bununla bağlı və başqa etirafları Azər Turanın "Cavid əfəndi..." kitabında da yer alıb.

Üzeyir bəy heç vaxt ikili həyat yaşamayıb. Onun bir üzü və bir sözü vardı: Olduğu kimi görünmüş, göründüyü kimi olmuşdu. Elə bu baxımdan da Cavidlər ailəsinə münasibəti daim xeyirxahlıq olmuşdu. Hüseyn Cavid kimi bir sənətkarın itkisinə həmişə qəlbi ağrımışdı.

Əgər dahi bəstəkarın şagirdi Ərtoğrul Cavid yaşasaydı, nə qədər qiymətli əsərlər yazacaqdı. Amma xalqımızın düşmənləri buna imkan vermədilər. Repressiyanın davamı olaraq Hüseyn Cavidin yeganə oğlunu da məhv etdilər...

***Gülbəniz BABAXANLI,***
***Hüseyn Cavid Ev-Muzeyinin direktoru,***
***filologiya elmləri doktoru,***
***Əməkdar mədəniyyət işçisi***

Firəngiz Əhmədova – 95

# Səsin əbədiyaşarlıq zirvəsi

**Düz 12 ildir ki, o, aramızda yoxdur. Amma səsi, xatirəsi yaşayır. Çünki o, nadir tembrli, geniş diapazonlu, güclü və məlahətli səsi ilə seçilən sənətkar, opera səhnəmizin ilk qadın ifaçılarından biri idi. "Koroğlu" operasında Nigar, "Şah İsmayıl"da Gülzar, "Nərgiz"də Nərgiz, "Sevil"də Sevil rollarının mahir ifaçısı olsa da, Firəngiz Əhmədova adını sənətə yazaraq könüllərdə taxt-tac qurmuşdu.**



...Uşaq idik və evimiz üçün televizor yenicə alınmışdı. "Möcüzəli qutu"da onun – SSRİ Xalq artisti Firəngiz Əhmədovanın ifaları səslənəndə (özü də bu, həftədə 1-2 dəfə olurdu) hamı qulaq kəsilərdi. Mən vokal musiqisini anlamadığım üçün bir dəfə "O, niyə qışqırır?", – deyə soruşdum. Anam cavab verdi ki, qışqırmır, ay bala, səsini ləpələndirir, dalğa-dalğa qaldırıb-endirir. Yenə başa düşməsəm də, daha heç nə demədim. Amma sonralar anlayışlarım genişləndikcə anamın onun ifalarını necə obrazlı dəyərləndirdiyini dərk elədim və şaqraq səsinin sehrinə düşdüm.

Onun ifasında Üzeyir Hacıbəylinin "Sənsiz", Asəf Zeynallının "Ölkəm", Niyazinin "Arzu", Əşrəf Abbasovun "Heyran olmuşam", Ağabacı Rzayevanın "Oxu, gözəl" romansları bir ayrı lətafət qazanırdı. Çünki opera müğənnisi olsa da, səsində kökdən gələn bir lirizm vardı. Amma çoxları bilmir ki, konservatoriyanın 1-ci kursunda oxuyanda Firəngiz Əhmədova muğam dərsindən "2" alıb. Bu barədə öz xatirələrində söz açıb: "İlk semestrdə bu fəndən "2" almışdım. Göndərişlə yenidən imtahana gələndə mərhum pedaqoq Soltan Hacıbəyli Nigarın ariyasını çalıb məndən soruşdu ki, bu musiqi hansı muğam üstündə bəstələnib? Cavab verdim ki, "Segah" muğamı üstündə. Və imtahandan "5" aldım. Bundan sonra mən anladım ki, Azərbaycan opera müğənnisi milli lirizmləri unutmamalıdır".

Nə gizlədim, mən Firəngiz Əhmədovanın nə canlı konsertlərini, nə də operalarda çıxışlarını izləmişəm. Yalnız 2011-ci ilin soyuq bir dekabr günündə ondan ötrü öz evi hesab etdiyi Opera və Balet Teatrına getmişəm, onda da son dəfə səhnəyə çıxıb. Çünki dünyasını dəyişmişdi və orada vida mərasimi keçirilirdi.

Həmin hüznlü gündə ilk çıxış edən Xalq yazıçısı Elçin Əfəndiyev onu Azərbaycan mədəniyyətinin ən görkəmli simalarından biri saydığını söylədi.

**Vərəqləri saralmış qeyd dəftərçəmdən qısa sətirlər:**

**Elçin Əfəndiyev:** "Firəngiz xanım operalarla bərabər, kamera əsərlərinin və romansların bənzərsiz ifaçısı olaraq da tanınıb. O, Azərbaycan mədəniyyətinin böyük bir epoxasının son magikanlarından biri idi".

**Arif Məlikov:** "Firəngiz xanım özündən sonra iz qoyan bir sənətkar olduğundan millətin yaddaşında daim yaşayacaq".

**Fidan Qasımova:** "Çox gözəl, lirik, romantik sopranoya malik Firəngiz Əhmədova opera üçün ən çətin sayılan qadın obrazlarını oynayıb".

**Canəli Əkbərov:** "Firəngiz Əhmədovanın səsində xüsusi parlaqlıq var idi. O, öz səs möhürü ilə çox söz deyə bildi".

Üzeyir Hacıbəyli XV Beynəlxalq Musiqi Festivalının keçirildiyi bu günlərdə Firəngiz Əhmədovanın 95 yaşı tamam olur. Onun haqqında sanballı vikipedik məlumat var. Təkcə bir faktı xatırlatmaq istəyirik ki, Azərbaycan musiqisinin şöhrətini dünyaya yaymış Firəngiz Əhmədova 1998-ci ildə mədəniyyətimizin böyük qayğıkeşi olan Prezident Heydər Əliyevin fərmanı ilə halal şöhrətinin rəsmi təsdiqi olan "Şöhrət" ordeninə layiq görülüb.

***Ə.ƏLİYEV***
***XQ***

Qarabağ savaşı ekranda

# Acı tale, şirin ümid

**Bir qadının həyatına müharibə necə təsir edə bilər? Xəyal Rzanın "Maya" filmi bu suala cavab cəhdidir. Bu film hər iki Qarabağ savaşının "yükünü" çiyinlərində daşımış Maya Quliyevanın hekayətindən ibarətdir.**

Statik kameranın önündə öz həyatını danışan Maya bütün gerçəkləri boyasız-filansız, öz həqiqi rəngində dilə gətirir. Onun monoloqu ağrı-acı ilə doludur. Gənc yaşında atasını itirən, işsiz qalmış anasının öhdəsindəki ailədə böyüyən Maya nə uşaqlıq, nə də gənclik zövqlərini dadmayıb. Doğulduğu Ağdamdan uzaq düşməyə məcbur olub. Köçkünlük həyatı onu çox sınaqlara çəkib. Filmdə yaxın tariximizin acı həqiqətləri hər rakursdan işıqlandırılır.

Maya bizə meqapolis olan Bakıya ilk dəfə gələn, müəyyən çaşqınlıqlar, sarsıntılar keçirən köçkün insanların çətin günlərini də çəkinmədən anladır. Divarları adi parçadan olan, od düşüncə alışıb-yanan çadır "ev"lərdə yaşayan adamların yarızülmət həyatı göz önündə canlanır. Belə şəraitdə yaşayan Maya erkən ərə getməli olur. Qaçqınlar üçün yardım paylayan bir qurumda işləyən ərəb əsilli Mahmud Hassan onunla evlənir. İlk vaxtlar özünü nisbətən xoşbəxt saysa da, Azərbaycan və ərəb cəmiyyətlərindəki fərq Mayanın həyatına təsirsiz ötüşmür. Bərdə çadır şəhərciyindən bina evinə köçərək, yaşayış yerini dəyişsə də, acıları dəyişməz qalır.




Ailə həyatında dünyagörüşü başqa olan Mahmudla çoxlu mübahisələri düşür. Axırda o, çək-çevirlərə dözməyərək, Mahmuddan ayrılmalı olur. İki oğul övladı olan ana yenə də çətinliklər girdabında çabalayır. Amma dözüb durur. Tədricən böyük oğlu Xalid onun üçün, özünün dediyi kimi, ilk növbədə qardaş, dost rolunu oynayır. Amma Xalid Vətən müharibəsinə yollanır və şəhid olur…

Maya oğlu Xalidin şəhidliyindən yana-yana danışsa da, səbrli görünür. Bu da onun daxili aləmindən boy göstərən inanca bağlı məsələdir. Bütün varlığı ilə oğlunun cənnətməkan olmasından təsəlli alır. Xalidin müharibəyə könüllü qoşularaq Azərbaycan və "Qarabağ" futbol komandasının bayraqlarını özü ilə əmanət kimi aparması onun parlaq obrazını əks etdirir. Xalidin ən böyük arzusu bu bayraqları Şuşada dalğalandırmaq idi. Amma Zəfər gününə 5 gün qalmış o, şəhadətə yüksəlir.

Maya yenidən yaşamaq uğrunda mücadilə edir, çətinliklərə sinə gərir. Özü üçün deyil, kiçik oğlu Ömərin və Xalidindən yadigar qalan Məryəmin xatirinə yaşamalı olduğunu bilir.

Sonda savaş ağrıları ilə qıvrılan, yaraları sağalmayan Maya nəvəsi Məryəmə bir göyərçini əmanət verir. Sülhün rəmzi olan quş gələcək qadının bu həyatda savaş acısını çəkməməsi diləyini ifadə edir…

"Maya" filmi bütövlükdə müharibələrin insan həyatına təsiri haqqında düşündürücü filmdir. Ekran işində Vətənə sevgi hissi təbii şəkildə əksini tapıb. Filmdən gəlinən nəticə bundan ibarətdir ki, həyatda sülh hər şeydən vacibdir. Xəyal Rzanın filmi dünyada sülh arzusunu gerçəkləşdirən ekran işidir.

***Ceyhun MİRZƏLİ***

# Xəbərlər

## Qərbi Azərbaycan – qədim yurd yerimiz

**AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun təşkilatçılığı ilə "Xalqımızın qədim yurd yeri: Qərbi Azərbaycan" mövzusunda elmi konfrans keçirilib.**



Bölmənin sədri akademik İsmayıl Hacıyev vaxtilə ermənilərin əzəli ərazilərimizə məqsədli köçürüldüyünü, sonralar onların tarixi torpaqlarımıza sahiblənərək, xalqımıza qarşı kütləvi qırğınlar, deportasiyalar həyata keçirdiklərini bildirib. Qeyd edilib ki, havadarlarının dəstəyi ilə öz planlarını reallaşdıran ermənilər Qərbi Azərbaycanda ümumilikdə 704 kəndin türkmənşəli adını dəyişib, zaman-zaman soydaşlarımızı doğma torpaqlarından didərgin saldıqdan sonra 500-dək azərbaycanlı kəndini dağıdıb, bölgəni süni şəkildə erməniləşməyə məruz qoyublar.

Konfransda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşlarından Musa Quliyev "Göyçə-Dərələyəz elegiyası", Toğrul Xəlilov "Qərbi Azərbaycanın qayaüstü təsvirlərinin Naxçıvan paralelləri", Sara Hacıyeva "Qərbi Azərbaycanın qoç və qoyun heykəlli qəbirüstü abidələri", Aysel İsmayılova "Qərbi Azərbaycanın tarix-memarlıq abidələrində erməni vandalizminin izləri" mövzusunda məruzələr ediblər.

Erməni vandalizminə məruz qalmış Sərdar qalası, Sərdar məscidi, Abbas Mirzə məscidi, Aşıq Ələsgərin qəbirüstü abidəsi və başqa tarix-memarlıq abidələrimizin inşa tarixi, memarlıq xüsusiyyətləri və dağıdılması barədə məlumat verilib.

## "Köhnə liman"da yeni sərgi

**Fransanın Bretani regionunun Vann (Vannes) şəhərindəki "Köhnə liman"da tanınmış fotojurnalist Reza Deqatinin "Sükutun dərinliyi" adlı sərgisi təşkil edilib.**



Sərgidə fotoqrafın Şuşa, Ağdam, Qobustan, Tərtər və Oğuzda çəkilmiş fotoları nümayiş olunur. Həmin fotolar arasında erməni işğalı zamanı viran edilmiş Ağdam və digər əzəli yurd yerlərimizi əks etdirən düşmənin nə qədər vəhşi və amansız olduğunu göstərir, vandalizmə nifrət oyandırır.

Sərgidəki fotolar arasında Azərbaycan multikulturalizmini əks etdirən fotolara da yer verilib. Görüşdə Reza Deqati və həyat yoldaşı Raşel Deqati də fotoların tarixçəsindən danışıblar. Ziyarətçilər sərgi zalında yerləşdirilmiş ekranda müəllifin fəaliyyəti və çəkdiyi fotolar haqqında məlumat verən videoçarxı da maraqla izləyiblər.

## Başlıbeldə baş verənlər...

**Bakının Yasamal rayonundakı 286 nömrəli məktəbdə "Başlıbel faciəsi: erməni vandalizminin izi ilə" mövzusunda maarifləndirmə tədbiri keçirilib.**



Vətən müharibəsinin zəfərlə başa çatması torpaqlarımızın işğaldan azad olunması mənfur qonşumuzun törətdiyi vandalizm aktlarının dəlil-sübutlarla dünya ictimaiyyətinə çatdırılması üçün də imkanlar yaradıb. Belə hadisələrdən biri də 1993-cü ildə Kəlbəcərin Başlıbel kəndində törədilən faciədir.

Tədbiri məktəbin direktoru Samir Mehdizadə açıb. Məktəbin tarix müəllimi Malik Məmmədov Ermənistanın hərbi cinayətləri, Vətən müharibəsindən sonra aşkarlanan kütləvi məzarlıqlar barədə danışıb. Başlıbel faciəsi haqqında "Qanlı kaha" adlı kitab yazmış Elxan Salahov 30 il öncə törədilən və uzun müddət geniş ictimaiyyətin xəbərsiz olduğu bu hadisədən ətraflı bəhs edib. Bildirib ki, 1993-cü ilin aprelində Kəlbəcərin işğalı zamanı Başlıbel kəndində 76 sakin işğalçı ordunun mühasirəsində qalıb. Onlardan 14 nəfəri qarlı dağ aşırımlarından keçməklə mühasirədən çıxmaq istəyərkən yolda qətlə yetirilib və ya girov götürülüb. Digər 62 nəfər isə kəndin yaxınlığındakı kahalara sığınaraq 113 gün bu vəziyyətdə yaşam mücadiləsi verib. Bu müddətdə dəfələrlə erməni silahlılarının hücumuna məruz qalan dinc sakinlərdən 14 nəfəri girov götürülüb, 18 nəfəri qətlə yetirilib, 1 nəfəri itkin düşüb, 29 nəfər isə gizli dağ yolları ilə mühasirədən çıxa bilib.

Faciənin şahidlərindən biri Səlim Mehdiyev mühasirə günlərində üzləşdikləri çoxsaylı çətinlikləri, yaşadıqları ağrılı-acılı günləri xatırlayıb.

Tədbirin sonunda "Qanlı kaha" kitabı müəllim və şagirdlərə paylanılıb.

***Hazırladı:***
***Ə.DOSTƏLİ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# BMT-ni hərtərəfli islahatlar gözləyir

## Beynəlxalq qurumda oliqarx sistemi ləğv edilməlidir

**78 yaşlı BMT dünyanın ən böyük ictimai-siyasi və hüquqi təşkilatıdır. İlk cümlədə "böyük" kəlməsi ilə bərabər qeyri-ixtiyari olaraq "nüfuzlu" sözünü də yazmaq istədim. Dərhal əl saxladım, axı bu, ədalətsizlik olardı. Yarananda 50, hazırda isə 193 üzvü olan və faktiki olaraq bir qrup "oliqarx dövlət"ə (Təhlükəsizlik Şurasının 5 daimi üzvünə – müəllif) xidmət edən bu beynəlxalq qurum yersiz və mənasız, ən başlıcası isə ədalətsiz fəaliyyəti ilə çoxdan gözdən düşüb.**



Bu gün beynəlxalq siyasətdən az-çox ağlı kəsən hər kəs deyir ki, BMT-də mütləq ciddi islahatlar aparılmalı, bütün üzv dövlətlərin hüquqları heç bir ayrı-seçkilik qoyulmadan müdafiə olunmalıdır. Qurumda islahatların aparılmasına kəskin ehtiyac yarandığını, hətta baş katib Antonio Quterreş də etiraf edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan isə bunu illərdir qətiyyətlə haqlı olaraq tələb edir: "Dünya beşdən böyükdür!"

Bu məqamda tarixə retro-ekskurs etməyə lüzum var. Bəllidir ki, Birinci Dünya müharibəsindən sonra beynəlxalq aləmdəki mübahisəli məsələləri sülh yolu həll etmək kimi nəcib məqsədlərlə Millətlər Liqası yaradıldı. Ona böyük ümidlər bəslənilirdi. Lakin liqa öz "dişsiz" və yarıtmaz fəaliyyəti ilə İkinci Dünya müharibəsinin başlanmasının qarşısını ala bilmədi.

1939-1945-ci illərdə faşizm üzərində qələbə qazanmaq üçün on milyonlarla insan həyatını itirdi. Bu dəfə planetimizdə sülh və təhlükəsizliyi təmin etmək niyyətilə Birləşmiş Millətlər Təşkilatı yaradıldı. Lakin ikinci cahan savaşından qalib çıxan böyük dövlətlər Təhlükəsizlik Şurasında (TŞ) özləri üçün xüsusi imtiyazlar əldə etdilər. O dönəmdən "beşlik" dünyanın taleyini öz bildiyi, daha doğrusu, "kefi istədiyi" kimi həll etməyə başladı.

Dünyadakı nizam-tərəzini elə həmin super güclər riyakarcasına pozur, öz iradələrini özlərindən zəiflərə diktə edirdilər. Xatırlayırsınızmı, 1970-ci ilərdə ABŞ Vyetnama, təxminən 30 ildən sonra isə İraqa və Əfqanıstana, Rusiya isə 2008-ci ildə Gürcüstana və 2022-ci ildə Ukraynaya hərbi təcavüz etdi. BMT-də nə Vaşinqtonu, nə də Moskvanı sorğu-sual edən olmadı. Bunun heç bir mexanizmi də yoxdur. Hər ikisinin daşdan keçən "veto" hüququ var. Necə deyərlər, ağa Nəzərəm, belə gəzərəm!

Düzdür, xoşbəxtlikdən Üçüncü Dünya müharibəsi başlamayıb, amma bu, heç də o demək deyil ki, BMT onun qarşısına qoyulan vəzifələrin öhdəsindən gələ bilir. Təkcə bu əsrin əvvəlindən bəri dünyada baş verən amansız savaşlar, genosid və qətliamlarda on milyonlarla günahsız insanın həyatı məhv olub. BMT bu münaqişələrin qarşısını ala bilərdimi? Faktiki olaraq ala bilməyib. Əgər Allah eləməsin, yeni dünya müharibəsi başlasa, A.Quterreşin rəhbərlik etdiyi qurum onu saxlamaq gücündədirmi? Xeyr!

BMT üzvü olan 193 dövlətdə yalnız qardaş Türkiyə vaxtaşırı BMT-də islahatların aparılmasını gündəmə gətirir. Axı hər şey göz qabağındadır, nüfuzdan çoxdan düşən bu qurum faktiki olaraq indi 5 böyük dövlətin maraqlarına xidmət göstərir. Görünən budur ki, indi BMT-də oliqarx sistemi yaradılıb və bu şəraitdə onun normal, ədalətli funksionallığını təmin etmək qeyri-mümkündür.

Bəli, TŞ-nin beş daimi üzvünün qaşı, yoxsa gözü Türkiyə, Yaponiya, Almaniya və elə bizim özümüzdən – müstəqil Azərbaycanımızdan artıqdır? Sual olunur: qalan 188 ölkə bu aşkar ədalətsizliyi niyə qəbul edir? Dünyanın ağlı, məntiqi, vicdanı bu "adət etdiyimiz və öyrənilmiş acizliyə" nə üçün dözür?

Tanınmış türkiyəli qəzetçilərdən biri yazıb ki, öz daxilində ədaləti bərqərar edə bilməyən BMT-nin dünyanı daha ədalətli bir yerə çevirə bilməyəcəyini bildiyimiz halda, bu siyasi şıltaqlığa dözmək zəiflik əlamətidir, deyilmi? İnanmaq istərdik ki, bu haqsızlığa son qoyulacaq. Bir çox təhlilçilər bunun Rusiya-Ukrayna müharibəsindən sonra baş verəcəyini qeyd edirlər. Deməli, gözləməli olacağıq.

TŞ-nin beş daimi üzvünün hegemonluğu göz qabağındadır. Hazırkı sistem Birləşmiş Ştatlara, Çinə, Rusiya, Fransa və Böyük Britaniyaya sərf eləyir. Təzada baxın ki, bu böyük dövlətlərin hər biri, demək olar ki, dünyadakı bütün qlobal böhranlara az və ya çox dərəcədə cəlb olunub.

Təhlilçilər bu qənaətdədirlər ki, BMT-nin funksionallığını artırmaq üçün daimi üzvlər institutu və veto hüququ ləğv edilməlidir. TŞ-nin səlahiyyətləri məhdudlaşdırılmalı, Baş Assambleyasının, əksinə, vəzifə və imkanları genişləndirilməlidir. Qəbul edilən qərarların dəqiq icra mexanizmləri yaradılmalıdır. Əsas məqsəd bir üzv dövlətin hüquqlarının təmin edilməsi olmalıdır.

Hörmətli oxucu! Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirməli olsaq, qətiyyətlə demək olar ki, BMT-də islahatlar qaçılmazdır. Obrazlı desək, BMT hərtərəfli islahatlara "hamilə"dir. Ümid edək ki, aparılacaq dəyişikliklər dünyanın daha ədalətli idarə olunmasına öz töhfəsini verəcək.

***Fidan SALMANOVA,***
***Məsaim ABDULLAYEV***
***XQ***

### Ekspert rəyi



**Mübariz MƏMMƏDLİ,**
**fəlsəfə elmləri doktoru,**
**siyasi şərhçi**

BMT Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklər olunmasına ehtiyac var. Hətta qurumun ali orqanı olan Təhlükəsizlik Şurasının (TŞ) da tərkib hissələrinə yenidən baxılmasının zəruriliyi tez-tez bildirilir. Son zamanlar ərzində Türkiyə Prezidenti Ərdoğan tərəfindən səsləndirilən "Dünya beşdən böyükdür" sözü mesaj kimi istər TŞ üzvlərinin, istərsə də dünya düzənini müəyyənləşdirən ölkələrin siyasi gündəmində əks-səda verməkdədir.

Prezident İlham Əliyev də bir neçə dəfə Qoşulmama Hərəkatının Bakıda keçirilən sonuncu iclasında bu məsələyə toxunmuşdu. Hesab edirəm ki, BMT dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında "keşik çəkən" bir qurum kimi funksiyaları həyata keçirməlidir.

Lakin bu təşkilat Azərbaycana qarşı ərazi iddialarında olan və 30 ildən çox bir müddətdə torpaqlarımızı işğal altında saxlayan Ermənistanı və onun havadarlarını saxlayıb, onlara dur deyə bilmədi.

Hazırda TŞ-nin 15 üzvü var. Onlardan 5-i daimi, 10-u isə iki il müddətinə seçilmiş üzvlərdir. Orada qəbul olunan qərarlar məcburi xarakter daşıyır. BMT-yə üzv olan dövlətlər həmin qərarlara riayət etməlidirlər. Qarabağ məsələsi ilə bağlı BMT-də dörd qərar qəbul olunmuş, lakin heç biri reallaşmamışdır. Bunu yalnız Azərbaycan özü həyata keçirdi.

TŞ üzvlərinin siyahısına yenidən baxılmalıdır. Düzdür ki, Almaniya da güclü dövlət kimi, şuraya üzv olmağa iddialıdır. Amma unutmayaq ki, Almaniya I və II Dünya müharibələrinin başlanmasında ədalətsiz mövqe sərgiləyən bir ölkə kimi tanınır.

Digər tərəfdən, böyük bir İslam dünyasını qoruyan Türkiyə Azərbaycanın müdafiəsində daha çox fəallıq göstərir. Ədalət baxımından Türkiyənin TŞ-nin üzvü olmasını daha məqsədəuyğun hesab edirəm. Türkiyənin Rusiya-Ukrayna müharibəsində vasitəçi kimi rol oynaması, "Taxıl sazişi" ilə bağlı müsbət addımları, Cənubi Qafqazda sülhün imzalanması üçün aldığı müsbət qərarlar, Yaxın Şərqdə sabitliyin qorunmasında qətiyyətli mövqe sərgiləməsi qardaş ölkəni TŞ üzvlüyünə real namizədlərdən birinə çevirir.

# Qalib ölkənin üçqat dünya çempionu



**Azərbaycanın yunan-Roma güləşçiləri dünya çempionatında tarix yazıblar. Serbiyanın paytaxtı Belqradda keçirilən mundialda müstəqillik tariximizdə ilk dəfə yunan-Roma güləşi üzrə Eldəniz Əzizli (55 kq) üçqat dünya çempionu titulunu qazanıb. Bu nailiyyətə Məhyəddin Allahverdiyev 1980-ci illərdə - SSRİ dövründə sahib çıxmışdı.**

**Güləşçimiz bu böyük qələbəni 1 günlük antiterror əməliyyatlarında möhtəşəm uğur qazanan Azərbaycan hərbçilərinə həsr etdiyini deyib:**

– Müəyyən zədələrim var idi. Buna baxmayaraq, 3-cü dəfə dünya çempionu ola bildim. Medalımı bütün Azərbaycan hərbçilərinə həsr edirəm. Biz burada qalib gəldik, onlar isə döyüş meydanında. Əlbəttə, sinəmdəki zədə mənə çətinlik yaradırdı. Sümüyüm sınmışdı. Tam bərpa olunmasa da, yenə də bacardım. Rəbbim bu qələbəni mənə nəsib etdi. Dördüncü dəfə dünya çempionu olmağa çalışacağam.

Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, tarixi Zəfərimiz hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün qürur mənbəyidir. Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında.

**Dünya çempionatında daha bir güləşçimiz – Rafiq Hüseynov (82 kq) fəxri kürsünün ən yüksək pilləsində yer aldı. İkinci dəfə dünya çempionu tituluna yiyələnən pəhləvanımızın şərəfinə Azərbaycan bayrağı yüksəklərdə dalğalandı, Dövlət himnimiz səsləndirildi. Güləşçi finaldan əvvəl atası – şəxsi məşqçisi olan Radik Hüseynovla video bağlantı ilə söhbət etdiyini bildirib:**

– Həm ondan, həm də milli komandanın məşqçilərindən müəyyən tapşırıqlar aldım. Qərara gəldik ki, ikinci hissədə parter qazanım. İranlı güləşçinin fəndi boş icra etdiyini bilirdim. Bu vəziyyətdə onu tutub, vaxtından əvvəl qələbə qazanmaq istəyirdim. Təbii ki, təhlükəli vəziyyət idi. Amma idman riski sevir. Risk etdim və istədiyimə nail oldum. Qalib ölkənin qalib idmançısı olmaq xüsusən qürurvericidir.

**Rafiq Hüseynov onu da qeyd edib ki, 28 il əvvəl ikinci dəfə dünya çempionluğunun sevincini yaşadığı gün atası onu güləş zalına gətirib:**

– Güləşə gəldiyim gün 2-ci dəfə dünya çempionu adına sahib oldum. Olimpiada haqqında hələ fikirləşmək istəmirəm. Qismətimdə varsa, Olimpiya Oyunlarında iştirak edəcəyəm. Karyeramdan narazı deyiləm. Əlbəttə, Olimpiya çempionu olmaq istərdim. Ancaq bu uğur mənə nəsib olmasa da, məyus olmayacağam.

**Mundialda gümüş medal və Paris Olimpiadasına lisenziya qazanan Sənan Süleymanov (77 kq) bu yarışın onun üçün çox vacib olduğunu bildirib. Qeyd edib ki, bundan əvvəl bir neçə yarışda müəyyən səbəblərə görə nəticə verə bilməyib:**

– Düzdür, olimpiadaya vəsiqə əldə etməklə yanaşı, həm də arzum dünya çempionu olmaq idi. Bu yarışa çox yaxşı hazırlaşmışdım. Amma gümüş medal da pis nəticə deyil. İndi əsas hədəf Paris Yay Olimpiya Oyunlarıdır. Çalışacağam ki, Azərbaycanı Olimpiadada layiqincə təmsil edim".

Dünən Azərbaycanın daha 3 yunan-Roma güləşçisi dünya çempionatında bu gün mübarizəyə qoşulub. Millinin heyətində mundialda Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq) və İslam Abbasov (87 kq) yarışıblar.

Dünən Azərbaycanın 3-cü güləşçisi Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanıb. Belə ki, 20 yaşlı güləşçimiz Həsrət Cəfərov (67 kq) dünya çempionatında finala yüksəlməklə olimpiadada iştirak hüququ əldə edib. Avropa çempionu yarımfinalda Ermənistan təmsilçisi Slavik Qalstyana 5:3 hesabı ilə qalib gəlib.

Komandamızın digər üzvü Murad Məmmədovun (63 kq) da çıxışı uğurlu alınıb. 28 yaşlı idmançı yarımfinalda yerli komandanın üzvü Georgi Tibilovu 4:1 hesabla məğlub edərək finala yüksəlib. Hər iki idmançı bu gün həlledici mərhələdə mübarizə aparacaq. 87 kq çəkidəki təmsilçimiz İslam Abbasov isə bürünc medal şansını davam etdirir. O, təsəlliverici görüşdə mübarizə aparacaq.

***Leyla QURBANOVA***
***XQ***

# Bob Menendez bu dəfə möhkəm ilişib



**ABŞ Senatının Beynəlxalq əlaqələr komitəsinin sədri Robert (Bob) Menendez yenə də qanunun toruna ilişib. Özü də tora tək düşməyib, erməni arvadı Nadin Arslanyan da korrupsiyada ittiham olunur. ABŞ Ədliyyə Nazirliyi cümə günü elan edib ki, 2006-cı ildən Nyu-Cersi ştatını Senatda təmsil edən Bob Menendez Misir hakimiyyətinin xeyrinə göstərdiyi köməkliyin müqabilində rüşvət alıb. Azərbaycanı hər fütsətdə tənqid edən, erməniləri dəstəkləyən demokrat-senator indi qanun qarşısında cavab verəcək. Amma indi bir çoxlarını belə sual düşündürür: 50 illik siyasi karyerasında saysız-hesabsız qalmaqallar olan bu rüşvətxor senator bu dəfə də özünü necə "sudan quru" çıxaracaq?**

Nüfuzlu "Politico" jurnalı yazır ki, Nyu-Cersi ştatının yüksək səviyyəli senatorunun – böyük nüfuz sahibi olmaqda və Nyu-Cersidəki potensial rəqiblərini qorxutmaqda davam edən demokratın siyasi karyerası təxminən 50 ili əhatə edir və korrupsiya iddialarında ittihamların ədalətli payı çoxdur. Jurnal xüsusilə vurğulayır ki, B.Menendez Manhettendən Hudzon çayının o tayında yerləşən, şeflik və korrupsiyanın siyasi mədəniyyətə dərin kök saldığı Hudzon qraflığından gəlir. Buna görə də, "Politico" hesab edir ki, B.Menendezə qarşı irəli sürülən ikinci ittiham aktı bu məlumatı yaxşı tamamlayacaq.

Xatırladaq ki, kubalı mühacirlərin övladı olan B.Menendez 1974-cü ildə ilk məktəb şurası kampaniyasını apararaq, yerli siyasi patron hesab edilən şəhər meri Uilyam Mustonun rəhbərliyi altında siyasət aləmində ilk kiçik addımlarını atmağa başlayıb. Amma sonra B.Menendez siyasi ustadı sayılan merlə və müttəfiqləri ilə üz-üzə gəlib, mer Mustonun yenidən mer postuna namizədliyinə qarşı çıxıb. Hətta meri korrupsiyada ittiham edib və məhkəmədə U.Mustoya qarşı ifadə vermək üçün ədalət zalına gülləkeçirməz jiletlə gəlməsi diqqət çəkib. Bəli, naşükür adamlardandı "Süngər Bob". Bir vaxtlar ona, necə deyərlər, çörək verən merin üzünə durub.

1986-cı ildə doğulduğu Union City şəhərinin meri seçilən B.Menendez daha sonra əyalət Assambleyasında xidmət etməyə başlayıb. 2005-ci ildə Nyu-Cersi ştatının qubernatoru seçildikdən sonra Senatda çalışdığı ştatı təmsil edib. O vaxtdan indiyədək ermənipərəst senator korrupsiyada ittiham olunub, adı müxtəlif qalmaqallarla hallanıb. Məsələn, 2015-ci ildəki prokurorlar bildirmişdilər ki, B.Menendez Floridada yaşayan oftalmoloq Salomon Melgendən onun əcnəbi qız rəfiqələri üçün viza almaq müqabilində həkimdən təxminən 1 milyon dollar rüşvət alıb. Bu qalmaqal mətbuatda geniş əks-səda doğursa da, B.Menendezin həbsinə və senator kimi fəaliyyətinə son qoymayıb. ABŞ mətbuatı yazır ki, B.Menendezi indiyədək dəmir barmaqlıqlardan məhz "güclü əllər" qoruyub.

İndi demokrat-senator, deyəsən, siyasi karyerasını xilas edə bilməyəcək. Çünki ortada ciddi faktlar var. B.Menendezin erməni arvadı ilə birlikdə yaşadıqları evdə axtarış zamanı təxminən 500 min dollar dəyərində nağd pul, həmçinin qızıl-zinət əşyaları və dəbdəbəli avtomobil aşkar edilib. ABŞ mətbuatı yazır ki, ər-arvad pulun qanuni mənşəyini sübut edə bilməyib. Prokurorların fikrincə, B.Menendez Nyu-Cersi ştatından olan üç iş adamından onların maraqlarını lobbiçilik etmək, eləcə də ABŞ-dan hərbi yardım almaqda Misir hökumətinin maraqlarını təmin etmək müqabilində rüşvət alıb. 39 səhifəlik ittihamnamədə qeyd olunur ki, iş adamları Uela Hana, Jose Uribe və Fred Deibs Menendez cütlüyünə onları qorumaq, həmçinin "Misir Ərəb Respublikasına faydalı" işlər görmək müqabilində pul ödəyiblər. Xatırladaq ki, hələ 2012-ci ildə B.Menendez ABŞ Senatına yenidən seçilməzdən əvvəl nalayiq davranışda, o cümlədən Dominikan Respublikasında iki azyaşlı fahişə ilə münasibətdə olmaqda ittiham edilmişdi. Lakin dəlil çatışmazlığına görə senatora qarşı rəsmi ittiham irəli sürülməmişdi.

Xəbər verilir ki, Menendezlərin evində ilk axtarış ötən ilin iyununda aparılıb. Polis onların rəflərində və paltarlarının ciblərində ər-arvadın soyadı olan zərflər tapıb, içərisində 480 min dollar nağd pul və Nadina Arslanyanın seyfində daha 70 min dollar olub. Onların üzərində iş adamlarından birinin və onun sürücüsünün barmaq izləri aşkar edilib. Təxminən 100 min dollar dəyərində qızıl külçələr və dəbdəbəli əşyalar da tapılıb. Bundan əlavə, müstəntiqlərin fikrincə, Nadina Arslanyan iş adamlarının köməyi ilə saxta yolla yüksək maaşlı işə düzəldilib və onun həmin iş yerinə getmədiyi də aşkarlanıb.

Qeyd edək ki, bu, B.Menendezin son 10 ildə ikinci korrupsiya ittihamıdır. Ermənipərəst senatorun bu dəfə mühakimədən qaça bilməyəcəyi ehtimal olunur. Həbs olunması hələ mümkün görünməsə də, onun siyasi karyerasının sona çatdığı düşünülür. Artıq bunun ilk siqnalları verilib. "Axios" xəbər verir ki, Nyu-Cersi ştatından olan demokrat qanunvericilər ştatı Senatda təmsil edən senator B.Menendezi ona qarşı irəli sürülən rüşvətlə bağlı ciddi ittihamlar fonunda istefaya çağırıblar. Bu müraciətlə ştatın qubernatoru Fil Merfi, Ştat Assambleyasının spikeri Kreyq Koflin və Ştat Demokrat Partiyasının sədri Leroy Consin çıxış etdikləri vurğulanır. ABŞ Konqresindəki demək olar ki, bütün ştat nümayəndələri oxşar bəyanatlarla çıxış ediblər. Ancaq B.Menendez istefa vermək fikrində olmadığını bildirərək, ona qarşı irəli sürülən ittihamların ispan irsini nəzərə alaraq irqi motivli ola biləcəyinə eyham vurub. Amma dünən məlum oldu ki, ermənipərəst senator ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin sədri vəzifəsindən müvəqqəti olaraq istefa verib. Görünür, ermənipərəst senator bu dəfə də "güclü əllər"in köməyinə ümid edir. Əgər bu dəfə də senator B.Menendez bu qədər korrupsiya faktlarının fonunda qanunun pəncəsindən canını qurtara bilsə, o zaman okeanın o tayında ədalətin lazım gələndə işləmədəyini qəti əminliklə deyə biləcəyik.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 207 (30323) 24 sentyabr 2023-cü il, bazar

İdman xəbərləri

## "Böyük dəbilqə"də daha 2 qızıl medal

**Bakıda keçirilən "Böyük dəbilqə" turnirinin ikinci günündə Azərbaycan daha 2 cüdoçusu qızıl medal qazanıb.**



Komandamızın üzvləri Hidayət Heydərov (73 kq) və Zelim Tçkayev (81 kq) bütün rəqiblərini məğlub edərək qalib adına layiq görülüblər.

Qeyd edək ki, bundan əvvəl Yaşar Nəcəfov (66 kq) qızıl, Leyla Əliyeva (48 kq) gümüş medala yiyələniblər.

## Stolüstü tennisçilərimiz 9 medal qazanıblar

**Gürcüstanın Batumi şəhərində keçirilən dünya seriyalı "WTT Youth Contender" turnirində qız stolüstü tennisçilərdən ibarət Azərbaycan millisi 9 medal qazanıb.**



Məşqçilər Fərhad İsmayılov və Elnur Hidayətzadənin rəhbərliyi ilə Zemfira Mikayılova, Ləman Abdulhəmidova, Nigar Mahmudova, Xədicə Əbilzadə, Mərziyyə Nurmətova, Aylin Əsgərova, Arzu Aslanova, Aysu Ağayeva, Xədicə Eylazova və Yağmur Məmmədlidən ibarət yığma beynəlxalq turnirdə 2 gümüş, 7 bürünc medala sahib olub. İdmançılarımız yarış zamanı qarşılaşdıqları 8 erməni rəqibi məğlubiyyətə uğradıblar.

## "Formula 1": Maks yenə birincidir

**"Formula 1" üzrə Yaponiya Qran-prisinin sıralama turunda ən yaxşı nəticəni göstərən pilotun adı müəyyənləşib.**




Birinci yerdə "Red Bull" komandasının pilotu Maks Ferstappen qərarlaşıb. Karyerası ərzində niderlandlı sürücü artıq 29-cu dəfədir ki, əsas yarışda birinci sırada yer alır. "McLaren" sürücüləri – Oskar Piastri ikinci, Lando Norris isə üçüncü olublar.

Yaponiya Qran-prisində əsas yarış sentyabrın 24-də təşkil ediləcək.

*Leyla SABİRQIZI*
XQ

Kainat

## "Bennu" asteroidi Yerlə toqquşacaqmı?

**ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) 1999-cu ildə kəşf edilən "Bennu" asteroidinin Yer üçün potensial təhlükə yaratdığı barədə xəbərdarlıq edib.**



Kosmik agentliyin tədqiqat qrupu bildirib ki, bu asteroidi son 25 il ərzində izləyir və onun 2182-ci ilin sentyabrına qədər planetimizlə toqquşacağını proqnozlaşdırır.

Təhlükəli asteroid kimi tanınan "Bennu" hər 6 ildən bir Yer ətrafında orbitini tamamlayır və artıq 1999, 2005 və 2011-ci illərdə planetimizlə üç dəfə yaxından qarşılaşıb. Toqquşma şansı nisbətən az olsa da, elm adamları bu ehtimalı istisna etmirlər. Bu ehtimal, təxminən, 0,037 faizidir.

2020-ci ilin oktyabrında NASA-nın "OSIRIS-REx" missiyası "Bennu"nun səthinə enib, burada nümunə toplayıb. 2016-cı ilin sentyabrında fəaliyyətə başlayan bu missiyanın da məqsədi həmin asteroidi araşdırmaq və günəş sisteminin mənşəyi haqqında faydalı məlumat verməkdir.

Əgər "Bennu" Yerlə toqquşsa, o, təxminən, 1200 meqaton enerji buraxa bilər ki, bu da ən güclü süni nüvə silahının 24 qat gücünə bərabərdir.

*Səadət RZAYEVA*
XQ

Texnologiya yenilikləri

## "Apple"in yeni "iPhone"ları

**Dünən bütün dünyada "iPhone 15" seriyasının, eləcə də "Apple Watch Series 9", "Apple Watch Ultra 2" və USB-C korpuslu "AirPods Pro"nun satışına başlanılıb.**



Avropada yeni cihazların satışına yerli vaxtla səhər saat 8-də start verilib.

Yeni cihazları əvvəlcədən sifariş edən müştərilər dünəndən etibarən onları almağa başlayıblar. Keçən illə müqayisədə bu il əvvəlcədən sifariş verənlər 10–12 faiz çox olub.

Məlumata görə, "iPhone 15 Pro" və "iPhone 15 Pro Max" modelləri ən çox maraq doğurub. Onları "Apple" onlayn mağazasından sifariş edənlər oktyabrın sonuna, hətta noyabra qədər gözləməli olacaqlar.

XQ



## "Fujifilm" – kameradan printerə

**"Fujifilm" "İnstax Mini Link 2" adlı yeni kamera seriyasını təqdim edib. Bu model digərlərindən daha kiçik ölçüdə olması ilə fərqlənib. Kamera ilə çəkilmiş şəkilləri istənilən vaxt yanındakı printer vasitəsilə çap etmək mümkündür.**

Qeyd edək ki, "Fujifilm" şirkəti 1934-cü ildən fəaliyyət göstərir. Onların ilk məhsulu peşəkar 35 mm-lik film olmuşdur. İki il sonra, 1936-cı ildə həvəskar fotofilmlər seriyaya əlavə edildi.

1939-cu ildə təşkilat "Aşıqara" tədqiqat laboratoriyası"nı yaratdı, sonra şirkət 1948-ci ildə ilk rəngli filmini istehsal etdi.

Hazırda "Holdings Corporation və ya Fujifilm" adlanan şirkət Yaponiyada kamera, fotofilm, kinofilm və Fujifilm fotoları istehsalçısı kimi tanınır. Müəssisə, həmçinin tibbi avadanlıqlar, kompüterlər (CD-R, DVD-R və s.) və digər məhsullar istehsal edir. "Fujifilm" "Thomson Reuters" media şirkəti tərəfindən 2013-cü ildə 100 ən innovativ qlobal şirkəti siyahısına daxil edilmişdir.

*S. FİDAN*
XQ

## Azərbaycan milli geyimləri Vyanada

**Sentyabrın 17-dən 24-dək Vyanada "Mədəniyyətlərarası bağlılığın uzun gecələri" adlı mədəniyyət həftəsi keçirilir. Sayca 6-cı dəfə təşkil edilən silsilə tədbirlərdə Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi də tərəfdaş qismində iştirak edir.**



Sentyabrın 22-də Vyana Şəhər Bələdiyyəsinin Qızıl Salonunda "Dünyanın geyimləri" adlı dəfilə təşkil edilib və dəfilədə 40-dan artıq ölkənin milli geyimləri təqdim olunub.

Moda sərgisində "Bakı Milli Geyim Evi"nin rəhbəri Könül Vəlibəylinin müəllifi olduğu Azərbaycan milli geyimləri nümayiş olunub və milli geyimlərin xüsusiyyətləri barədə tamaşaçılara məlumat verilib. Bildirilib ki, təqdim olunan Azərbaycanın müxtəlif regionlarına xas geyimlərin tarixi XVII-XVIII əsrə gedib çıxır.

"Şuşa İli"nə (2022-ci il) itħaf olunan Qarabağ geyimləri, xarıbülbül motivi ilə hazırlanmış müxtəlif yaş qrupları üçün geyimlər xüsusi maraqla qarşılanıb.

Açılışda Azərbaycan Mədəniyyət Mərkəzində baş tutan silsilə tədbirlər çərçivəsində Azərbaycan musiqisi, plenar iclas, rəsm sərgisi, sənədli filmlər və digər mədəniyyət nümunələri təqdim olunub.

XQ

**Argentina millisinin və Amerikanın "İnter Mayami" klubunun hücumçusu Lionel Messi Avropa qitəsində oynamaq istəmədiyini bildirib.**

## Messi Avropaya qayıtmaq istəmir



Messi həmçinin Avropadan ABŞ-a keçdikdən sonra oyununun səviyyəsinin aşağı düşməsi ilə razılaşmadığını bildirib. "Mən həmişə olduğu kimi hazırlaşıram və oynayıram", – deyə qeyd edib.

Bu mövsüm argentinalı "İnter Mayami"nin heyətində 12 matçda 11 qol vurub, 5 məhsuldar ötürmə edib.

*MAHMUD*
XQ

Sağlamlıq

## Xəzan kədər gətirməsin!

**Günəş şüaları azaldıqca və bədən soyuğa qarşı səfərbər olduqca, insan psixikası mövsümi affektiv pozuntu vəziyyətə keçir. Klinik psixoloq Denis Dolqov payız düşkünlüyündən çıxmaq üçün gur işıqlandırmadan istifadəni tövsiyə edib.**



O, bildirib ki, gündüzün qısalması, Günəş işığının azalması ilə orqanizmdə melotonin və serotonin istehsalı azalır, buna görə psixika depressiyaya meyil edir. Bunun qarşısını almaq üçün müraciət edənlərə evdə və iş yerlərində ağ, gur işıqlanmadan istifadə etməyi, gündüz açıq havada bir az gəzməyi, D vitaminini artırmağı və idman etməyi məsləhət görürük.

Serotonin hasil edən qidaların rasiona daxil edilməsi məsləhətdir. Bunlar banan, balıq, meyvələr, çərəz, xurma, qara şokolad, kakao, pendir, nanə, çobanyastığı, Melissa çayı, müxtəlif vitaminlər, quru əncir ola bilər.

Psixoloq deyib ki, əgər bunlar sizin əhvalınızın düzəlməsinə kömək etmirsə, deməli, sizdə klinik depressiya ola bilər, bunun üçün ləngimədən psixiatra müraciət etmək məsləhət görülür.

*Z.HÜSEYNLİ*
XQ

Hadisə




## Şəhidlərin ruhuna ehtiram

**Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxıda 29 sentyabr – 1 oktyabr tarixlərində keçirilməsi nəzərdə tutulan Üzüm və Şərab Festivalı təxirə salınıb.**

Dövlət Turizm Agentliyindən verilən məlumata görə, tədbirin proqramında müxtəlif konsert və əyləncələr nəzərdə tutulduğundan Təşkilat Komitəsi şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq festivalın tarixinin dəyişdirilməsinə qərar verib.

Festivalın yeni tarixi barədə əlavə məlumat veriləcəkdir.

*AYTƏN*
XQ

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5028
SİFARİŞ 2402
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00